AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

2021-2023-CÜ İLLƏR ÜZRƏ

# DAYANIQLI İNKİŞAF HESABATI

Bakı - dekabr 2024-cü il



# MÜNDƏRİCAT


Qısaltmalar 3

İdarə Heyəti sədrinin müraciəti 4

Hesabat haqqında 5

"AzerGold" QSC haqqında 9

Dayanıqlı İnkişaf məsələlərinin idarə edilməsi 19

Maraqlı tərəflərin cəlb olunması 21

Korporativ idarəetmə 23

Risklərin idarə edilməsi 36

İnsan resurslarının idarə edilməsi 40

Sağlamlıq, əməyin mühafizəsi və təhlükəsizliyi 52

Ətraf mühitin idarəedilməsi 59

İqlim dəyişikliyi və İEYQ emissiyaları 65

Enerji səmərəliliyi 69

Suyun idarəedilməsi 73

Tullantıların idarə edilməsi 77

Torpaqlardan istifadə və mühafizə 86

Biomüxtəlifliyin mühafizəsi 91

Dayanıqlı təchizat zənciri 94

Korporativ Sosial Məsuliyyət fəaliyyəti 104

GRI Məzmun İndeksi 105

# QISALTMALAR

**AİH** - Azərbaycan İnvestisiya Holdinqi

**ARD** - Acid Rock Drainage (Turşulu süxurların drenajı)

**ÇFES** - Çovdar Filiz Emalı Sahəsi

**ÇİRES** - Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi

**ÇQ** - Çəndə Qələviləşdirmə

**DDF** - Daşkəsən Dəmir Filiz

**DEEA** - Dövlət Ekoloji Ekspertiza Agentliyi

**ETSN** - Ekologiya və Təbii Sərvətlər Nazirliyi

**ƏMTQ** - Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi

**GRI** - Qlobal Hesabat Təşəbbüsü (Global Reporting Initiative)

**ICMC** - International Cyanide Management Code (Sianidin İdarəolunması üzrə Beynəlxalq Kodeks)

**İEYQ** - İstixana Effekti Yaradan Qazlar

**İMS** - İnteqrəedilmiş Menecment Sistemi

**İRİ** - İnsan resurslarının idarəolunması

**KT** - Keyfiyyətin təminatı

**KSM** - Korporativ Sosial Məsuliyyət

**NTA** - Nəm tullantı anbarı

**RİDN** - Risklərin idarə olunması və daxili nəzarət

**SƏTƏM** - Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit

**SIRI** - Smart Industry Readiness Index

**STZİ** - Satınalmalar və təchizat zəncirinin idarəolunması

**SVMİ** - Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş

**TTS** - Təsdiqlənmiş Təchizat Siyahısı

**ÜDM** - Ümumi daxili məhsul



# İDARƏ HEYƏTİ SƏDRİNİN MÜRACİƏTİ

GRI 2-22

**Zakir Zaur oğlu İbrahimov**
**İdarə Heyətinin sədri**

Bu gün Azərbaycan Respublikası müstəqillik tarixinin ən qüdrətli dövrünü yaşayır. Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında ərazi bütövlüyünü və dövlət suverenliyini tam bərpa etmiş dövlətimiz iqtisadiyyatın dayanıqlı və dinamik inkişafı ilə bağlı qarşıya mühüm vəzifələr qoyub.

Zəngin təbii sərvətlərə malik Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfələrini verir. Neft-qaz sektoru milli iqtisadiyyatımızda aparıcı mövqedə qərarlaşıb. Bununla belə, post-neft dövrünə qədəm qoyan ölkəmizdə qeyri-neft-qaz sektorunun inkişaf etdirilməsi prioritet olaraq müəyyənləşdirilib.

Əsas vəzifələr post-neft dövrünə keçid ilə əlaqədar qeyri-neft-qaz sektorunun inkişafını təmin etmək – yeni sənaye sahələri yaratmaq, müxtəlif növ məhsul istehsalını artırmaq, idxaldan asılılığı azaltmaq və ixrac potensialını artırmaqdır.

Təsadüfi deyil ki, son dövrlər sözügedən istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində qeyri-neft-qaz sektorunun inkişafı ilə bağlı bir sıra uğurlar əldə edilib. Kənd təsərrüfatında Azərbaycan üçün ənənəvi hesab edilən sahələrin dirçəldilməsi, yeni sənaye sahələrinin yaradılması ilə müşayiət olunan ötən dövr ərzində Ümumi daxili məhsul (ÜDM) istehsalında qeyri-neft-qaz sektorunun çəkisi kifayət qədər artıb. Təkcə 2023-cü ildə Azərbaycanda ÜDM-in nominal həcmi 2022-ci illə müqayisədə **1.1%** artaraq **123 milyard manat** təşkil edib. Makro-iqtisadi göstəricilərdə artımlar məhz qeyri-neft-qaz sektoru hesabına baş verib. Bu, neft ölkəsi olan Azərbaycan üçün mühüm göstərici hesab oluna bilər. İqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər **3.7%** artıb. Ölkəmizdə istehsal edilən xammal və hazır məhsulların ixracı istiqamətində fəaliyyət də uğurla davam etdirilib. 2023-cü ildə ölkəmizin ümumi ixrac gəliri **57.6 milyard manat** təşkil edib. Qeyri-neft ixracatı üzrə gəlirlər isə 2022-ci illə müqayisədə **9.8%** artaraq **5.6 milyard manat** təşkil edib.

Dövlətimizin hərtərəfli inkişafı fonunda qeyri-neft-qaz sektorunu təmsil edən dağ-mədən şirkəti olaraq "AzerGold" QSC daim cənab Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasət kursu, qarşıya qoyduğu strateji vəzifələrin icrasına öz töhfələrini vermək üçün əzmlə çalışmaqdadır. Belə ki, QSC-nin 2017-2023-cü illər üzrə uğurlu hasilat fəaliyyəti nəticəsində istehsal edilmiş **416 min** unsiya qızıl, **853 min** unsiya gümüşün yerli və beynəlxalq bazarlarda satışına nail olunub. Bu satış əməliyyatları nəticəsində ölkə iqtisadiyyatına **1.19 milyard** manat vəsait cəlb edilib. Bununla yanaşı, dövlətə vergi və sosial köçürmələr formasında **166.2 milyon manat** vəsait ödənilib.

Bundan başqa, maliyyələşmədə dövlət büdcəsindən asılılığı maksimum aradan qaldırmağı hədəfləyən "AzerGold" QSC 2016-2023-cü illər ərzində mədən layihələrinin icrasına ümumilikdə **550 milyon** manat investisiya yatırıb. Bu məbləğin cəmi **8%-i (45 milyon manat)** dövlət büdcəsindən ayırmalar hesabına təmin edilib. Bu, əsasən QSC fəaliyyətə başladığı ilk illərdə dövlət büdcəsindən ayrılmış vəsaitdir. Həmçinin 2023-cü ildə inşası tamamlanmış, investisiya dəyəri **383 milyon manat** olan Çəndə Qələviləşdirmə Zavodu və investisiya dəyəri **15 milyon** manat olan, dövlət-özəl tərəfdaşlıq modeli əsasında təsis olunmuş törəmə şirkət – "AzerBlast" MMC-nin Sənaye Partlayıcı Maddələrinin İstehsalı Zavodu layihələrinin daxili imkanlar hesabına icrası təmin edilib.

İqtisadi sahədə səmərəli fəaliyyətimizlə yanaşı, daim ölkəmizin qoşulduğu qlobal əhəmiyyətli təşəbbüslərə, iqlim dəyişikliyi kontekstində biznes hesabatlılığının təşviqinə dəstəyimizi göstərməyə davam edirik. Bu məqsədlə ekoloji, sosial və idarəetmə (ESG) üzrə fəaliyyətimizi şəffaf şəkildə açıqlamaq üçün Qlobal Hesabatlılıq Təşəbbüsü (GRI) çərçivəsində ilk dəfə 2021-2023-cü illəri əhatə edən Dayanıqlı inkişaf hesabatını ictimaiyyətə təqdim edirik.

"AzerGold" QSC-nin Dayanıqlı inkişaf hesabatında bütün fəaliyyət istiqamətləri, o cümlədən geoloji kəşfiyyat, hasilat, satış və digər istiqamətlərdə ötən 3 il ərzində əldə olunan nailiyyətlər, istismara verilən qızıl mədənləri, strateji hədəflər, eləcə də sosial məsuliyyətlilik prinsipi əsasında ətraf mühitin mühafizəsi, yerli icmaların hərtərəfli inkişafı istiqamətində həyata keçirilən fəaliyyətlər öz əksini tapıb.

Hesab edirəm ki, "AzerGold" QSC-nin şəffaf fəaliyyətini əks etdirən bu hesabat yerli icmalardan investorlara qədər bütün maraqlı tərəflərə tərəqqimizi qiymətləndirməyə, yeni inkişaf prioritetlərimizi müəyyənləşdirməyə imkan verəcək.

# HESABAT HAQQINDA

GRI 2-1, 2-2, 2-3, 2-4, 2-5



**“AzerGold” QSC (bundan sonra “AzerGold” və ya Cəmiyyət)** olaraq şirkətimizin dayanıqlılıq üzrə əhəmiyyətli hesab etdiyi mövzuları, bu mövzular üzrə öhdəlikləri və fəaliyyət göstəricilərini əks etdirən ilk Dayanıqlı İnkişaf haqqında Hesabatımızı (bundan sonra Hesabat) açıq ictimaiyyətə təqdim etməkdən qürur duyuruq.

**Hesabatda əks olunan məlumatlar “AzerGold” QSC-nin 1 yanvar 2021-ci il - 31 dekabr 2023-cü il tarixlərini əhatə edir**, dayanıqlılıq mövzuları ilə bağlı əsas fəaliyyət göstəriciləri, həmçinin hədəf və nailiyyətlərimiz haqqında geniş məlumatları özündə birləşdirir.

Hesabat fəaliyyət və təsirlərimizin tarazlaşdırılması və hərtərəfli qiymətləndirilməsini təmin edərək, sənayemiz və maraqlı tərəflərimiz üçün əsas əhəmiyyətli mövzular üzərində qurulub.

Hesabatın hazırlanması zamanı dayanıqlılıq üzrə bütün vacib məqamların əhatə olunduğuna əmin olmaq məqsədilə aşağıda qeyd olunmuş qabaqcıl beynəlxalq təcrübələrə istinad edilib:

*GRI Standartları*



*GRI 14: Mədənçilik üzrə Sektor Standartları*

*BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (DİM)*

Hesabatda əks olunmuş əhəmiyyətli təsirlər və fəaliyyət göstəriciləri üzrə məlumatlar “AzerGold” və aşağıda sadalanan törəmə cəmiyyətləri əhatə edir:

- *“Daşkəsən Dəmir Filiz” MMC*
- *“AzerBlast” MMC*

Hər hansı göstəricinin əhatə dairəsi fərqli olduqda, həmin göstəricilər üzrə xüsusi qeydlər müvafiq hissələrə əlavə olunub.

“AzerGold” hər zaman ictimaiyyətə təqdim etdiyi məlumatların şəffaf, düzgün və dürüst olması üçün çalışır. Hazırkı Hesabatın etibarlılığını təmin etmək məqsədilə prosesə “Ernst & Young Holdings (CIS) B.V” şirkəti cəlb edilib və peşəkar yoxlama haqqında Müstəqil Əminlik Bəyannaməsi cari Hesabatın **119** səhifəsinə əlavə olunub.

# ƏHƏMİYYƏTLİ MÖVZULARIN TƏHLİLİ

GRI 3-1, 3-2, 3-3

“AzerGold” dayanıqlılıq mövzularının zamanında müəyyənləşdirilməsi və prioritetləşdirilməsini dayanıqlılıq strategiyasının və uğurlu fəaliyyətinin əsas prinsipi hesab edir. Əhəmiyyətlilik təhlilinin bir çox beynəlxalq dayanıqlılıq çərçivələri, o cümlədən GRI Standartları tərəfindən normativ kimi qəbul olunması bu prosesin əhəmiyyətini göstərir.

Əhəmiyyətli dayanıqlılıq mövzularının müəyyənləşdirilməsi, eləcə də ümumi sənaye üzrə müəyyən edilmiş əhəmiyyətlilik mövzularının fəaliyyətimizə uyğunlaşdırılması məqsədilə daxili və xarici maraqlı tərəflər üçün vacib sayılan məsələlər və sorğular nəzərə alınıb:

*Media icmalı və qabaqcıl təcrübələrin təhlili*

*Beynəlxalq sənaye trendləri və oxşar şirkətlərin dayanıqlılıq fəaliyyətlərinin təhlili*

*Yerli və xarici tələblər*

*İşçilər, o cümlədən rəhbər şəxslər ilə müsahibələr və mövcud daxili öhdəliklərin nəzərə alınması*

Nəticə olaraq, biz dayanıqlılıq fəaliyyətimiz üçün 14 əhəmiyyətli mövzunu müəyyən etmişik və nəzarətdə saxlayırıq.

# ƏHƏMİYYƏTLİLİK TƏHLİLİ NƏTİCƏSİNDƏ MÜƏYYƏN OLUNAN MÖVZULARIN SİYAHISI

### Suyun səmərəli istifadəsi

- ✓ İstehsalatda istifadə olunan suyun dövriyyəyə qaytarılması və suyun yenidən istifadəsi üzrə təşəbbüslər

***Ətraflı məlumat:*** *Suyun idarə edilməsi, səh. 73*

### Tullantıların idarəolunması

- ✓ İstehsalat sahələrində tullantıların yerli qanunvericilik və beynəlxalq hüquq normalarının tələblərinə riayət etməklə idarə olunması
- ✓ Təkrar emala yararlı tullantıların satışının qiymətləndirilməsi
- ✓ Tullantı sularının ətraf mühitlə təmasının qarşısının alınması məqsədilə müvafiq nəzarət tədbirlərinin görülməsi

***Ətraflı məlumat:*** *Suyun idarə edilməsi, səh. 79*

## İqlim dəyişikliyi və emissiyalar

- ✓ İstehsalat sahələrində stasionar və mobil mənbələrdən (birbaşa), eləcə də elektrik enerjisi sərfiyyatından (dolayı) əmələ gələn İEYQ-nin emissiyalarının qiymətləndirilməsi və nəzarətdə saxlanılması

***Ətraflı məlumat:** İqlim dəyişikliyi və İEYQ-nin emissiyaları, səh. 65*

*Ətraf mühitə təsirin idarə edilməsi, səh. 59*

## Enerji səmərəliliyi

- ✓ Enerjiyə qənaət təşəbbüsləri
- ✓ İnnovativ həllərin tədqiqatı və alternativ enerji mənbələrindən enerjinin alınması ilə bağlı danışıqların aparılması

***Ətraflı məlumat:** Enerji səmərəliliyi, səh. 69*

## Biomüxtəlifliyin mühafizəsi

- ✓ İstehsalat layihələrinin icrası müddətində Ekoloji Monitorinq proqramına uyğun biomüxtəlifliyə olan potensial təsirlərin qiymətləndirilməsi

***Ətraflı məlumat:** Biomüxtəlifliyin mühafizəsi, səh. 91*

## Mədənlərin bağlanması və istismardan çıxarılması

- ✓ İstismarı bitmiş yataqların bərpa olunması məqsədilə ikimərhələli rekultivasiya fəaliyyəti
- ✓ Yerli qanunvericiliyə və beynəlxalq standartlara uyğun mədənlərin rekultivasiya planlarının hazırlanması

***Ətraflı məlumat:** Torpaqlardan istifadə və onların mühafizəsi, səh. 86*

## Materiallardan İstifadə

- ✓ Materiallardan məsuliyyətli və səmərəli istifadə üzrə təşəbbüslər
- ✓ İstehsalatda istifadə olunan zərərli kimyəvi maddələrin ətraf mühitlə təmasda olmasının qarşısının alınması məqsədilə müvafiq nəzarət tədbirləri

***Ətraflı məlumat:** Tullantıların idarəolunması, səh. 79*

*Suyun idarə edilməsi, səh. 73*

*Məsuliyyətli material tədarükü, səh. 102*

## Əməyin mühafizəsi və təhlükəsizliyi

- ✓ Müəssisənin bütün işçiləri, podratçı şirkətlərin əməkdaşları, həmçinin Cəmiyyətin fəaliyyətindən təsirlənən icma üzvlərinin sağlamlığının qorunması və əməyin təhlükəsizliyinin təmin edilməsi sahəsi üzrə sağlam sistemin mövcudluğu

***Ətraflı məlumat:** Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52*

### İnsan kapitalının inkişafı

- ✓ İnsan resurslarının idarəolunması istiqamətində biznes tərəfdaşlıq yanaşmasını tətbiq edərək, performansın idarə edilməsi
- ✓ Təlimlərin keçirilməsi, kadr hazırlığı kimi fəaliyyətlərin həyata keçirilməsi, illik təlim proqramlarının hazırlanması

***Ətraflı məlumat:*** *İnsan resurslarının idarəolunması, səh. 40*

### Yerli icmalara dəstək

- ✓ Korporativ Sosial Məsuliyyət Komitəsinin fəaliyyəti
- ✓ Maarifləndirmə, təhsil, ətraf mühitin qorunması, sağlamlıq və s. kimi istiqamətlərdə ictimai layihələrin həyata keçirilməsi

***Ətraflı məlumat:*** *Korporativ sosial məsuliyyət fəaliyyəti, səh. 104*

### Korrupsiyaya qarşı mübarizə

- ✓ Korrupsiyaya qarşı mübarizəyə aid fəaliyyət planının hazırlanması
- ✓ AML və CFT istiqamətində siyasət və bu siyasətin tətbiqi ilə bağlı prosedurların mövcudluğu

***Ətraflı məlumat:*** *Korporativ idarəetmə, səh. 23*

*Risklərin idarə edilməsi, səh. 36*

### Vergi ödənişlərinin şəffaflığı

- ✓ Vergi öhdəliklərinə tam əməl edilməsinin daxili nəzarət sistemi vasitəsilə tənzimlənməsi
- ✓ Şirkətin vergi uçotunun yerli vergi standartlarına əsaslanaraq hazırlanması və ona nəzarət

***Ətraflı məlumat:*** *"AzerGold" QSC-nin 2021-2023-cü illər üzrə maliyyə hesabatları*

### Maraqlı tərəflərlə əlaqələrin qurulması

- ✓ Daimi əlaqələrin saxlanılması, sorğu və şikayətlərin zamanında qəbulu və nəzarətdən keçirilməsi

***Ətraflı məlumat:*** *Maraqlı tərəflərin cəlb olunması, səh. 21*

*Dayanıqlı təchizat zənciri, səh. 94*

### İqtisadi təsirlər

- ✓ İqtisadi göstəricilər və ÜDM-ə olan töhfənin daim nəzarətdə saxlanılması, strateji hədəflərin monitorinqi

***Ətraflı məlumat:*** *"AzerGold" QSC haqqında, səh. 9*

# “AZERGOLD” QSC HAQQINDA

GRI 2-1, 2-6

**“AzerGold” QSC Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 11 fevral tarixli 1047 nömrəli Sərəncamına əsasən təsis edilib. 5 iyul 2016-cı il tarixində dövlət qeydiyyatına alınaraq fəaliyyətə başlayıb.**

“AzerGold” əlvan və qara metal filizi yataqlarının öyrənilməsini, tədqiqini, kəşfiyyatını, işlənməsini və idarə olunmasını, bu sahədə yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

## LAYİHƏLƏR

“AzerGold” QSC dağ-mədən sahəsində fəaliyyətini 2016-cı ildən təşkil edib. Həmin ildən etibarən Cəmiyyət ölkəmizdə əlvan metal filizi yataqlarının idarə olunması sahəsində aktiv fəaliyyətə başlayıb. 2020-ci ildən isə “AzerGold” QSC-nin səlahiyyətləri artırılaraq qara metal yataqları üzrə də fəaliyyətin icrasına başlanılıb.

### “Çovdar” və cinah yataqları

Cəmiyyət ilk olaraq 2017-ci ildə Daşkəsən rayonunda yerləşən “Çovdar” qızıl yatağında istismar işlərinə başlayıb. Hasilat işləri ilə paralel, yatağın qızıl ehtiyatlarının artırılması məqsədilə optimizasiya və geoloji kəşfiyyat işləri həyata keçirilib. Nəticədə yatağın satılabilən qızıl ehtiyatının **179 min** unsiyadan **609 min** unsiyaya artırılmasına nail olunub. Həmçinin geoloqlarımız tərəfindən “Çovdar” yatağının cinahlarında kəşf edilmiş “Ağyoxuş” və “Mərəh”, eləcə də SSRİ dövründə potensial filizləşmə zonası kimi müəyyən edilmiş, müasir dönəmdə geoloqlarımız tərəfindən geniş tədqiq edilmiş “Tülallar” qızıl yatağı hesabına satılabilən ümumi qızıl ehtiyatı **779 min** unsiyaya çatdırılıb. Bununla, “Çovdar” və cinah yataqları hesabına ümumi satılabilən qızıl ehtiyatı bazası **4 dəfədən çox** artırılmaqla sahənin istismar müddəti 2020-ci ildən 2029-cu ilədək uzadılıb.

## ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİMİZ

- Əlvan və qara metal filizi yataqlarının tədqiqi
- Metalların hasilatı
- Xammalın emal prosesi
- Metalların yerli və beynəlxalq bazarlarda satışı
- Mədənin bağlanması və bərpası

“Çovdar” və cinah yataqlarından hasil edilmiş qiymətli metal filizlərinin emalı Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) həyata keçirilir. ÇİRES 2020-ci ildə Çovdar Filiz Emalı Sahəsinin bazasında yaradılıb. Məqsəd istehsalat prosesində mövcud maddi-texniki resurslardan mərkəzləşləşdirilmiş qaydada istifadə edilməklə müstəqil şəkildə iqtisadi səmərəsizlik riski daşıyan cinah yataqlarının iqtisadi səmərəliliyinin təmin edilməsidir.

Belə ki, 2017-ci ildə “AzerGold” QSC tərəfindən hasilat fəaliyyətinə başlanılan ilk mədən layihəsi – “Çovdar” oksid mədənindən hasil edilən qızıl və gümüş filizlərinin emalına Çovdar Filiz Emalı Sahəsində başlanılıb, 2021-ci ilə qədər ÇİRES-də davam etdirilib. 2020-ci ildə “Çovdar” sulfid və “Ağyoxuş-1”, 2021-ci ildə “Mərəh”, 2023-cü ildə isə “Tülallar” qızıl mədənindən hasil edilən filizlərin emalına ÇİRES-də başlanılıb. “Ağyoxuş” yataqlar qrupuna daxil olan “Ağyoxuş-1” mədənində hasilat işləri 2021-ci ildə başa çatdırılıb. Qarşıdakı illərdə isə “Ağyoxuş-2” və satelit qızıl yataqlarının istismarına başlanılması nəzərdə tutulub.

ÇİRES-də maksimum effektliliyin təmin edilməsi üçün aşağı zənginlik dərəcəli oksid və tranzit filizlərinin Topa qələviləşdirmə (HPL – Heap Leach Pad), orta və yuxarı zənginlik dərəcəli oksid, tranzit və sulfid filizlərinin isə Çəndə qələviləşdirmə (CIL – Carbon in Leach) texnologiyası ilə emalı həyata keçirilir.

## Topa qələviləşdirmə texnologiyası

“AzerGold” QSC-nin 2017-ci ildən istismar işlərinə başladığı “Çovdar” qızıl yatağının oksid fazası çərçivəsində qiymətli metal filizləri Topa qələviləşdirmə texnologiyası (HPL) ilə emal edilir. HLP texnologiyası ilə filizlərin mineraloji tərkibindən və metallurji xüsusiyyətlərindən asılı olaraq qızılın 75%-dək alınması təmin edilir. Zavod illik 1.4 milyon filizüyütmə potensialına malikdir. Emal müddəti isə orta hesabla 90 gündür.

## Çəndə qələviləşdirmə texnologiyası

ÇİRES-də Çəndə qələviləşdirmə texnologiyası (CIL) ilə fəaliyyət göstərən zavod 2024-cü ildə tam rejimdə istifadəyə verilib. Müəssisədə “Çovdar” qızıl yatağının sulfid fazası çərçivəsində qiymətli metal filizlərinin emalı yüksək səmərə ilə həyata keçirilir. CIL texnologiyası ilə filizlərin mineraloji tərkibindən və metallurji xüsusiyyətlərindən asılı olaraq qızılın 90%-dək alınması təmin olunur. Zavod illik 1.1 milyon ton filizüyütmə potensialına malikdir. Emal müddəti isə orta hesabla 48 saatdır.

| HLP | MƏDƏNLƏR | CIL |
|---|---|---|
| Aşağı dərəcəli oksid və tranzit filizlərin emalı (<1 q/t Au) | | Yuxarı dərəcəli oksid, tranzit, sulfid filizlərin emalı (>1 q/t Au) |

| | | |
|---|---|---|
| Ərazi **Daşkəsən**<br>İstismar dövrü **2017-2021**<br>Hasil edilib **243 min Oz**<br>Status **İstismarı tamamlanıb** | **"ÇOVDAR" OKSİD** | |
| | **"MƏRƏH"** | Ərazi **Göygöl**<br>İstismar dövrü **2021-2026**<br>Satılabilən metal həcmi **37 min Oz**<br>Hasil edilib **10 min Oz** |
| Ərazi **Daşkəsən**<br>İstismar dövrü **2020-2029**<br>Satılabilən metal həcmi **349 min Oz**<br>Hasil edilib **115 min Oz** | **"ÇOVDAR" SULFİD** | |
| | **"TÜLALLAR"** | Ərazi **Göygöl**<br>İstismar dövrü **2023-2025**<br>Satılabilən metal həcmi **97 min Oz**<br>Hasil edilib **25 min Oz** |
| Ərazi **Daşkəsən-Göygöl**<br>İstismar dövrü **2020-2021**<br>Hasil edilib **20 min Oz**<br>Status **İstismarı tamamlanıb** | **"AĞYOXUŞ-1"** | |
| | **"AĞYOXUŞ-2" VƏ SATELİT QIZIL YATAQLARI** | Ərazi **Daşkəsən-Göygöl**<br>İstismar dövrü **2024-2025**<br>Satılabilən metal həcmi **32 min Oz**<br>Status **İstismara verilməyib** |

## Geoloji tədqiqat və istismara hazırlıq mərhələsində olan filiz sahələri

"AzerGold" QSC fəaliyyətini bir hasilat sahəsindən yeni sahələr üzrə şaxələndirmək istiqamətində qısa və ortamüddətli dövr üzrə bir sıra hədəflər müəyyənləşdirib.

Cəmiyyət 2028-ci ildə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda yerləşən "Ortakənd" qızıl yatağı, Balakən rayonunda yerləşən "Filizçay" polimetal, "Mazımçay" mis yataqları, Daşkəsən rayonunda yerləşən "Daşkəsən" dəmir yataqları, 2029-cu ildə Culfa rayonunda yerləşən "Göydağ" mis-porfir, "Başkənd" mis yataqları, 2030-cu ildə isə Kəlbəcər rayonunda yerləşən "Tutxun" qızıl təzahürü sahəsini istismara verməyi planlaşdırıb. Bu məqsədlə qeyd olunan bölgələrdə və digər təzahür sahələrində aktiv geoloji tədqiqatlar, o cümlədən ehtiyatların hesablanması, optimal hasilat və emal texnologiyalarının müəyyənləşdirilməsi üçün laborator-sınaq işləri həyata keçirilir.

Bununla yanaşı, "AzerGold" QSC ölkə ərazisində mövcud olan filiz, qeyri-filiz yataq və təzahürləri üzrə geoloji kəşfiyyat proqramının icrasına dəstək göstərir. Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2023-cü il tarixli Sərəncamına uyğun olaraq, "AzerGold" QSC-nin Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə koordinasiyalı şəkildə icra etdiyi proqram Naxçıvan Muxtar Respublikası, Şərqi Zəngəzur, Qarabağ, Qazax-Tovuz və Gəncə-Daşkəsən iqtisadi rayonlarının bir hissələrini, ümumilikdə 15409 $km^2$ sahəni əhatə edir. "AzerGold" QSC-nin tədqiqat sahəsi isə 6080 $km^2$-dir.

**15 409 $km^2$**
Ümumi tədqiqat sahəsi

**6 080 $km^2$**
"AzerGold" QSC-nin tədqiqat sahəsi

**9 329 $km^2$**
Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tədqiqat sahəsi

**2 566 $km^2$**
Naxçıvan Muxtar Respublikası

**1 890 $km^2$**
Gəncə-Daşkəsən iqtisadi rayonu

**1 624 $km^2$**
Şərgi Zəngəzur iqtisadi rayonu

## TƏDQİQAT VƏ KƏŞFİYYAT MƏRHƏLƏSİNDƏ OLAN YATAQLAR

- **"Filizçay"** polimetal yatağı
- **"Mazımçay"** mis yatağı
- **"Ortakənd"** qızıl yatağı
- **"Göydağ"** mis-porfir yatağı
- **"Başkənd"** mis yatağı
- **"Nəsirvaz"** polimetal yatağı
- **"Tutxun"** qızıl təzahürü sahəsi
- **"Şorbulaq"** filiz təzahürləri sahəsi

FƏALİYYƏT DÖVRÜ ƏRZİNDƏ QAZILMIŞ QUYULARIN ÜMUMİ METRAJI

**316 000 m**

## 2023-CÜ İL RƏQƏMLƏRDƏ[1]

| | | |
|---|---|---|
| Ümumi işçi sayı **693** | Yeni qəbul edilmiş işçilərin sayı **202** | İEYQ emissiyaların miqdarı (birbaşa və dolayı), ton $CO_2$e **15,065.07** |
| Birbaşa və dolayı emissiyaların intensivliyi nisbəti, ton $CO_2$e/Oz **0.24** | Qızıl üzrə ümumi satış miqdarı (Oz) **68,170** | Gümüş üzrə ümumi satış miqdarı (Oz) **119,827** |
| Satışdan əldə olunan gəlirlər (AZN) **232,995,605** | Qızıl hasilatı (Oz) **63,724** | Gümüş hasilatı (Oz) **114,329** |

[1] *Rəqəmlər «AzerGold» üzrə verilir*

# TÖRƏMƏ ŞİRKƏTLƏR

## “Daşkəsən Dəmir Filiz” MMC

Azərbaycan Respublikası Prezidentinin 1 sentyabr 2020-ci il tarixli 2245 nömrəli Sərəncamı ilə ölkədə dəmir filizi yataqları üzrə fəaliyyətin təşkili məqsədilə “AzerGold” QSC tərəfindən ilk dəfə olaraq törəmə hüquqi şəxs qismində “Daşkəsən Dəmir Filiz” MMC təsis edilib. MMC 14 dekabr 2020-ci il tarixində dövlət qeydiyyatına alınaraq fəaliyyətə başlayıb. “Daşkəsən Dəmir Filiz” MMC-nin əsas məqsədləri qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənilməsi və idarəolunması, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin həyata keçirilməsidir.

DAŞKƏSƏN DƏMİR FİLİZ



# TÖRƏMƏ ŞİRKƏTLƏR

## “AzerBlast” MMC

Azərbaycan Respublikasında sənaye əhəmiyyətli partlayıcı maddələrin istehsalı üzrə fəaliyyətin təşkili məqsədilə dövlət-özəl tərəfdaşlığı modeli əsasında “AzerGold” QSC və “DM Servis” MMC tərəfindən “AzerBlast” MMC təsis edilib və 9 mart 2021-ci il tarixində dövlət qeydiyyatına alınıb. Şirkətin ümumi səhmlərinin 51 faizi “AzerGold”a, 49 faizi isə “DM Servis” MMC-yə məxsusdur.

AzerBlast

“AzerBlast” MMC mədənlərin hasilatı prosesində və digər sənaye sahələrində istifadə olunan mülki partlayıcı maddələrin istehsalını təşkil edərək, daxili tələbatın ödənilməsi, ölkəmizin ixrac potensialının artırılmasını əsas hədəf olaraq müəyyən edib. Bu məqsədlə 2023-cü ildə Gəncə şəhərində ölkəmizdə ilk dəfə olaraq sənaye əhəmiyyətli partlayıcı maddələrin istehsalı zavodu inşa edilib.



# MİSSİYAMIZ

TƏBİİ RESURSLARI SOSİAL RİFAHA VƏ DAYANIQLI İNKİŞAFA ÇEVİRMƏK.

# DƏYƏRLƏRİMİZ

- ƏMƏKDAŞLIQ
- ŞƏFFAFLIQ
- ƏTRAF MÜHİT VƏ SOSİAL MƏSULİYYƏT
- DAYANIQLILIQ
- DÜRÜSTLÜK
- İNNOVATİVLİK

# STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR

GRI 2-6, 3-3

“AzerGold” olaraq əlvan və qara metal filizlərinin hasilatı sektorunda dayanıqlı inkişafın təmin edilməsi məqsədilə hazırlanmış inkişaf strategiyamızı dəyişən bazar şərtləri, metal qiymətləri, yeni yataqların tapılması və işlənməsi perspektivləri kimi əhəmiyyətli faktorlara uyğun olaraq yeniləyirik. **“AzerGold”un korporativ strategiya sənədi nüfuzlu beynəlxalq məsləhətçi şirkətin iştirakı ilə tərtib edilərək, 14 sentyabr 2020-ci il tarixində Cəmiyyətin Ümumi Yığıncağı tərəfindən təsdiq edilib. 2021 və 2023-cü illərdə mövcud strategiyaya yeni əlavələr olunmuş və strategiyanın əhatə illəri 2023-2035-ci illər olaraq müəyyən edilmişdir.** Strategiya çərçivəsində müəyyən olunan prioritet layihələr Cəmiyyətin strateji layihələr portfelini formalaşdırır.

Strategiyanın tərtib edilməsi prosesi zamanı sənayedə əsas tendensiyaların müəyyən edilməsi, dövlətin maraq və hədəfləri nəzərə alınmaqla Cəmiyyətin icra edəcəyi fəaliyyətə dair əsas maliyyə və əməliyyat göstəricilərinin proqnozlaşdırılması, strateji ssenarilərin prioritetləşdirilməsi və strategiya sənədinin icrası üzrə yol xəritəsinin tərtib edilməsi kimi məqamlar nəzərə alınıb.



# STRATEJİ HƏDƏFLƏRİMİZ

| STRATEJI HƏDƏFLƏR | ƏSAS FƏALİYYƏT GÖSTƏRICİLƏRİ | MÖVCUD NAİLİYYƏTLƏR |
|---|---|---|
| **2030-cu ilədək şirkətin gəlir dövriyyəsinin 1 milyard AZN-ə çatdırılması** | • Gəlir dövriyyəsinin illər üzrə hədəfə doğru artırılması, strateji portfelə daxil olan layihələrin işə salınması.<br>• Cəmiyyətin strateji portfelinə daxil olan layihələr ilə bağlı planlaşdırılmış qrafik üzrə layihə işlərinin mərhələli şəkildə icrası. | Qızıl və gümüşün illik satış həcmində 2021-2023-cü müvafiq illəri üçün artım tendensiyası müşahidə edilmişdir. Qızıl satışı ümumi satış dəyərinin 97%-ni təşkil etmiş və satış həcmi üç il ərzində 63,5 min unsiya ətrafında olmuşdur.<br><br>2024-cü il üzrə qızıl satış həcmi 70 min unsiya səviyyəsində planlaşdırılmışdır. |
| **Strateji proqramların icrası üzrə maliyyələşmədə dövlət büdcəsindən asılılığın azaldılması** | • Qızıl üzrə investisiya tələbatının daxili maliyyə resursları hesabına qarşılanması.<br>• İnvestor və maliyyə-kredit qurumlarından layihələrin realizasiyası üçün maliyyələşdirmənin təmin olunması. | Qızıl üzrə investisiya fəaliyyətində dövlət büdcəsindən asılılıq tam şəkildə aradan qaldırılmışdır.<br><br>Digər metal növləri üzrə olan layihələr çərçivəsində potensial investorlar ilə əlaqələr yaradılmış və bu əlaqələr inkişaf etdirilir. |
| **Qeyri-neft sənayesində ən böyük şirkətlərdən (gəlirə və işçi sayına görə) birinə çevrilmək** | • Cəmiyyətdə və törəmə müəssisələrdə çalışan işçilərin sayının artırılması. | 2023-cü il ərzində işçilərin sayında ötən ilə nəzərən təxmini 25% artım müşahidə olunmuşdur. |
| **Dağ-mədən sənayesinin yan sahələrinin inkişaf etdirilməsi** | • Dağ-mədən fəaliyyətində istifadə olunan sənaye partlayıcı maddələrinin istehsalı. | Dövlət-özəl tərəfdaşlığı çərçivəsində Cəmiyyətin (51%) və DM Servis MMC-nin (49%) iştirakı ilə birgə müəssisə təsis olunmuşdur.<br><br>Sənaye partlayıcı maddələrinin istehsalı üzrə zavod tam rejimdə fəaliyyətə başlamışdır. |

Şirkətin korporativ strategiyasında qeyd olunmuş strateji məqsədlərinə nail olmaq üçün illər üzrə xüsusi tədbirlər planı hazırlanır və müvafiq struktur bölmələri ilə razılaşdırılır. Məsələn, 2023-cü il ərzində aşağıda göstərilən tədbirlərin yerinə yetirilməsi nəzərdə tutulub:

- *Cəmiyyət üzrə illik satış planının (62 500 unsiya qızıl və 108 259 unsiya gümüş) icra edilməsi (pərakəndə satış istisna olmaqla).*
- *Cəmiyyət üzrə illik hasilat planının (62 500 min unsiya qızıl, 108 259 min unsiya gümüş) icra edilməsi.*
- *Cəmiyyət üzrə illik pərakəndə satış planının (101.87 kq çəkidə qızıl və 2.84 kq çəkidə gümüş) icra edilməsi.*
- *Hasilat sahələri və ya ətraf ərazilərdə yaşıllaşdırma məqsədilə ağacəkmə aksiyalarının (1000 ədəd ağacın əkilməsi) keçirilməsi.*
- *Cəmiyyətin dayanıqlılığının diaqnostikasının aparılması və bundan irəli gələn ilk illik Dayanıqlı İnkişaf hesabatının 2023-cü ilin sonuna qədər hazırlanması.*[2]
- *Qəza hadisələri sayının "0" həddində saxlanılması.*
- *İllik təlimlərin dəyərləndirilmə nisbətinin 80%-dən yuxarı olması.*

Cəmiyyətdə tətbiq olunan Keyfiyyət idarəetmə sistemləri, Ətraf mühit idarəetmə sistemləri, Peşə sağlamlığı və təhlükəsizliyini idarəetmə sistemləri standartlarının tələbi olaraq hər il Cəmiyyətdə İMS üzrə məqsədlər İdarə Heyətinin sədri tərəfindən təsdiq edilir. Bu məqsədlər struktur bölmələrlə ötən ilin İMS üzrə məqsədləri, rəhbərliyin tələbləri (hədəfləri), resurslar və s. müzakirə edilməklə formalaşdırılmaqdadır. İMS üzrə məqsədlər, adətən satış (xarici və daxili satış), istehsal, ətraf mühit və təlimlər üzrə SMART məqsədlər olur.

İMS və şirkətin strategiyası arasında güclü bir əlaqə mövcuddur. Bu əlaqə müxtəlif idarəetmə sistemlərinin Cəmiyyətin ümumi məqsədləri ilə uyğunlaşdırılması və bu məqsədlərə nail olmaq üçün istifadə edilməsindən ibarətdir. İMS Cəmiyyətin məqsədlərinə uyğun olaraq, müxtəlif idarəetmə sistemlərinin birləşdirilməsini təmin edir. Bu, Cəmiyyətin məqsədlərinin daha asan və səmərəli şəkildə yerinə yetirilməsinə kömək edir.

---

[2] *Planlamada dəyişiklik edildiyindən qeyd olunan hədəf 2024-cü ilin hədəflərində nəzərdə tutulur*

# DAYANIQLI İNKİŞAF MƏSƏLƏLƏRİNİN İDARƏOLUNMASI

GRI 2-12, 2-14

“AzerGold”da dayanıqlı inkişaf ilə bağlı xüsusi struktur və ya rəsmi siyasət mövcud olmasa da, davamlı təcrübələrin əməliyyatlara inteqrasiyasının vacibliyi nəzərə alınır. **Ətraf mühitə nəzarət və sosial məsuliyyətə sadiqliyimiz biznesə yanaşmamızda əks olunur.** Kəşfiyyatdan tutmuş rekultivasiyaya qədər əməliyyatların bütün mərhələlərində dayanıqlılıq əsas məsələlərdəndir.

Cəmiyyətin İdarə Heyəti dayanıqlı inkişaf üzrə təşəbbüslərin idarə edilməsində mühüm rol oynayır. Rəhbərlik strateji istiqamətləri müəyyən etmək və resursları bölüşdürməklə davamlılığın biznes əməliyyatlarına inteqrasiyasını təmin edir.

“AzerGold” təhlükəsiz, sosial və ekoloji cəhətdən məsuliyyətli şəkildə fəaliyyət göstərərək, əməkdaşların, onların ailələrinin və yerli icmaların rifahına töhfə verməklə yanaşı, fəaliyyət nəticəsində təsirə məruz qalan tərəflərin hüquqlarına, mədəniyyətlərinə, adət-ənənələrinə və dəyərlərinə hörmətlə yanaşmağı təşviq edir.

Fəaliyyət zamanı ətraf mühitə nəzarət Cəmiyyət üçün yüksək əhəmiyyət daşıyır. **Ətraf mühitə potensial təsirləri müəyyən etmək və aradan qaldırmaq məqsədilə bütün layihələr üçün ƏMTQ sənədi hazırlanır və tələbləri icra edilir.** Bu qiymətləndirmələr Cəmiyyətin ətraf mühitə təsirlərini minimuma endirmək və təbii ehtiyatları qorumaq üçün tədbirlər həyata keçirməyə imkan verir.

## SOSİAL MƏSULİYYƏT

“AzerGold” maraqlı tərəflər üçün ortaq dəyər yaratmaqla sosial məsuliyyətliliyi fəaliyyətinin əsas prinsiplərindən birinə çevirib. Cəmiyyətin qəbul etdiyi Sosial təsir və məsuliyyət üzrə siyasət fəaliyyətin ətraf mühit, hasilat ərazilərində yaşayan yerli əhali və onların hüquqlarına göstərə biləcəyi mümkün təsiri ədalətli şəkildə tənzimləmək öhdəliyinin sübutudur. İcma inkişafı layihələri, xeyriyyəçilik səyləri və yerli təşkilatlarla tərəfdaşlıq kimi təşəbbüslər vasitəsilə Cəmiyyət davamlı inkişafa töhfələr vermək əzmini ortaya qoyur.

## MÜASİR TEXNOLOGİYALARIN TƏTBİQİ

Əməliyyatların davamlılığının təmin edilməsi, biznes və istehsal proseslərinin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə “Müasir Texnologiyaların Tətbiqi” üzrə Komissiya yaradılıb. Komissiya ekoloji göstəricilər və əməliyyat səmərəliliyini yaxşılaşdırmağa yönəlmiş innovativ həllərin mümkünlüyünün və effektivliliyinin qiymətləndirilməsində mühüm rol oynayır.

Müasir texnologiyaların mənimsənilməsi səylərimizin bir hissəsi olaraq, 2023-cü ildə ixtisaslı xarici məsləhətçi tərəfindən Dünya İqtisadi Forumunun tövsiyə etdiyi SIRI qiymətləndirilməsi metoduna uyğun olaraq, Cəmiyyətin rəqəmsal hazırlığının qiymətləndirilməsi aparılıb. Bu qiymətləndirmə “AzerGold”u cari texnoloji imkanlar və rəqəmsal transformasiyaya hazırlıq haqqında əhəmiyyətli tapıntılar və tövsiyələrlə təmin edib. Bu tövsiyələr prosesləri optimallaşdırmağa və ətraf mühitə təsiri minimuma endirməyə yönəlmiş təşəbbüslərimiz üçün olduqca faydalıdır.

## YAŞIL ENERJİ HƏLLƏRİNİN TƏDQİQİ

Əməliyyatlar çərçivəsində texnoloji irəliləyişləri qiymətləndirməkdən əlavə "AzerGold" bərpa olunan enerji mənbələrinə keçid imkanlarını araşdırır. Cəmiyyət yaşıl enerjinin alınmasının mümkünlüyünü araşdırmaq üçün potensial təchizatçılar və investorlarla müzakirələr aparır. Bu təşəbbüs Cəmiyyətin karbon izinin azaldılması və mühitin davamlılığının təşviq edilməsi sahəsindəki fəaliyyətinə töhfə verəcəkdir.

## DAYANIQLILIĞIN DİAQNOSTİKASI

2023-cü ildə "AzerGold"un cari fəaliyyətini qiymətləndirmək, təkmilləşdirilməli sahələri müəyyən etmək məqsədilə Dayanıqlılıq Diaqnostikasının aparılması üçün məsləhətçi cəlb edilib. Diaqnostikanın nəticələri əsasında məsləhətçi tərəfindən təkmilləşdirmə təklifləri və davamlı təcrübələrin həyata keçirilməsi üçün yol xəritəsi təqdim ediləcək. Daha sonra Cəmiyyətin dəyərlərinə, maraqlı tərəflərin ehtiyac və tələblərinə uyğun gələn təşəbbüslərə üstünlük verilərək, davamlılıq üzrə daxili fəaliyyət planı hazırlanacaq.



# MARAQLI TƏRƏFLƏRİN CƏLB OLUNMASI

GRI 2-29

Maraqlı tərəflərin mütəmadi şəkildə cəlb olunması bir sıra risk və imkanların vaxtında təyin olunması üçün əhəmiyyətli addımlardan biri hesab olunur. Bu proses şirkətin əməliyyatlarının şəffaflığının artırılmasına, maraqlı tərəflərin fikirləri və gözlədikləri məqamların biznes qərarlarına inteqrasiyasına və effektiv ikitərəfli ünsiyyətin qurulmasına yol açır.

Biznes proseslərinin keyfiyyətinin idarə edilməsi şöbəsinin **Keyfiyyətin Təminatı (KT) sektoru** tərəfindən struktur bölmələrin dəstəyi ilə daxili və xarici kommunikasiyanın müəyyən edilməsi məqsədilə kiminlə (və ya hansı qurumla), necə, nə zaman, nə üçün və kim tərəfindən əlaqə qurulmasının təyin edilməsi və izlənilməsi üçün "Kommunikasiya planı" hər ilin əvvəlində tərtib edilməli, **KT sektoru** tərəfindən ildə 2 dəfədən az olmayaraq nəzərdən keçirilməli və zərurət yaranarsa, aidiyyəti üzrə razılaşdırılmaqla dəyişiklik edilməlidir. Sözügedən plan İdarə Heyətinin sədri tərəfindən imzalanaraq təsdiq edilməlidir. Bu plan böhran vəziyyətləri zamanı nəzərdə tutulan kommunikasiya tələblərinə şamil olunmur və həmin tələbləri əhatə etmir.

Maraqlı tərəflərin siyahısı

| MARAQLI TƏRƏFLƏR | ƏSAS MARAQ İSTİQAMƏTLƏRİ | KOMMUNİKASİYA VASİTƏLƏRİ |
|---|---|---|
| **Səhmdarlar və investorlar** | "AzerGold"un maliyyə gəliri göstəricilərinin artması, səhmlərinin dəyərinin yüksəlməsi və dividendlərin vaxtında və müntəzəm ödənilməsi səhmdarların və potensial investorların maraq dairəsindədir. Cəmiyyətin fəaliyyətini düzgün qiymətləndirmək və qərar verə bilmək üçün şirkətin maliyyə hesabatlarının şəffaf olması vacibdir. | • Səhmdarlarla görüşlərin keçirilməsi<br>• İllik maliyyə hesabatları |
| **Dövlət və tənzimləyicilər** | "AzerGold"un təsisçisi kimi çıxış edən dövlət və aidiyyəti dövlət qurumları üçün şirkətin yerli qanunlara və digər hüquqi aktlara tam riayət etməsi, vergi və digər maliyyə öhdəliklərini vaxtında icra etməsi və digər maraqlı tərəflərin hüquqlarının qorunması diqqət mərkəzindədir. | • Elektron sənəd dövriyyəsi vasitəsilə qurumlardan "AzerGold"a göndərilən məktublar<br>• E-poçt vasitəsilə dövlət qurumları ilə rəsmi əlaqə<br>• Müşahidə Şurası ilə mütəmadi iclaslar<br>• Konfranslar və forumlar<br>• Rəsmi hesabatlar |

| MARAQLI TƏRƏFLƏR | ƏSAS MARAQ İSTİQAMƏTLƏRİ | KOMMUNİKASİYA VASİTƏLƏRİ |
|---|---|---|
| **Yerli icmalar** | Yerli icmaların maraq istiqamətlərinə, yerli iqtisadiyyata töhfə verən tədbirlərin görülməsi, bununla yanaşı iş yerlərinin yaradılması, yerli əhalinin və ətraf mühitin şirkətin fəaliyyət təsirlərindən qorunması və təsir daxilində olduqları mövzular barəsində söz haqqına sahib olmaları daxildir. | • Ərizə formaları<br>• Öncədən qeydiyyat olunmaqla ÇFES-in inzibati binasında hər təqvim ayında 2 dəfə təsdiqlənmiş cədvəl üzrə görüşlər<br>• Mərkəz ofisə müraciət edən vətəndaşların qəbulu<br>• Yerli icmalarla ziyarət xarakterli görüşlər |
| **Təchizatçılar** | Təchizatçılar üçün müqavilə şərtlərinin ədalətli və şəffaf olması, müqavilə üzrə ödənişlərin vaxtında yerinə yetirilməsi və uzunmüddətli əməkdaşlıq perspektivləri mühüm hesab edilir. | • Dövri görüşlər/sahə ziyarətləri<br>• E-poçt vasitəsilə sorğular<br>• Yoxlama siyahıları/hesabatlar<br>• Təlimlər |
| **Müştərilər** | Müştərilər “AzerGold”un təqdim etdiyi məhsul və xidmətlərin yüksək keyfiyyətli olmasını, rəqabətli qiymətlərin mövcudluğunu və müştəri xidmətlərinin səmərəli və sürətli olmasını gözləyir. Onlar həmçinin şirkətin sosial fəaliyyətinə və ətraf mühitin qorunmasına dair səylərini də yüksək qiymətləndirirlər. | • Veb sayt vasitəsilə satış<br>• Satış və mübadilə mərkəzi vasitəsilə birbaşa alış<br>• Telefon/e-poçt<br>• Veb sayt vasitəsilə sorğular |
| **Media** | Media nümayəndələri üçün “AzerGold” haqqında dəqiq və vaxtında məlumat almaq, press-relizlər və ictimaiyyətlə əlaqələrdə şəffaflıq əsas prioritetdir. Medianın əsas marağı şirkətlə bağlı dəyişiklikləri və məlumatları operativ və etibarlı mənbədən əldə etməkdir. | • Press-relizlər<br>• Mətbuat konfransları<br>• Müsahibələr |
| **İdarəetmə** | İdarəetmə komandasının diqqət mərkəzində “AzerGold”un ESG ilə bağlı strateji qərarlarının icrası, maliyyə nəticələri, rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə təcrübələri, əməliyyatların effektivliyi və ümumi şirkət performansı dayanır. Həmçinin işçi məmnuniyyəti, innovasiya və davamlı inkişaf strategiyalarının həyata keçirilməsi də idarəetmə komandasının maraqlı olduğu mövzular siyahısındadır. | • Hesabatlar<br>• Daxili iclasla |
| **İşçilər** | İşçilər üçün “AzerGold”da iş şəraitinin təhlükəsiz və sağlam olması, ədalətli əmək haqqı, peşəkar inkişaf imkanları və davamlı təlimlərin təmin edilməsi vacibdir. Onlar həmçinin şirkətin işçi hüquqlarına hörmət etməsini və sosial təminatların təmin edilməsini də gözləyir. Eyni zamanda ədalətli iş mühitinin təmin olunması Cəmiyyətin əsas maraqlarından biridir. | • Birbaşa görüşlər<br>• Xüsusi sorğu qutuları<br>• Risklərin idarəolunması və daxili nəzarət şöbəsinə müraciətlər<br>• Bəzi şöbələrdə “açıq qapı”günləri<br>• E-poçtlar/üzbəüz ünsiyyət imkanı<br>• İşçilər üçün müşahidə kartları<br>• İnsan resurslarının idarəolunması şöbəsinə müraciətlər |

# KORPORATİV İDARƏETMƏ

## "AZERGOLD" QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN TƏSİS VƏ İNKİŞAF TARİXİ

"***AzerGold*" *olaraq əsas hədəfimiz ölkə iqtisadiyyatının inkişafı çərçivəsində qeyri-neft sektorunun tərəqqisinə təkan vermək olmuşdur***. Təsis olunduğumuz gündən bu günə qədər müəyyən etdiyimiz strateji hədəflərimizə xidmət edəcək texniki və sənaye səriştəliliyimizin artırılması, fəaliyyət sahələrimizin daim genişləndirilməsi və idarəetmə sistemimizin səmərəliliyinin artırılması istiqamətində yeni qərarlar qəbul olunmuş və qabaqcıl yanaşmalar mənimsənilmişdir.

### "AzerGold"un təsis edilməsi və inkişaf tarixi

**2015**
**Fevral**

Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamı ilə "***AzerGold" QSC təsis edilmişdir.***

**2020**
**Sentyabr**

Azərbaycan Respublikası Prezidentinin 1 sentyabr 2020-ci il tarixli 2245 nömrəli Sərəncamı ilə fəaliyyətimizə ***dəmir filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənilməsi və idarə olunması, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsi*** vəzifələri əlavə edilmişdir.

**2020**
**Dekabr**

Dəmir filizi yataqları üzrə fəaliyyətin təşkili məqsədilə ***ilk törəmə cəmiyyətimiz "Daşkəsən Dəmir Filiz" MMC*** təsis edilmişdir.

**2021**
**Fevral**

"AzerGold" QSC ***Azərbaycan İnvestisiya Holdinqinin (AİH) idarəetməsinə*** verilmişdir.

**2021**
**Mart**

***İkinci törəmə cəmiyyətimiz olan "AzerBlast" MMC*** təsis olunmuşdur.

# KORPORATİV İDARƏETMƏYƏ YANAŞMAMIZ

***İnanırıq ki, güclü korporativ idarəetmə hər bir təşkilatın uzunmüddətli uğurunun təməlidir.*** Müxtəlif maraqlı tərəflərin qarşılıqlı əlaqəsini idarə etməklə idarəetmə sistemləri operativliyi, eyni zamanda dürüstlük, şəffaflıq və dayanıqlılığı təmin edir. Dayanıqlı və şəffaf idarəetmə strukturu uzunmüddətli iqtisadi və eləcə də cəmiyyət və ətraf mühit üçün müsbət təsirlərin yaradılması üçün ən mühüm amillərdən biridir. Şəffaf idarəetmə vasitəsilə açıq və doğru məlumatların vaxtında təqdim edilməsi "AzerGold" olaraq, bütün maraqlı tərəflərin (işçilər, istehlakçılar, kontragentlər və investorlar) inamını qazanmağımıza gətirib çıxarır. Bundan əlavə, idarəetmə sistemimizin peşəkar şəkildə təşkili sosial və iqtisadi mühitin dayanıqlılığına aşağıdakı töhfələri verir:

- Təbii resursların bərabər və səmərəli şəkildə bölünməsi və paylanılması;
- İnvestorlar arasında inamın artması ilə kapitalın cəlb edilməsi və iqtisadi fəallığın artırılması;
- İşçi qüvvəsinin cəlb edilməsi ilə sosial iş imkanlarının genişləndirilməsi və əhalinin iqtisadi vəziyyətinin yaxşılaşdırılması.

Buna görə də biz davamlı olaraq bütün əməliyyatlar üzərində nəzarəti təmin etmək və təkmilləşdirmək üçün hazırlanmış güclü idarəetmə sistemini tətbiq edirik. İdarəetmə modelimiz aydın nəzarət xətləri və müvafiq daxili sənədlərlə gündəlik fəaliyyətləri standartlaşdıraraq, idarəetmə proseslərinin effektivliyini təmin edir.

## AİH VƏ "AZERGOLD"

Əhəmiyyətli dövlət şirkətlərinin fəaliyyətinin vahid prinsiplə idarə edilməsini təmin etmək üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli 1120 nömrəli Fərmanı ilə Azərbaycan İnvestisiya Holdinqi (AİH) yaradılmışdır. "AzerGold" üçün ***əsas "Korporativ idarəetmə standartları" sənədi*** AİH tərəfindən ölkə daxilində və dünyada təşəkkül tapmış qabaqcıl korporativ idarəetmə təcrübəsi nəzərə alınmaqla hazırlanmışdır. Standartların əsas məqsədi "AzerGold"un hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin nəticələrini nəzərə alaraq, qabaqcıl təcrübə və müasir idarəetmə tələbləri çərçivəsində səmərəliliyi artırmaq və şirkətimizin idarə edilməsini təkmilləşdirməkdir.

"AzerGold"un ali idarəetmə orqanı onun Ümumi Yığıncağıdır. AİH-in idarəetməsinə daxil olduğu 2021-ci ilin fevral ayından etibarən qurum "AzerGold"un korporativ idarəçiliyi ilə bağlı qərarların qəbul edilməsi zamanı "AzerGold"un Ümumi Yığıncağında daxili idarəetmə üzrə **3 əsas funksiyanı həyata keçirir**:

### AİH-in "AzerGold"un korporativ idarəedilməsi ilə bağlı əsas funksiyaları

**Qərarların qəbul olunması prosesində bilavasitə iştirak edilməsi**

AR Prezidentinin 2015-ci il 11 fevral tarixli 1047 nömrəli Sərəncamı ilə Ümumi Yığıncağın bəzi səlahiyyətlərinin həyata keçirilməsi AR Prezidentinə, habelə AR Prezidenti ilə razılaşdırmaqla AİH-ə həvalə edilmişdir. AİH-in Müşahidə Şurası Cəmiyyətin Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aid olan məsələləri qanunvericiliklə nəzərdə tutulmuş qaydada həll edir. "AzerGold"un fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi sədr və 5 (beş) üzvdən ibarət Müşahidə Şurası, cari rəhbərliyi isə İdarə Heyəti həyata keçirir.

**"AzerGold"un İdarə Heyətinə dəstək göstərilməsi**

AİH "AzerGold"un İdarə Heyəti ilə mütəmadi əlaqədə olmaqla, onların sorğularını cavablandırmaq və zəruri məsləhətlər vermək yolu ilə İdarə Heyətinə bilavasitə dəstək göstərir.

**Dövlətin maraqlarının qorunması**

Dövlətin maraqlarını qoruyan qərarların qəbul edilməsi üçün dəstək göstərir.

"AzerGold"un idarəetmə strukturu ***İdarə Heyəti***, ***struktur bölmə rəhbərləri*** və Cəmiyyətin ayrı-ayrı fəaliyyət sahələri üzrə nəzarəti həyata keçirən ***Komitələrdən*** ibarətdir və bu idarəetmə strukturunun komponentləri arasında konstruktiv dialoq AİH-in də üzvlərinin daxil olduğu ***Müşahidə Şurası*** tərəfindən qurulur.

# MÜŞAHİDƏ ŞURASI

“AzerGold”un **Müşahidə Şurası** Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir və əsas fəaliyyət istiqamətləri üzrə qəbul edilən qərarların keyfiyyətini təmin edir. Eyni zamanda Müşahidə Şurası təsisçi qarşısında hesabat verir. ***Müşahidə Şurasının tərkibi 5 üzvdən ibarətdir*** və ***dövlət***, ***AİH nümayəndələrinin*** iştirakı vasitəsilə həyata keçirilir.

“AzerGold”un ***İdarə Heyətinin fəaliyyətinin səmərəliliyinə nəzarət edilməsi***, onlara ***peşəkar kömək*** *və* ***dəstəyin göstərilməsi***, həmçinin ***dövlətin mülkiyyətçi və tənzimləyici funksiyalarının bir-birindən ayrılmasının təmin edilməsi*** Müşahidə Şurasının əsas məqsədləri hesab olunur. Müşahidə Şurası ildə 4 dəfədən az olmayaraq yığışır və Cəmiyyət fəaliyyəti zamanı yaranan vacib məsələlərin müzakirəsini həyata keçirir.

## “AzerGold”un Müşahidə Şurasının strukturu



# İDARƏ HEYƏTİ

“AzerGold”un fəaliyyətinə cari rəhbərliyi onun kollegial icra orqanı olan İdarə Heyəti həyata keçirir. İdarə Heyəti Cəmiyyətin təsdiq olunmuş strategiyasının həyata keçirilməsini təmin edir və bu fəaliyyətinə görə Müşahidə Şurasına hesabat verir. İdarə Heyətinin fəaliyyəti Cəmiyyətin nizamnaməsində müəyyən edilmiş səlahiyyətlər çərçivəsində həyata keçirilir.

## İDARƏ HEYƏTİNİN TƏRKİBİ



**Zakir İbrahimov**
İdarə Heyətinin sədri

**Cənab Zakir İbrahimov** 1990-cı ildə Leninqrad Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsinə daxil olub. 1995-ci ildə Bakı Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsini bitirib. 2004-2006-cı illərdə Odlar Yurdu Universiteti və ABŞ-nin Corciya Dövlət Universitetinin magistr proqramı üzrə Biznesin təşkili və idarəedilməsi (MBA) istiqamətində təhsil alıb. 1993-cü ildən əmək fəaliyyətinə başlayaraq müxtəlif rəhbər vəzifələrdə çalışmış, 2009-2016-cı illərdə “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətində İdarə Heyətinin sədri vəzifəsində çalışmışdır. 26 may 2016-cı il tarixindən etibarən “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri vəzifəsində çalışır.



**Xəyyam Fərzəliyev**
İdarə Heyətinin üzvü – sədrin müavini

**Cənab Xəyyam Fərzəliyev** 1996-2001-ci illərdə Türkiyənin Gazi Universitetində Biznesin idarəedilməsi üzrə bakalavr təhsili alıb. 2001-2003-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və kredit, 2012-ci ildə isə İsveçrənin IMD (İdarəetmənin İnkişafı üzrə Beynəlxalq İnstitut) Biznes Məktəbinin Biznesin idarəedilməsi (MBA) proqramı üzrə magistr təhsili alıb. 2002-ci ildən əmək fəaliyyətinə başlayaraq müxtəlif rəhbər vəzifələrdə çalışıb. 2017-2018-ci illərdə “GPB Razvitiye Aktivov” Məhdud Məsuliyyətli Cəmiyyətində icraçı direktor vəzifəsində çalışıb. 27 dekabr 2018-ci il tarixində “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin üzvü – sədrin müavini vəzifəsinə təyin olunub.



**İlqar Cəlilov**
İdarə Heyətinin üzvü – sədrin müavini

**Cənab İlqar Cəlilov** 2006-2011-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunda Riyaziyyat və informatika ixtisası üzrə bakalavr, 2015-2016-cı illərdə Azərbaycan Dövlət Aqrar Universitetində Yer quruluşu, torpaq və şəhər kadastrı ixtisası üzrə təhsil alıb. 2003-cü ildən əmək fəaliyyətinə başlayaraq müxtəlif vəzifələrdə çalışmış, 2013-2016-cı illərdə “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyətində Elektron idarəetmə, daha sonra Daxili nəzarət şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 2016-cı ildən “AzerGold” Qapalı Səhmdar Cəmiyyətində müxtəlif rəhbər vəzifələrdə çalışıb, 2022-ci ildən müşavir, 2024-cü ildən İdarə Heyətinin üzvü – sədrin müavini vəzifəsində çalışır.

# MÜŞAVİR HEYƏTİ



**Şahbəddin Musayev**

Müşavir



**Anar Abdullayev**

Müşavir



**Əli Əhmədov**

Müşavir



**Ayşəm Qələmiyeva**

Müşavir



**Müşfiq Məmmədli**

Müşavir



**Leyla Sadıxova**

Müşavir



**Emin Aslanov**

Müşavir



**Erkin Vəliyev**

Müşavir

**İdarəetmənin effektivliyini artırmaq məqsədilə İdarə Heyətinin sədri birbaşa olaraq aşağıdakı istiqamətlərə nəzarət edir:**



Sağlamlıq və əməyin təhlükəsizliyi



Risklərin idarəedilməsi və daxili nəzarət



Ətraf mühitin mühafizəsi



Protokol



Məxfi sənədlərlə iş



Hüquq



Emal sahələrinin idarəolunması

# KOMİTƏLƏR VƏ ONLARIN FƏALİYYƏTİ

Cəmiyyət daxilində mühüm əməliyyat qərarlarını idarə etmək üçün **3 komitə** Cəmiyyətin MŞ-si tərəfindən yaradılmış və MŞ tərəfindən əsasnamələri təsdiq edilmişdir. Komitələrin üzvləri Cəmiyyətin və dövlətin maraqlarının qorunması prinsipi əsasında fəaliyyət göstərib komitələrin əsasnamələrinə uyğun müstəqil, şəffaf və obyektiv qərar qəbulu və dayanıqlı inkişaf prinsiplərini təmin edir.

Audit və strategiya və investisiyalar komitələrinin tərkibinə Cəmiyyətin Müşahidə Şurasının ən azı bir üzvü və AİH-in nümayəndəsi, Təyinat və mükafatlandırma komitəsinin tərkibinə isə Cəmiyyətin Müşahidə Şurasının ən azı bir üzvü daxil edilir. **Komitələr üzrə 3 ayda bir dəfədən az olmayaraq iclas çağırılır.**

| | |
|---|---|
| **Audit komitəsi** | • "AzerGold"un audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili;<br>• "AzerGold"un maliyyə və iqtisadi fəaliyyətinə, o cümlədən maliyyə hesabatlarının tamlığı və düzgünlüyünə səmərəli auditor nəzarəti sisteminin qurulması;<br>• "AzerGold"un daxili nəzarət və risklərin idarəedilməsi sistemlərinin etibarlılığına və səmərəliliyinə, habelə korporativ idarəetmə sahəsində sənədlərin və tapşırıqların icrasına nəzarət;<br>• "AzerGold"da kənar və daxili auditin müstəqilliyinə, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə riayət olunmasının təmin edilməsi prosesinə nəzarət;<br>• İdarə Heyəti və aidiyyəti struktur bölmələri ilə birlikdə kənar auditorun hesabatının təhlil və müzakirə edilməsi, çatışmazlıqların və pozuntuların aradan qaldırılması üçün tədbirlər planının hazırlanması üzrə Müşahidə Şurasına təkliflər verilməsi;<br>• Audit komitəsinin səlahiyyətlərinə daxil edilən məsələlərə dair hər hansı araşdırma başladılması və ya həyata keçirilməsi. |
| **Strategiya və investisiyalar komitəsi** | • Uzunmüddətli perspektivdə "AzerGold"un inkişafına yönəlmiş strateji hədəflərin müəyyənləşdirilməsi;<br>• "AzerGold"un investisiya cəlbediciliyinin artırılması;<br>• "AzerGold"un maliyyə və təsərrüfat fəaliyyətinin düzgün planlaşdırılmasının təmin edilməsi;<br>• Əsas investisiya istiqamətləri və layihələri də daxil olmaqla "AzerGold"un fəaliyyətinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;<br>• "AzerGold"un maliyyə və təsərrüfat fəaliyyətinin monitorinqi və monitorinq nəticələrinə əsasən tədbirlərin görülməsi;<br>• Dividendlərin və digər ödənişlərin müəyyənləşdirilməsi. |
| **Təyinat və mükafatlandırma komitəsi** | • Müşahidə Şurasının və İdarə Heyətinin fəaliyyətinin davamlılığının planlaşdırılması;<br>• Müşahidə Şurasının, İdarə Heyətinin və digər işçilərin fəaliyyətlərinin daimi və obyektiv qiymətləndirilməsinin təmin edilməsi;<br>• Effektiv kadr siyasətinin, əməkhaqqı və mükafatlandırma sisteminin, eləcə də vəzifəli şəxslər və "AzerGold"un işçilərinə sosial dəstəyin, onların peşəkar təlim və inkişaflarının təmin edilməsi. |

# "AzerGold"un idarəetmə strukturu[3]




[3] *2024-cü ildə təsdiqlənmiş strukturdur*

# UYĞUNLUQ VƏ MƏSULİYYƏTLİ BİZNES YANAŞMAMIZ

Uyğunluq Cəmiyyətin hüquqi və etik standartlara, qanunvericiliyə, qaydalara və normativ tələblərə riayət etməsini təmin etməklə, uyğunsuzluq səbəbindən meydana gələ biləcək maliyyə itkiləri və hüquqi risklərin qarşısının alınması baxımından son dərəcə əhəmiyyətli prosesdir. Bu funksiyaya nəzarət Hüquq şöbəsi, Daxili audit xidməti və RİDN şöbəsi tərəfindən həyata keçirilir. "AzerGold" uyğunluğun təmin edilməsi üçün xüsusi proseslər, prosedurlar və kommunikasiya vasitələri tətbiq edir. Bunlardan bəziləri aşağıdakılardır:

- Hüquq şöbəsi səlahiyyətləri çərçivəsində Cəmiyyətin tərəf olduğu müqavilələrin, memorandumların və bu qəbildən olan digər sənədlərin hazırlanmasını təşkil edir, Cəmiyyətin yerli və beynəlxalq məhkəmələrdə, müxtəlif qurumlarda iddiaçı və cavabdeh qismində təmsil olunmasını, hüquq və qanuni mənafelərinin müdafiəsini təmin edir, Cəmiyyətin strateji inkişafı ilə bağlı öz səlahiyyətləri çərçivəsində hüquqi təhlillərin, modellərin hazırlanması və İdarə Heyətinə təqdim edilməsini, habelə hüquqi audit və hüquqi risklərin dəyərləndirilməsi üzrə fəaliyyəti həyata keçirir.
- RİDN şöbəsinin səlahiyyətləri çərçivəsində uyğunluğun təmin edilməsi üçün monitorinq, təhlil və araşdırmalar üzrə mexanizmlər həyata keçirilir, korrupsiya xarakterli hallara, habelə nəzarət mexanizmlərində boşluqlara qarşı effektiv mübarizə üçün məlumatlandırma sistemi (qaynar xətt) tətbiq olunur.

"AzerGold" olaraq biz yüksək etik siyasətlərə riayət edir və törəmə cəmiyyətlərimiz və tərəfdaşlarımız tərəfindən də həmin siyasətlərin davamlı tətbiq olunmasını təmin etmək üçün lazımi tədbirlər görürük.

"AzerGold" vəzifəsindən və statusundan asılı olmayaraq hər bir əməkdaşın bu siyasətlərlə tanış olmasını və onun tələblərinə əməl etməsini təmin edir. Rəhbər vəzifədə çalışan əməkdaşlarımız Cəmiyyətin dəyərləri və etik standartlarını təşviq edir və icrasının canlı nümunəsinə çevrilməyə önəm verirlər.



# "AzerGold"un məsuliyyətli biznes davranışlarını[4] idarə edən siyasətlər

| Siyasət | Təsvir |
|---|---|
| **Korrupsiyaya qarşı mübarizəyə dair siyasət** | "AzerGold"da "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respubikasının Qanunu və ISO 37001:2016 Antikorrupsiya idarəetmə sistemləri standartına əsasən korrupsiyaya qarşı mübarizə üzrə nəzarət mexanizmləri qurulub və həyata keçirilir. Antikorrupsiya siyasəti vasitəsilə "AzerGold"da korrupsiyaya yol verilməməsini, bu sahədə Cəmiyyətin maraqlarının qorunmasını, Cəmiyyətin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsi həyata keçirilir. Şirkət yüksək etik standartlara sadiq qalaraq korrupsiya risklərinin qarşısının alınması və minimuma endirilməsi üçün tədbirlər görür. |
| **Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə (ƏL/TMM) dair siyasət** | "AzerGold"un fəaliyyətində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qəbul edilməməsi konsepsiyasının tətbiqi, bu sahədə risklərin minimuma endirilməsi və fəaliyyətində açıqlıq və şəffaflığının təmin edilməsi üzrə tədbirlərin həyata keçirilməsi məqsədilə ƏL/TMM siyasəti tətbiq edilir. İşçiləri bu sahədə qeyri-qanuni əməliyyatlardan qorumaq üçün fəaliyyətin gücləndirilməsi və şübhəli halların vaxtında qarşısının alınması üçün məsul şəxslərin dərhal məlumatlandırılması ƏL/TMM siyasətinin əsas müddəalarındandır. |
| **Maraqların toqquşmasının qarşısının alınması mexanizmləri** | Cəmiyyətdə maraqların toqquşmasına səbəb ola biləcək halların müəyyənləşdirilməsi və bu halların idarəedilməsi məqsədilə qabaqlayıcı mexanizmlər tətbiq olunur. İşçilər faktiki və ya potensial maraqların toqquşması halları barədə rəhbərliyə məlumat verməlidirlər. Bu halların nəzarətdə saxlanılması üçün işçilər vaxtaşırı bəyanət formasını doldurub məsul şəxsə təqdim etməlidirlər. |

[4] *Məsuliyyətli Biznes Davranışı ölçüsündən, sektorundan və ya mülkiyyət strukturundan asılı olmayaraq bütün müəssisələrin məsuliyyətlə hərəkət etməli və əməliyyatları, məhsulları və ya xidmətləri ilə əlaqəli insanlara, planetə və cəmiyyətə mənfi təsirlərin risklərini idarə etməli olduğu gözləntilərinə istinad edir. (OECD Guidelines for Multinational Enterprises on Responsible Business Conduct, 2023)*

Yuxarıda qeyd olunan məsuliyyətli biznes davranışının təmin edilməsi üzrə siyasətlər "AzerGold"un **RİDN şöbəsi** tərəfindən idarə olunur. Bu istiqamətdə uyğunsuzluq halları olduqda, bu məsələlər müvafiq struktur bölmə rəhbər nümayəndələrinə çatdırılır və Cəmiyyətin **RİDN şöbəsi** tərəfindən nəzarətdə saxlanılır.

İşçilərimizin mövcud siyasət və qaydaları mənimsəməsi, Cəmiyyətimizin mədəniyyətinə tam inteqrasiya olmaları məqsədilə mütəmadi olaraq daxili təlimlər keçirilir. Bir qayda olaraq, Cəmiyyətimizə yeni qoşulan hər bir işçi işə qəbul təlimində iştirak edib şirkətimizin siyasətləri və prosedurları ilə tanış olur. Əlavə olaraq, hüquqi aktlara dair hər hansı yenilik olduqda bununla bağlı xüsusi buraxılışlar olur və işçilər xüsusi təlimlərə cəlb olunaraq məlumatlandırılırlar. Gələcəkdə bu təlim sessiyalarının əhatə dairəsini daha da genişləndirmək və işçilərimizin bacarıqlarını artırmaq üçün ətraflı planlar hazırlıq prosesindədir.

2023-cü il ərzində "AzerGold"un aparatında, istehsalat ərazisində və törəmə cəmiyyətlərində çalışan rəhbər və işçi heyəti üçün **korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi** mövzusunda maarifləndirmə təlimləri keçirilmiş, təlim materialları "AzerGold"un və törəmə cəmiyyətlərin bütün əməkdaşlarına təqdim edilmişdir.

**Korrupsiya xarakterli hallar** ilə bağlı məlumatların bildirilməsi üçün **"qaynar xətt" qismində "AzerGold"un anti-corruption@azergold.az elektron poçt ünvanı və +994 (12) 505-02-02 telefon nömrəsi** yaradılmış, bu barədə məlumat mərkəzi Aparatın inzibati binasında və istehsalat ərazilərində quraşdırılmış lövhələrdə, o cümlədən "AzerGold"un korporativ veb saytında təqdim olunmuşdur. Korrupsiya xarakterli müraciət daxil olduğu təqdirdə qeydiyyata alınır, qanunvericiliyin tələbinə uyğun olaraq araşdırılır və araşdırmanın nəticəsi məlumat verən şəxsə bildirilir. Korrupsiya ilə əlaqədar müraciətlər "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə baxılması xüsusiyyətlərinə uyğun aparılır.

Hesabat dövrü ərzində antikorrupsiya siyasəti barədə məlumatlandırmanın təmin edilməsi üçün İRİ şöbəsi tərəfindən "AzerGold"da işə qəbul edilən bütün işçilərə həmin siyasət e-poçt vasitəsilə göndərilmiş, daxili məlumat serverində və rəsmi veb saytlarımızda dərc edilmişdir.

***HESABAT DÖVRÜNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARINA UYĞUNLUĞUN POZULMASI HALLARI QEYDƏ ALINMAMIŞDIR.***

"AzerGold" olaraq biz risklərin idarəedilməsi və siyasət öhdəliklərimizin əməliyyatlara inteqrasiya edilməsi məqsədilə əməliyyatlarımızı müntəzəm olaraq korrupsiya riskləri baxımından qiymətləndiririk. Qeyd edək ki, ESG sahəsində bacarıqlarımızı və uyğunluqla bağlı əhəmiyyətli təsirləri gücləndirdikcə daha geniş miqyaslı və detallı qiymətləndirmələrin aparılmasını planlaşdırırıq.

# ŞİKAYƏT MEXANİZMLƏRİ

“AzerGold” olaraq biz effektiv şikayət mexanizmlərinin qurulması, onların düzgün araşdırılması və peşəkarlıqla həll edilməsi üçün davamlı olaraq çalışırıq. İnanırıq ki, bu mexanizm əməkdaşlarımızı öz hüquqlarını müdafiə edə bilmə şansı yaratmaqla yanaşı, şirkətimiz üçün də daxili ədaləti tənzimləyən mədəniyyətin yaradılmasına töhfə verir.

“AzerGold”un  hasilat fəaliyyətinin həyata keçirildiyi ərazilərdə yaşayan yerli əhali və icmalar tərəfindən onları narahat edən müxtəlif məsələlər üzrə daxil olan müraciətlər ***“Vətəndaşların müraciətləri haqqında”*** Azərbaycan Respublikasının Qanununa əsasən cavablandırılır.

Vətəndaşlardan daxil olan məktublar, həmçinin “AzerGold”un **info@azergold.az** elektron poçt ünvanına göndərilən müraciətlər, o cümlədən ərizə və şikayətlərə ***SVMİ şöbəsi*** tərəfindən qanunvericiliyin tələblərinə uyğun olaraq baxılır və cavablandırılır.

Əlavə olaraq bildirilməlidir ki, qeyd edilən şöbə tərəfindən ***hər təqvim ayının 2 günü*** “AzerGold”un Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) aidiyyəti şöbələrin əməkdaşlarının iştirakı ilə ***vətəndaşların müraciətlərinin dinlənilməsi məqsədilə onların qəbulu*** həyata keçirilir. Daxil olan ərizə və şikayətlərə baxılarkən, eləcə də qəbullarda vətəndaşları narahat edən məsələlər ilə əlaqədar zəruri hallarda müvafiq şöbələrlə birlikdə araşdırmalar aparılır, onların rəyi alınır, ehtiyac yarandıqda əlavə sənədlər tələb olunur və müraciət edən şəxslərə onları narahat edən məqamlar ətraflı izah edilməklə cavab verilir.

## Şikayət mexanizmi üzrə əsas addımlar

- Müxtəlif kanallar vasitəsilə müraciətlərin/ şikayətlərin daxil olunması
- Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi tərəfindən baxılması
- Mövzuya uyğun olaraq aidiyyəti struktur bölmələrə yönləndirilməsi
- Müvafiq tərəflərlə görüşlərin keçirilməsi və məlumatların toplanılması
- Araşdırmanın nəticəsi ilə bağlı rəsmi cavabın verilməsi

Aşağıdakı cədvəldə də göründüyü kimi, 2023-cü ildəki müraciətlərin böyük əksəriyyətini işlə təmin olunma və maddi yardımın göstərilməsi ilə bağlı məsələlər əhatə etmişdir. Qeyd edək ki, işə qəbul prosesində şəffaflığın təmin edilməsi məqsədilə bütün müraciətlər 2023-cü ilin əvvəlindən elektron sistem üzərindən qəbul edilməkdədir. İşə qəbul ilə bağlı şikayətlərin sayı artaraq 2022-ci ildə 26 olsa da, 2023-cü ildə yenidən azalaraq bu rəqəm 17 olmuşdur. 2023-cü ildəki müraciətlərin böyük əksəriyyətini işlə təmin olunma və maddi yardımın göstərilməsi ilə bağlı məsələlər əhatə edir.

**2021-2023-cü illər ərzində daxil olmuş müraciətlərin sayı**

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **Şikayət xarakterli müraciətlər, həmçinin:** | **25** | **35** | **38** |
| - İşə qəbul | 20 | 26 | 17 |
| - Korrupsiya ilə bağlı | 2 | 1 | 1 |
| - Maddi yardımın göstərilməsi | - | - | 12 |
| - Digər | 3 | 8 | 8 |
| Nəzərdən keçirilmiş şikayətlərin ümumi sayı, həmçinin | 25 | 35 | 37 |
| *Həll olunmuş şikayətlərin sayı* | 1 | 1 | 11 |
| *Qismən təmin olunmuş şikayətlərin sayı* | 7 | 0 | 0 |
| *Müvafiq izahatlar verilmiş şikayətlərin sayı* | 14 | 29 | 26 |
| *Baxılmadan saxlanılmış şikayətlərin sayı* | 3 | 5 | 0 |
| *Baxılması üçün aidiyyəti üzrə göndərilmiş şikayətlərin sayı* | 0 | 0 | 1 |




Hesabat dövrü ərzində **korrupsiya xarakterli** hallar ilə bağlı daxil olmuş müraciətlərin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılması nəticəsində bu müraciətlərin əsaslılığının sübuta yetirilməsi ilə bağlı hər hansı təsdiqedici məlumatın həmin müraciətlərdə olmaması səbəbilə icrasına xitam verilmiş və bu barədə müraciət edən şəxslərə əsaslandırılmış cavab məktubları təqdim edilmişdir.

Ümumilikdə 2021-ci ildə daxil olan 802 müraciətin 97%-i ərizə, digər 3%-i şikayət və təklif, 2022-ci ildə daxil olan 747 müraciətin 95%-i ərizə, digər 5%-i şikayət və təklif və 2023-cü ildə daxil olan 1200 müraciətin 95%-i ərizə, digər 5%-i şikayət və təklif olmuşdur. Şikayət məzmunlu müraciətlər 2021-ci ildə ümumi müracətlərin 3,12%-ni, 2022-ci ildə 4,68%-ni, 2023-cü ildə isə 3,17%-ni təşkil etmişdir.

Son illər daxil olan şikayətlərin əksəriyyəti **işlə təmin olunma, sosial yardım və kompensasiya tələbləri** ilə bağlı olmuşdur. Vətəndaşlar tərəfindən edilən şikayətlərin sayının ildən ilə artmasının əsas səbəbi bir şikayətin bir neçə kanal vasitəsilə edilməsidir. Bu, eyni məzmunlu şikayətlərin müxtəlif dövlət qurumlarına yönləndirilməsi və onların hər biri tərəfindən ayrıca qeydiyyata alınması ilə nəticələnir. Bu da şikayətlərin sayının süni şəkildə artmasına gətirib çıxarır.

Vətəndaşların işə qəbul edilməsi, sosial yardımlar və kompensasiyaların təmin olunması **2023-cü ildə həll olunmuş şikayətlərin sayının əvvəlki illərə nisbətən xeyli artmasına səbəb olmuşdur** ki, bu da şikayətlərin effektiv idarə edilməsi və vətəndaş məmnuniyyətinin artırılması istiqamətində atılan addımların müsbət nəticələrini göstərir.

# RİSKLƏRİN İDARƏEDİLMƏSİ

“AzerGold” olaraq fəaliyyət göstərdiyimiz mədənçilik sektoru ətraf mühitə təsirdən tutmuş əməliyyat təhlükələrinə qədər bir sıra unikal risklərlə xarakterizə olunur. Bu səbəblə də əməliyyatlarımızın təhlükəsizliyini, o cümlədən maraqlı tərəflərin rifahını təmin etmək məqsədilə risklərin effektiv idarə edilməsinə xüsusi diqqət göstəririk. Risklərin proaktiv şəkildə müəyyənləşdirilməsi və qiymətləndirilməsinə məsuliyyətli yanaşmamız təkcə işçi qüvvəmizi və ətraf mühiti qorumaqla məhdudlaşmır, həmçinin əməliyyat səmərəliliyimizin və uzunmüddətli dayanıqlılığımızın təminatı hesab olunur.

Cəmiyyətin “Risklərin idarəedilməsi proseduru” 2020-ci ildə təsdiqlənmişdir. Yeni idarəedilmə prosedurlarından məlumatlılıq prosesini sürətləndirmək məqsədilə həmin il xarici təlimçi tərəfindən Keyfiyyətin təminatı sektorunun əməkdaşlarının və struktur bölmə rəhbərlərinin iştirakı ilə risklərin idarəolunması üzrə təlim keçirilmişdir.

## RİSKLƏRİN İDARƏEDİLMƏSİ PROSESİNƏ YANAŞMAMIZ

Hal-hazırda “AzerGold” daxilində risklərin idarəolunması “Üç Müdafiə Xətti” üzrə həyata keçirilir.  Prosedurun ilkin müdafiə xətti əhatə olunan şöbələrin və funksiyaların özü, ikinci olaraq daxili nəzarət funksiyası, üçüncü müdafiə xətti isə daxili audit funksiyası olaraq müəyyən edilmişdir.

**“AzerGold” tərəfindən tətbiq edilən “Üç müdafiə xətti” modulu**

| Birinci müdafiə xətti – Müşahidə Şurası | İkinci müdafiə xətti – Daxili nəzarət | Üçüncü müdafiə xətti – Daxili audit |
|---|---|---|
| **Rollar:** Müşahidə Şurası təşkilati nəzarət baxımından maraqlı tərəflər qarşısında hesabatlıdır və strategiya qurucusu, liderlik və şəffaflıq təminatçısı kimi rolları icra edir | **Rollar:** Risklə bağlı məsələlərin ekspertizası, dəstək, monitorinq və problem | **Rollar:** Məqsədlərə nail olmaqla bağlı bütün məsələlər üzrə müstəqil, obyektiv təminat və məsləhət |

# RİSKLƏRİN İDARƏEDİLMƏSİ ÇƏRÇİVƏLƏRİ

**Risk İştahı Bəyannaməsi**

Risk sahibləri müəyyən olunan hər bir riskin təsir və ehtimal dəyərlərini qeyd edərək risk dəyərlərini hesablayır və qiymətləndirilmə nəticəsində müəyyən edilmiş risk dərəcələrini risk analizi cədvəlinə qeyd edir.

**Risk analizi xəritəsi**

2020-ci ildə Risklərin idarəolunması prosedurunun tələbləri istiqamətində KT sektoru tərəfindən Risk İştahı Bəyannaməsi hazırlanmışdır. “AzerGold”un Risk İştahı Bəyannaməsi daxili qərarların qəbuledilməsi prosesində risk hədlərini müəyyən edən mühüm sənəddir.

**İstinadlar**

1. ISO 9000:2015 – Keyfiyyət idarəetmə sistemi standartı. Terminlər və təriflər.
2. ISO 9001:2015 – Keyfiyyət idarəetmə sistemi standartı. Tələblər.
3. ISO 31000:2018 – Risklərin idarəolunması sistemi standartı. Terminlər və təriflər.
4. “İnteqrəolunmuş menecment sistemi proseslərinin qiymətləndirilməsi proseduru”.
5. “Uyğunsuzluqların və tənzimləyici tədbirlərin idarəolunması proseduru”.

# RİSKLƏRİN İDARƏEDİLMƏSİ PROSESLƏRİ

RİDN şöbəsi tərəfindən müntəzəm olaraq yoxlamalar aparılır, nəticədə aşkar olunan uyğunsuzluqlar üzrə müəyyən edilən risklər KT sektoru tərəfindən ilkin mərhələdə “Risklərin idarəolunması reyestri”ndə qeydiyyata alınır və aidiyyəti struktur bölmələr üzrə Risk analizi cədvəlləri hazırlanır.

| | |
|---|---|
| **Riskin müəyyənləşdirilməsi** | Yarımildə bir dəfədən az olmamaq şərtilə risklər müəyyən edilir, risk kodları, risk sahibləri və risklərin aid olduğu proseslərin əks olunduğu cədvəl hazırlanır. |
| **Riskin qiymətləndirilməsi** | Risk sahibləri müəyyən olunan hər bir riskin təsir və ehtimal dəyərlərini qeyd edərək risk dəyərlərini hesablayır və qiymətləndirilmə nəticəsində risk dərəcələrini müəyyən edir. |
| **Riskin cavabı** | Risklərin qəbul ediləbilən səviyyədə tutulması üçün gözlənilən hadisəyə qədər onun baş vermə ehtimalının və/və ya təsirinin azaldılmasına istiqamətlənmiş məqsədyönlü tədbirlər müəyyən edilir. |
| **Risk monitorinqi** | Təsdiqlənən tədbirlər planının həyata keçirilməsinə monitorinq aparılaraq nəzarət edilir. Aşkar edilən hər bir risk üçün cavab tədbiri seçilir. Həmin cavab tədbirinin icrası məqsədilə tədbirlər planı hazırlanır. Tədbirlər planında görüləcək işlər, icra müddəti, məsul şəxs və monitorinqlərin keçirilmə tezliyi qeyd edilir. |
| **Risk hesabatı** | Yekun olaraq rüb üzrə nəticələr barədə “Risklərin idarəolunması reyestri”nə əsasən İHS-ə yazılı hesabat verilir. |

# “AzerGold”un əsas riskləri

Hesabat dövründən başlayaraq Cəmiyyətdə risklərin idarəolunması prosesi artıq proqram təminatı vasitəsilə icra olunacaq. Risklərin idarəolunması prosesinin optimallaşdırılması məqsədilə risk idarəetmə sistemi olan “REIS” proqram təminatı tətbiq olunmuşdur. Cəmiyyət üzrə müəyyən olunmuş və qiymətləndirilmiş bütün risklər bu sistemdə öz əksini tapır. Qeyd olunan sistemdə ilkin olaraq biznes prosesləri toplusu yaradılmışdır, həmin proseslər üzrə risklərin müəyyən edilməsi prosesləri həyata keçirilir.

# Risklərin idarəedilməsi üzrə gələcək hədəflər

**2024-cü ildən etibarən risklərin idarəolunması funksiyasının Daxili nəzarət şöbəsinin tərkibinə daxil edilməsi nəzərdə tutulur.** Bu istiqamətdə şöbənin Əsasnaməsinə risklərin idarəolunması ilə bağlı fəaliyyətlər, vəzifələr və hüquqlar daxil ediləcək.

**Bundan əlavə, Cəmiyyətin “Risklərin idarəedilməsi siyasəti” tərtib olunur və 2024-cü il ərzində tamamlanmalıdır.** Eyni zamanda, Cəmiyyətin fəaliyyət istiqamətləri üzrə biznes proseslərin toplusu və Risk reyestri hazırlanacaqdır.



# İNSAN RESURSLARININ İDARƏEDİLMƏSİ

**“AzerGold” olaraq insan resurslarımızın ən dəyərli sərvətimiz olduğuna inanırıq.**

Müasir dağ-mədən sənayesində uzunmüddətli uğurlu fəaliyyətin təməli yalnız texnoloji inkişafın davamlılığı və təbii resursların zənginliyi ilə məhdudlaşmır. Həmçinin peşəkar və ixtisaslaşmış işçi qüvvəsinin gücü biznesin uğurunun ən etibarlı təminatlarından biridir. Bu səbəblə də istedadlı işçilərin cəlb olunması və onların inkişafının təmin edilməsi strategiyamızın əsas prioritet istiqamətlərindən hesab edilir.

## İNSAN RESURSLARINA YANAŞMAMIZ

Mədənçilik sahəsi yüksək səviyyədə ixtisas və səbr tələb edən, eyni zamanda stres şəraitində çalışmaq üçün dayanıqlılığın önəm daşıdığı iş şəraitinə sahibdir. Bu səbəbdən “AzerGold” olaraq əməkdaşlarımızın sağlamlığı, təhlükəsizliyi və rifahı üçün davamlı olaraq investisiyalar edirik və onları dəstəkləyirik. **Biz “AzerGold” ailəsinin hər bir üzvünə bərabər imkanlar və peşəkar inkişaf yolları təqdim edərək gələcəyə inamla baxırıq.**

**Cəmiyyətimiz insan resurslarının idarəolunması (İRİ) biznes partnyorluq yanaşması** modelini tətbiq edir. İRİ Partnyorların işçilərimizlə birbaşa ünsiyyət quraraq biznesin spesifik ehtiyaclarına uyğun İR həlləri təqdim etməsi, İR direktorunun əsas diqqətini İR proseslərinin idarəedilməsinə və strateji İR qərarlarına yönəltməsinə imkan yaradır. Bu yanaşma “AzerGold”un İR departamentinin bizneslə daha sıx əlaqədə olmasını təmin edir və şirkətin ümumi strateji məqsədlərinə çatmaq üçün İR funksiyasının daha effektiv işləməsinə imkan yaradır.

”AzerGold” QSC olaraq bölgələrdəki struktur bölmələrimiz, o cümlədən “Daşkəsən Dəmir Filiz” MMC və “AzerBlast” MMC törəmə şirkətləri də daxil olmaqla, insan resurslarının idarəolunması ilə bağlı öz əsas funksiyalarını müstəqil şəkildə yerinə yetirirlər. Mərkəzləşdirilmiş İR idarəetmə sistemimiz və “AzerGold”un bütün ofislərlə birbaşa əlaqə kanallarından istifadə mexanizmi digər nümayəndəliklərdə və törəmə şirkətlərdə meydana çıxa biləcək hər hansı məsələləri tez bir zamanda həll etməyimizə şərait yaradır.



# İRİ ÜZRƏ ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

GRI 2-7, 2-8

Aşağıda qeyd edilən üç əsas istiqamət üzərində qurulan İRİ əməkdaşlarımızın ehtiyaclarını ən yüksək səviyyədə qarşılayaraq, onların peşəkar inkişafına və şirkətimizin davamlı uğuruna töhfə verir:

## İşə qəbul fəaliyyəti

- İşə qəbul fəaliyyətinin idarəedilməsi
- İşçilərlə gündəlik görüşlər
- Tələbə-təcrübə və təqaüd proqramları

## Təşkilati inkişaf və təlim

- İşə adaptasiya
- Təlimlərin keçirilməsi
- Kadr hazırlığı
- Mentorluq proqramı

## Sənədləşmə işləri və qeydiyyat prosesi

- Qeydiyyat prosesi
- Əmrlərin verilməsi
- Prosedurlar və standartlar

## Kadrların cəlb edilməsi və karyera inkişafına yanaşmamız

GRI 401, 404

Bacarıqlı və istedadlı işçi qüvvəsinin formalaşdırılması hər bir şirkətin uzunmüddətli uğurunun və dayanıqlılığının əhəmiyyətli elementi hesab olunur. Buna görə də “AzerGold” olaraq şirkətdaxili maarifləndirmə və təltif olunma mexanizmlərinin inkişaf etdirilməsi həm mövcud kadrlarımızın gücləndirilməsi, həm də əmək bazarında “AzerGold”un rəqabətliliyinin artırılması üçün əsas prioritetlərimiz siyahısında öz yerini tutur.

Strategiyamız potensial işçinin “AzerGold” olaraq şirkətimiz ilə tanışlıq nöqtəsindən başlayaraq, işçilərin Cəmiyyətimizin ehtiyaclarına əsasən müvafiq rollara yerləşdirilməsi və qalıcılığının təmin edilməsinə qədər olan prosesləri əhatə edir və bu proseslərin optimallaşdırılması ilə bağlı bir sıra tədbirləri özündə birləşdirir.

## “AzerGold” işçilərinin adaptasiya və karyera inkişafı mərhələləri




## “AzerGold”un tanıdılmasında strateji addımlar

“AzerGold” olaraq güclü işəgötürən reputasiyası yaratmaq məqsədilə strateji işə qəbul yanaşmalarını, detallı planları və qabaqcıl analitik həlləri inkişaf etdiririk. Ölkənin aparıcı universitetləri ilə müxtəlif layihələr çərçivəsində əməkdaşlıqların qurulması “AzerGold”un brend adının tanınması və gənc kadrlar arasında məlumatlılığı artırmaq yolunda tətbiq etdiyimiz strategiyanın həlledici nüanslarından biridir. Bu əməkdaşlıqlar çərçivəsində universitetlərdə tələbələr üçün seminarlar və təlimlər təşkil edir, onlara “AzerGold”da əldə edə biləcəkləri gələcək karyera imkanları və perspektivləri barədə məlumatlar veririk. Bununla belə, müvafiq sosial şəbəkələr və karyera sərgiləri vasitəsilə gənc işçilərin mövcud olduğu əmək bazarına çıxış əldə edirik. Bu tədbirlər potensial namizədlərlə birbaşa əlaqə qurmağımıza və işəgötürən kimi brendimizin tanınmasına imkan verir.

## Elektronlaşdırılmış işə qəbul prosesi

Hesabat dövründə Cəmiyyətimiz daxilində ənənəvi kargüzarlıq əsaslı işə qəbul prosesini tam olaraq elektron və mərkəzləşdirilmiş işə qəbul prosesi ilə əvəz edərək, həm müasir dövrün səmərəlilik tələbləri ilə ayaqlaşmağımıza, həm potensial işçi namizədlərimiz üçün prosesləri asanlaşdırmağa, həm də müraciətlərin daha obyektiv və optimal şəkildə nəzərdən keçirilməsinə təkan vermişdir. Bununla bağlı bütün hasilat sahələri üzrə də aktiv vakansiyalar müvafiq portal üzərindən saytda yerləşdirilir və müraciətlər (işə qəbulla bağlı vətəndaş müraciətləri daxil) ancaq elektron şəkildə qəbul olunur.

## İşə qəbul və kadrların inkişafına yanaşmamız

Daxili işçi heyətimiz brend kimliyimizin xarici mühitdə təmsilçiləridir, bu səbəblə də işə qəbul prosesimiz qədər işçilərimizin davamlı karyera inkişafına da qayğı göstəririk. Bu yanaşma əsasında güclü işəgötürən reputasiyasının yaradılması üçün **işə qəbul strategiyasının**, planının və **işə qəbul analitikasının hazırlanması**, istedadların cəlbi üçün **mükafatlandırma strategiyasının hazırlanması, işçi məmnuniyyəti anketi** kimi tətbiqlərdən istifadə edirik.

İşə qəbul prosesimiz mütəmadi olaraq aylıq və illik hesabatlar vasitəsilə izlənilir. Bu hesabatlarla işə qəbul strategiyalarımızın effektivliyini qiymətləndirir və təkmilləşdiririk. İşə qəbul prosesimiz illik işə qəbul planına əsaslanaraq həyata keçirilir, bu da bizim işçi ehtiyaclarımızı proqnozlaşdırmağa və vaxtında qarşılamağa imkan yaradır.

Bundan əlavə, **peşə və ali təhsil müəssisələrinə qəbulla bağlı təqaüd proqramlarımızla** cəmiyyətin iqtisadi inkişafına dolayı yolla öz töhfəmizi veririk. Həmçinin bu proqramlar gənc istedadların təhsilini dəstəkləyərək onların inkişafına və gələcəkdə bizimlə əməkdaşlıq etmələrinə şərait yaradır. Təqaüd proqramlarımız vasitəsilə ölkənin ən istedadlı gənclərini cəlb edərək, onların peşəkar inkişafını dəstəkləyirik. Bu yanaşma uzunmüddətli perspektivdə "AzerGold"un güclü və rəqabət qabiliyyətli işçi qüvvəsinə malik olmasını təmin edir.

**İşçi axını nisbəti**[5]

| İşçi axını dövriyyəsi | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **"AzerGold" QSC** | 7% | 10% | 11% |

[5] *İşçi Axını Nisbəti = Hesabat ili ərzində işdən azad edilənlərin sayı / Hesabat ilinin əvvəlində işçilərin sayı*


İşə qəbul olunan işçilərin sayı
250
200
150
100
50
0
134
99
202
162
110
59
8
9
23
"AzerGold" QSC
"DDF" MMC
"AzerBlast" MMC
2021
2022
2023


İşdən azad olunan işçilərin sayı
80
70
60
50
40
30
20
10
0
31
54
72
11
29
35
3
4
2
"AzerGold" QSC
"DDF" MMC
"AzerBlast" MMC
2021
2022
2023

# “AZERGOLD”UN TƏLİM STRATEGİYASI

“AzerGold” işçilərinin davamlı öyrənmə və bacarıqlarını inkişaf etdirmə prosesini mütəmadi olaraq keçirilən ixtisasartırma təlimləri vasitəsilə dəstəkləyir və təşviq edir. Biz fərdi ehtiyaclara və hər bir işçinin sənaye və ya mövzu üzrə təcrübəsinə uyğun olaraq fərdi öyrənmə imkanları təqdim edərək, həm şirkətin ehtiyaclarına, həm də hər bir işçinin ambisiyalarına və potensialına cavab verən fərdi inkişaf planı hazırlayırıq.

Davamlı təlimlər planımız əməkdaşlarımızın peşəkar inkişafı və “AzerGold”un fəaliyyət mükəmməlliyinin müsbət yöndə artımını asanlaşdırmaq üçün müvafiq resurslarla təmin etmək məqsədi daşıyır.

**İşçilərə ayrılan ümumi və ortalama təlim saatlarının kateqoriyalar üzrə göstəriciləri**

| Təlim saatları | | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **“AzerGold” QSC** | | | | |
| *Ümumi təlim saatı (cins üzrə)* | Kişi | 1651 | 1132 | 1323 |
| | Qadın | 71 | 175 | 102 |
| *Bir işçiyə düşən orta təlim saatı (cins üzrə)* | Kişi | 3.74 | 2.38 | 2.25 |
| | Qadın | 0.92 | 2.01 | 0.97 |
| **“DDF” MMC** | | | | |
| *Ümumi təlim saatı (cins üzrə)* | Kişi | 105 | 570 | 288 |
| | Qadın | 0 | 68 | 360 |
| *Bir işçiyə düşən orta təlim saatı (cins üzrə)* | Kişi | 0.7 | 6.1 | 6.3 |
| | Qadın | 0 | 4.3 | 27.7 |
| **“AzerBlast” MMC** | | | | |
| *Ümumi təlim saatı (cins üzrə)* | Kişi | 0 | 0 | 450 |
| | Qadın | 0 | 0 | 30 |
| *Bir işçiyə düşən orta təlim saatı (cins üzrə)* | Kişi | 0 | 0 | 23.7 |
| | Qadın | 0 | 0 | 7.5 |

# "AzerGold"un mükafatlandırma sistemi

GRI 2-19, 2-20

İstedadların cəlbi üçün Cəmiyyətdə rəqabətli mükafatlandırma sistemi mövcuddur.

## Əməkhaqqı təcrübələri

Əməkhaqqı sisteminin şəffaflığının təmin edilməsi məqsədilə vəzifələrin dərəcələri müəyyən olunub. Əməkhaqqı səviyyələri bazarla müqayisə olunaraq əməkhaqqı şkalası formalaşdırılıb və hər bir dərəcə üçün **3 pilləli əməkhaqqı aralıqları müəyyən edilib.**

İşçilərin həvəsləndirilməsi məqsədilə daxili prosedurumuza uyğun olaraq işçilərə il ərzində müvafiq mükafatlar verilir. Bütün motivasiya tədbirləri tam və natamam iş vaxtı üzrə çalışan bütün işçilərə şamil olunur.

## Maddi / qeyri-maddi mükafatlandırılmalar

- ✓ **Əsas səmərəlilik göstəricilərinə əsasən bonus sistemi**
- ✓ **300% nisbətində illik mükafatlandırma**
- ✓ **İdman mərkəzlərinə abunə**
- ✓ **Təlimlərin təşkili**
- ✓ **Beynəlxalq sertifikasiyaların Cəmiyyət tərəfindən qarşılanması**
- ✓ **Birdəfəlik (uşağın anadan olmasına görə, ailə həyatı qurmasına görə) müavinətlərin verilməsi**
- ✓ **Sahədəki əməkdaşların qidalanmasının təmin edilməsi**

# MÜXTƏLİFLİYİN VƏ İNKLÜZİVLİYİN TƏŞVİQİ

GRI 405, 406

“AzerGold” keçmişindən və kimliyindən asılı olmayaraq, bütün işçilərin özlərini dəyərli hiss etdikləri və uğur qazanmaq üçün bərabər imkanların verildiyi iş mühiti yaradılmasına xüsusi diqqət yetirir. Əmək münasibətlərində cinsinə, irqinə, dininə, milliyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilmir.

Mədən sənayesi işçi qüvvəsi baxımından kişilərin çoxluq təşkil etdiyi sektor kimi uzunmüddətli bazar təcrübəsinə malikdir və qadınlar bu sektorun bir çox sahələrində kifayət qədər təmsil olunmurlar. 2023-cü ildə “AzerGold” QSC və törəmə şirkətləri üzrə işçilərin **15%-ni qadınlar, 85%-ni kişilər** təşkil edir. Kişi heyətinin çox olmasının səbəbi fəaliyyət sahəmizin xüsusiyyəti və fəhlə heyətin çox olması ilə əlaqədardır. Bunu nəzərə alaraq, biz işçi qüvvəmizin gender tərkibini balanslaşdırmaq üçün çalışırıq və fəal şəkildə gender balansına çatmaq yolunda tədbirlər planı barəsində müzakirələr aparırıq.

**2021-ci ilin hesabat dövrü ilə müqayisədə 2023-cü ildə “AzerGold” üzrə ümumi işçi sayı 34%, “DDF” MMC-də 70% və “AzerBlast” MMC-də təxmini ikiqat artaraq 693, 256 və 23 işçi sayına çatmışdır.**

Ümumilikdə, 2023-cü ildə yaş kateqoriyaları üzrə işçilərin 37.2%-i 30 yaşdan aşağı, 53.5%-i 30-50 yaşarası və 9.3%-i 50 yaşdan yuxarıdır. Ümumi işçi sayının təxminən 2%-dən aşağı hissəsi natamam iş vaxtı üzrə, digər işçilər isə tam iş vaxtı rejimində çalışır.

**İşçilərin ümumi sayı**









## Ümumi işçi sayının yaş üzrə bölgüsü










## "AzerGold"da ümumi işçi sayının işçi kateqoriyaları və cins üzrə bölgüsü



DAŞKƏSƏN DƏMİR FİLİZ

**DDF-də ümumi işçi sayının işçi kateqoriyaları və cins üzrə bölgüsü**




AzerBlast

**“AzerBlast”da ümumi işçi sayının işçi kateqoriyaları və cins üzrə bölgüsü**



**Qrafiklər "AzerGold", "Daşkəsən Dəmir Filiz" (DDF) və "AzerBlast" üzrə rəhbər işçilərinin 2021-2023-cü illərdə yaş kateqoriyaları üzrə bölgüsünü əks etdirir.**

**Yaş kateqoriyaları üzrə rəhbər işçilərin sayı**



### Qadınların əməkhaqqının kişilərin əməkhaqqına nisbəti

| "AzerGold" QSC | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| | 0.8 | 0.85 | 0.85 |

### "AzerGold"un öz işçiləri üçün başlanğıc əməkhaqqının ölkədəki minimal əməkhaqqına olan nisbəti

| 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|
| qadın | kişi | qadın | kişi | qadın | kişi |
| **1.92** | 2.40 | 2.40 | 2.83 | 2.09 | 2.46 |

2023-cü ildə ölkə üzrə minimal əməkhaqqının "AzerGold"un işçiləri üçün olan başlanğıc əməkhaqqına olan nisbəti 2021-ci il ilə müqayisədə qadınlar üzrə **8.85%**, kişilər üzrə isə **2.5%** artmışdır.

## Korporativ bərabərlik mədəniyyətinin qurulması

"AzerGold" insan resursları üzrə bütün qərarvermə proseslərində diskriminativ yanaşmanı yolverilməz hesab edir. Bu səbəblə işçilərimizi şikayət mexanizmləri vasitəsilə şirkətdaxili bütün potensial və ya faktiki ayrı-seçkilik, təqib və ya zorakılıq hallarını bildirməyə təşviq edirik. Cəmiyyətimiz tərəfindən daxil olan bütün şikayətlərə ciddi yanaşılır və operativ şəkildə araşdırma aparılır.

"AzerGold" tərəfindən **hesabat dövrü ərzində heç bir ayrı-seçkilik halının qeydə alınmamasını** bərabərlik mədəniyyətimizin uğuru hesab edirik.

# SAĞLAMLIQ, ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİYİ

GRI 403

**Təhlükəsiz və sağlam iş mühitinin davamlı uğurumuzun təməli olduğuna inanırıq. Məhz buna görə təhlükəsiz iş mühiti yaratmaqla işçi qüvvəsi, podratçılar, təchizatçılar və digər maraqlı tərəflərin sağlamlığı naminə böyük bir əzmlə çalışırıq. Məqsədimiz "AzerGold"un rifahına olan dərin öhdəliyimizi əks etdirən fəaliyyətimizin hər bir aspektində sağlamlıq və təhlükəsizliyin hər şeydən üstün tutulduğu bir iş mühiti yaratmaqdır.**

Sağlamlıq və əməyin təhlükəsizliyi üzrə fəaliyyətimiz SƏTƏM (Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit) şöbəsi tərəfindən yerli qanunvericilik, beynəlxalq standartlar və müəssisədaxili prosedurların tələblərinə uyğun olaraq peşəkar şəkildə idarə olunur və davamlı olaraq qiymətləndirilir.

SƏTƏM-ə nəzarət KT sektoru tərəfindən İnteqrəolunmuş Menecment Sistemlərinin tətbiqinin qiymətləndirilməsi məqsədilə daxili yoxlamalar aparılmaqla həyata keçirilir. Bununla yanaşı, keyfiyyətə ISO 45001:2018 "İş sağlamlığı və təhlükəsizlik idarəetmə sistemləri" standartının tələblərinə əsasən xarici audit tərəfindən nəzarət olunur.

Şöbənin strateji və operativ məqsədləri, yeni qərarların təsdiq edilməsi və həyata keçirilməsi, mövcud problemlərin həll edilməsi və digər məsələlərin müzakirəsi rəhbərlik tərəfindən həftəlik, aylıq və illik iclaslarda müzakirə edilir. İdarəetmə üzrə siyasətlərdə hər hansı bir dəyişiklik olduğu təqdirdə, işçi heyəti və digər maraqlı tərəflər bununla bağlı məlumatlandırılır. **Müasir yanaşması ilə "AzerGold" əməyin təhlükəsizliyi və ekoloji məsuliyyət sahələrində dünya standartlarına uyğunlaşmaq və bu standartlara riayət etmək üçün çalışır.**

## SAĞLAMLIQ VƏ ƏMƏYİN MÜHAFİZƏSİ ÜZRƏ ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

"AzerGold" nailiyyətlərinin əsas mənbəyinin sağlam və təhlükəsiz iş mühitinin olduğuna inanır və buna görə də SƏTƏM şöbəsinin inkişafına xüsusi önəm verir. Hasilat sahələrində istifadə edilən təhlükəli kimyəvi maddələrin istifadəsi, saxlanılması və daşınması zamanı qanunvericilik və beynəlxalq standartlara uyğun olaraq təhlükəsizlik tələblərinə riayət edilir, insan sağlamlığına, ətraf mühitə ola biləcək potensial zərərli risklərin düzgün idarəedilməsi, bu istiqamətdə baş verə biləcək qəzaların qarşısının alınması və baş vermiş qəzaların nəticələrinin aradan qaldırılması üzrə aidiyyəti nəzarət tədbirləri həyata keçirilir. Şirkətimiz tərəfindən əməyin mühafizəsi üzrə qanunvericilik və beynəlxalq standartlardan irəli gələn normativ tələblərə riayət edilir, bina və qurğuların, texnoloji proses və avadanlıqların təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirilir.



## Əsas fəaliyyət istiqamətləri

- İstehsalat sahələrində fəaliyyət göstərən işçilər üçün hər il dövri tibbi müayinə
- İşə qəbul olan işçi heyət və qonaqlar üçün giriş təlimatının və daxili təlimlərin keçirilməsi
- İş yerlərinin attestasiyası və avadanlıqların sertifikatlaşdırılması
- Yanğın təhlükəsizliyinin təmin edilməsi sahəsində müvafiq tədbirlərin görülməsi
- Daşınmaz əmlakın icbari sığortalanması
- Tədbirlər və digər təşkilatçılıq məsələlərinin təşkili
- Podratçı/subpodratçılar tərəfindən sağlamlığın qorunması, əməyin mühafizəsi və texniki təhlükəsizlik, ətraf mühitin mühafizəsi və yanğın təhlükəsizliyinə riayət edilməsinə nəzarət edilməsi
- Baş vermiş hadisələrin təhqiqatının aparılması və qarşısının alınması üçün tədbirlərin həyata keçirilməsi

# SƏTƏM MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

Hər bir əməkdaşın sağlamlığı və təhlükəsizliyinə önəm verən "AzerGold" üçün bu mədəniyyətin formalaşdırılması siyasətimizin mühüm bir parçasına çevrilmişdir. Korporativ mühitdə SƏTƏM mədəniyyətinin artırılması məqsədilə "AzerGold" müntəzəm maarifləndirmə təlimləri, müzakirələr və sorğular həyata keçirir. Bu tədbirlər işçilərin təhlükəsizlik davranışlarını daha da yaxşılaşdırmaq və əməyin təhlükəsizliyi sahəsində yüksək standartlara nail olmağı hədəfləyir. İstehsalat sahələrində təhlükəsizliyin davamlı monitorinqi məqsədilə kartlar hazırlanır və nəticələr elektron məlumat bazasında toplanaraq təhlil edilir. Bu təhlillərə əsaslanaraq fərdi təlim mövzuları seçilir və İRİ şöbəsi tərəfindən təlim büdcəsi müəyyən olunur.

İşçilərin motivasiyasını artırmaq üçün hər ay monitorinq kartlarında fərqlənən əməkdaşlar seçilir və müxtəlif mükafatlarla təltif edilir. SƏTƏM mədəniyyətinin inkişafını dəstəkləmək üçün digər şöbələrin əməkdaşları da təftiş və yoxlamalara cəlb olunur. Aidiyyəti şöbələrin SƏTƏM üzrə məsul şəxsləri ilə mütəmadi olaraq fikir mübadiləsi aparılır və təkliflər müzakirə edilir. "AzerGold" telefon, e-poçt, mütəmadi görüşlər, növbədənkənar iclaslar ve elektron sənəd dövriyyəsi kimi daxili kommunikasiya vasitələrindən istifadə edərək, SƏTƏM mədəniyyətində effektiv ünsiyyəti təmin edir. **Bu yanaşma SƏTƏM mədəniyyətinin korporativ mühitdə daha da dərinləşdirilməsinə və şirkətin ümumi təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə xidmət edir.**

# SƏTƏM ÜZRƏ TƏLİMLƏR

“AzerGold” işçilərin bilik və bacarıqlarını artırmaq məqsədilə sağlamlıq, əməyin təhlükəsizliyi, ətraf mühit, yanğından mühafizə, mülki müdafiə və elektrik təhlükəsizliyi üzrə mütəmadi təlim proqramları təşkil edir. Qanunvericiliyin tələblərinə uyğun olaraq, işə yeni qəbul olunan bütün işçilərə SƏTƏM nümayəndələri tərəfindən giriş təlimatı keçirilir və yanğına qarşı ilkin təlimatlar verilir, təkrar təlimat isə hər 6 aydan gec olmayaraq təkrarlanır. Fövqəladə hadisələr, vəzifə dəyişiklikləri, texnoloji yeniliklər, qanunvericilikdə dəyişikliklər və ya dövlət qurumları tərəfindən müraciət olduğu hallarda təlimlər bölmə rəhbəri tərəfindən keçirilir.

İşçilər peşə qabiliyyətləri və səriştəlilik dərəcələrinin artırılması, həmçinin əməkdaşlar arasında SƏTƏM mədəniyyətinin yaxşılaşdırılması üçün daxili təlim proqramlarına və akkreditasiya olunmuş lisenziyalı şirkətlər tərəfindən keçirilən xarici təlimlərə göndərilir, dövri biliklərin yoxlanılması prosesinə cəlb edilirlər. Təlimlərə verilən önəmin nəticəsidir ki, 2023-cü ildə təlim keçmiş işçilərin ümumi sayına (2829 nəfər) nəzər salsaq görərik ki, 2021-ci il ilə müqayisədə 133%, 2022-ci il ilə müqayisədə isə 190% artım müşahidə olunmuşdur.

**“AzerGold”da sağlamlıq və əməyin təhlükəsizliyi üzrə təlimlər**

| | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **Təlim keçmiş işçilərin ümumi sayı** | 1 216 | 977 | 2 829 |
| **İşçilər üzrə təlim saatları** | 255 | 110 | 195 |

# Təhlükəsizlik məsuliyyəti

**Hesabat olunan illər ərzində ağır xəsarət (6 aydan çox əmək qabiliyyətinin itirilməsi) alan əməkdaşların sayı 0 olaraq qeydə alınmışdır.**

Təhlükəsizlik məsuliyyəti çərçivəsində SƏTƏM üzrə nəticələr İdarə Heyətinə gündəlik, iki həftəlik, aylıq, rüblük və illik olaraq təqdim olunur. Gündəlik hesabatlar sahədəki göstərişlər, hadisələr və yoxlamaları, iki həftəlik hesabatlar mühüm hadisələri, aylıq hesabatlar əməkdaşların və podratçıların fəaliyyətini, illik hesabatlar isə tibbi məlumatlar və təhlükəsizlik tədbirlərini əhatə edir. “AzerGold” tərəfindən mütəmadi olaraq rəhbərliyə yarımillik və illik hesabatlar, aidiyyəti qurumlara isə illik statistik hesabatlar təqdim olunur.

**Sağlamlıq və əməyin təhlükəsizliyi üzrə açıqlamalar**

| | | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **“AzerGold”** | Xəsarət almış əməkdaşların sayı | 0 | 2 | 0 |
| | Xəsarət nəticəsində 24 saatdan çox əmək qabiliyyətini itirmiş işçilər (LTI) | 0 | 0 | 0 |
| | İtirilmiş iş günü ilə nəticələnən xəsarətlərin tezlik əmsalı (LTIFR) | 0 | 0 | 0 |
| **“AzerBlast”** | Xəsarət nəticəsində 24 saatdan çox əmək qabiliyyətini itirmiş işçilər (LTI) | 0 | 0 | 0 |
| **“Daşkəsən Dəmir Filiz”** | Xəsarət nəticəsində 24 saatdan çox əmək qabiliyyətini itirmiş işçilər (LTI) | 0 | 0 | 1 |
| **Podratçılar və subpodratçılar** | Xəsarət almış əməkdaşların sayı | 3 | 12 | 20 |
| | Xəsarət nəticəsində 24 saatdan çox əmək qabiliyyətini itirmiş işçilər (LTI) | - | 2 | 3 |
| | İtirilmiş iş günü ilə nəticələnən xəsarətlərin tezlik əmsalı (LTIFR) | - | 1.57 | 1.63 |

Yuxarıdakı cədvəldə də qeyd olunduğu kimi, "AzerGold", "Daşkəsən Dəmir Filiz" və "AzerBlast"ın öz işçiləri üzrə iş fəaliyyəti zamanı xəsarət alanların sayı 2022-ci ildə cəmi 2 nəfər, 2023-cü ildə isə 1 nəfərdir. "AzerGold"un öz işçisi olmayan, lakin şirkətimiz üçün fəaliyyət göstərən podratçı və subpodratçılar üzrə isə cəmi xəsarət alanların sayı hesabat müddətinin ilk ili ilə müqayisədə 2022-ci il ərzində 4 dəfə, 2023-cü il ərzində isə 7 dəfəyə qədər artmışdır. Baş vermiş hadisələrə nəzər yetirdikdə podratçılar və subpodratçılar tərəfindən avtonəqliyyat hadisələrinin sayı üstünlük təşkil etməkdədir. Podratçı/subpodratçı təşkilatlar fəaliyyət planlarında avtonəqliyyat hadisələrinin sayının minimuma endirilməsi üçün təkmilləşdirici və önləyici tədbirləri müəyyən etmiş və icrasının gələcəkdə həyata keçiriləcəyini bildirmişlər.

Şirkət daxilində sağlamlıq və əməyin təhlükəsizliyi tələblərinin tətbiqinə dair keçirilmiş **monitorinqlər təsdiqlənmiş proqrama əsasən həyata keçirilmişdir**. SƏTƏM fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə monitorinqlər aidiyyəti struktur bölmələrə təhvil verildiyindən azalmalar müşahidə olunur. Sağlamlıq və əməyin təhlükəsizliyi tələblərinin tətbiqinə dair monitorinqdən keçmiş podratçı və subpodratçıların sayında ildən ilə artım müşahidə olunmuş, hesabat müddətinin birinci ili ilə müqayisədə podratçı sayının artması ilə əlaqədar 2022-ci ildə 28%, 2023-cü ildə isə 50% artım baş vermişdir. **Monitorinqlər keçirilərkən aşkar edilmiş uyğunsuzluqlar isə 2022-ci ildə 25% artsa da, 2023-cü ildə yenidən azalıb 279-a bərabər olmuşdur.**

**Sağlamlıq və əməyin təhlükəsizliyi üzrə monitorinqlər**



# SƏHİYYƏ VƏ TİBBİ XİDMƏTLƏR

İşçilərin sağlamlığının qorunması üçün “AzerGold” Səhiyyə və Tibbi xidmətlərə xüsusi önəm verir və bu tədbirlər SƏTƏM siyasətimizin əsasını təşkil edir. **2023-cü ildə tibbi müayinədən keçmiş işçilər öncəki illə müqayisədə 38% artmışdır**. Bu tədbirlərə tibbi müayinələr, periodik analizlər və digər tibbi müdaxilələr daxildir. Dövri tibbi müayinədən öncə işçilərin siyahısı feldşer tərəfindən təyin edilir və İRİ şöbəsi ilə əməkdaşlar arasında üstünlük verilən fəaliyyət sahələri müəyyənləşdirilir. Bu siyahı müvafiq sanitariya və epidemiologiya müəssisələri ilə müzakirə olunur və lisenziyalı şirkətlər işçilərin dövri tibbi müayinələrdən keçirilməsinə cəlb edilir. Əlavə olaraq, yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə istehsalat sahələrində mütəmadi olaraq dezinfeksiya və təmizlik işləri aparılır. İşçinin səhhətində hər hansı problem yarandığı təqdirdə fəaliyyət sahələrində xidmət göstərən tibbi xidmət tərəfindən ilkin tibbi yardım göstərilir. Əgər işçinin vəziyyəti ağır olaraq qiymətləndirilərsə, o, təcili tibbi yardım nəqliyyat vasitəsilə yaxınlıqda yerləşən tibb müəssisəsinə çatdırılır.

SƏTƏM şöbəsi tərəfindən önəm verilən digər məsələlərdən biri də **işçilərin iş və şəxsi həyat balansının qorunmasına nəzarət etməkdir**. “AzerGold” olaraq inanırıq ki, uğurun əldə edilməsi üçün işçilərin istirahətə zaman ayırması çox böyük əhəmiyyət kəsb edir və bu onların iş performansına birbaşa olaraq təsir göstərir. Bütün işçilərimiz müxtəlif çeşidlərdə xüsusi geyim, ayaqqabı və digər fərdi mühafizə vasitələri və iş şəraitindən asılı olaraq müalicəvi profilaktiki qidalar və qida əlavələri ilə təmin edilmişdir.

**Tibbi müayinədən keçən işçilərin sayı**






# FÖVQƏLADƏ HALLARA HAZIRLIQ TƏDBİRLƏRİ

Fövqəladə hallara hazırlıq tədbirləri çərçivəsində "AzerGold"un fəaliyyət sahələrində mövcud olan risklərin idarəolunması və risk nəticələrinin minimuma endirilməsi məqsədilə Fövqəladə Hallar Komissiyası (FHK) yaradılmışdır. Komissiyanın əsas öhdəliklərinə qəza yaradıcı mənbələrin müəyyən edilməsi, potensial risklərin qiymətləndirilməsi, Qəzaların Ləğvi Planı (QLP) və Təxliyə Planının tərtib edilməsi daxildir. Əlavə olaraq, işçilərdən ibarət hərbiləşdirilməmiş Mülki Müdafiə Qüvvələri (MMQ) və Könüllü Yanğından Mühafizə Dəstələrinin (KYMD) yaradılması, qəza vəziyyətlərinə hazırlıq məqsədilə təlimlərin keçirilməsi də FHK-nin gördüyü işlərə daxildir.

"AzerGold" tərəfindən potensial fövqəladə hallara qarşı hazırlıqlı olmaq məqsədilə sahələrdə qəza və yanğın xəbərdaredici sistemləri və qəza işıqları quraşdırılmışdır. Həmçinin fəaliyyət sahələrində ilkin tibbi yardım qutuları, FH məntəqələri, ehtiyat su çənləri, yanğın hidrantları, odsöndürən balonlar və digər yanğınsöndürmə ləvazimatları təmin edilmişdir.

# SƏTƏM ÜZRƏ ŞİKAYƏTLƏRİN İDARƏOLUNMASI

Önəm verdiyimiz digər bir məsələ etibarlı və faydalı şikayət mexanizminin mövcud olmasıdır. "AzerGold"da şikayətlərin qəbul olunması və idarəolunması istiqamətində vahid mexanizm tətbiq olunur və aidiyyəti struktur bölmələr ilə sıx fəaliyyət qurulur. Məxfilik və şəffaflığın təmin edilməsi məqsədilə açıq kanallar təqdim olunur və müraciətlərin baxılmasına dair proseslər üzrə təlimlər keçirilir. Şikayət mexanizmləri ilə bağlı daha **ətraflı məlumat üçün hesabatın 33 səhifəsində yerləşən "Şikayət mexanizmləri" bölməsinə keçid edə bilərsiniz.**

# SAĞLAMLIQ VƏ ƏMƏYİN MÜHAFİZƏSİ ÜZRƏ RİSKLƏRİN İDARƏOLUNMASI

Fəaliyyət sahəsi və miqyasından asılı olaraq, iş şəraitində hər zaman risklərin mövcud olması danılmaz faktdır. "AzerGold" olaraq inanırıq ki, istehsalat prosesindən maksimum fayda və səmərəlilik əldə etməyin əsas üsullarından biri risklərin düzgün idarə olunmasıdır. Bu məqsədlə SƏTƏM şöbəsi bütün istehsalat sahələrində tətbiq olunan standartların və qüvvədə olan qanunvericiliyin tələblərinə riayət edərək işçi heyəti və digər şəxslərin təhlükəsizlik və sağlamlığının, ətraf mühit və əmlakın qorunması məqsədilə risklərin qiymətləndirilməsini həyata keçirir. **Risklərin idarəedilməsi və mərhələləri üzrə ətraflı məlumat üçün hesabatın 36 səhifəsində yerləşən "Risklərin idarəolunması" bölməsinə istinad edə bilərsiniz.**

**Qeyd edək ki, vəzifəsindən asılı olmayaraq, hər bir işçinin potensial təhlükə müşahidə etdikdə işi dərhal dayandırmaq hüququ vardır.** Şirkətimizin fəaliyyəti ilə bağlı istehsalat sahələrində baş verən və qanunvericiliyin tələblərinə uyğun olaraq, hadisələrin araşdırılması, risklərin müəyyən edilməsi, tənzimləyici və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, eləcə də əlaqədar hesabatların hazırlanması Tədqiqat Komissiyası (TK) və SƏTƏM şöbəsi tərəfindən aparılır. İşçi heyətimizin hər bir üzvü hər hansı bir iş fəaliyyətinə başlamadan öncə onun fəaliyyət planı rəsmiləşdirilir, potensial risklərinin aradan qaldırılması və ya azaldılması məqsədilə nəzarət tədbirləri icra edilərək məlumatlandırılır və yalnız bundan sonra işə cəlb olunur.

Podratçı/subpodratçıların fəaliyyəti nəticəsində şirkətə zərər yetirən yaxud yetirmə riski olan hadisələr SƏTƏM şöbəsi tərəfindən araşdırılır, araşdırma zamanı xüsusi bilik və bacarıqlar tələb edildikdə digər struktur bölmələrin səlahiyyətli nümayəndələri araşdırmaya dəvət edilir, müəyyən edilən tənzimləyici tədbirlərin icrasının nəzarətdə saxlanılması məsul şəxslər ilə birlikdə həyata keçirilir. Hadisə araşdırma nəticələrinə əsasən, oxşar hadisələrin baş verməsinin qarşısının alınması məqsədilə tövsiyə və tədbirləri əks etdirən hadisədən öyrənilən vərəqələr tərtib edilir, struktur bölmə rəhbəri tərəfindən aidiyyəti iş sahələrində məlumatlandırma həyata keçirilir.

# ƏTRAF MÜHİTİN İDARƏEDİLMƏSİ

Dağ-mədən fəaliyyətimizin ətraf mühitə təsirləri ilə bağlı fərqindəliyə sahib olub bu təsirlərin minimallaşdırılması və məsuliyyətli idarəsini həyata keçirmək məqsədilə “AzerGold” **ətraf mühitin mühafizəsi sahəsində siyasətini tətbiq edir.** Siyasətimiz “AzerGold”un əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və idarəolunması fəaliyyətlərini əhatə edir və bu proseslər zamanı ətraf mühitin qorunmasına və təbii ehtiyatlardan səmərəli istifadəyə verilən önəmi özündə əks etdirir. Təyin olunmuş öhdəliklərimizin “AzerGold”un obyektlərində çalışan podratçı və subpodratçılar da daxil olmaqla, bütün əlaqədar tərəfdaşlar tərəfindən izlənilməsi tələb olunur.

Ətraf mühitə məsuliyyətli yanaşmamızı yalnız daxili siyasətimizlə deyil, o cümlədən təbii ehtiyatların mühafizəsi ilə bağlı Azerbaycan Respublikasının tərəfdaş çıxdığı **Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiyası", “Civə haqqında Minamata Konvensiyası”** kimi beynəlxalq müqavilə və konvensiyaların şərtləri, həmçinin yerli qanunların tələblərinə sadiqliyimiz ilə də nümayiş etdiririk.

“AzerGold” olaraq biz ətraf mühitin mühafizəsi siyasətinin və dayanıqlı inkişaf prinsiplərinin bütün departamentlər üzrə fəaliyyətlərə inteqrasiyasını təmin edirik. Bu məqsədlə “AzerGold”un daxilində sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit sahəsi üzrə yaradılmış SƏTƏM şöbəsi ətraf mühit siyasətinin həyata keçirilməsinə və nəzarətinə cavabdehdir.

Eyni zamanda ətraf mühitə təsirləri minimuma endirmək, müvafiq qanuni tələblərə əməl etmək və ətraf mühit məqsədlərimizə nail olmaq üçün biz biznes və istehsalat proseslərimizdə beynəlxalq tanınmış **ISO 14001:2015** standartına uyğun olaraq 2018-ci ildən etibarən **Ətraf Mühitin İdarəedilməsi Sistemini** tətbiq edirik.



## Ətraf mühitin mühafizəsi üzrə əsas fəaliyyətimiz

Ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi məqsədilə **dayanıqlı inkişaf prinsipləri üzrə mütərəqqi üsulları** tətbiq etmək

Respublikamızın tərəfdaş çıxdığı **beynəlxalq müqavilə və konvensiyaların şərtlərinə** (sazişlər, protokollar və s.) və eyni zamanda **yerli qanunların tələblərinə riayət** etmək

Əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənmə prosesləri zamanı ***ətraf mühitə təsirin davamlı monitorinqini*** həyata keçirmək

Ətraf mühitə mənfi təsirin qarşısını alan **qoruyucu və qabaqlayıcı tədbirlər görərək** ekosistemlər üçün yarana biləcək ekoloji riskləri maksimum səviyyədə azaltmağa təşəbbüs göstərmək

Ətraf mühitin qorunması, əhalinin sağlamlığı, təbii ehtiyatlardan səmərəli istifadə sahəsində **dövlət, hökumət orqanları və ictimai təşkilatlarla əlaqələrin genişləndirilməsini** həyata keçirmək

Ətraf mühitin mühafizəsinə dair ictimai fəal mövqe nümayiş etdirmək

# ƏTRAF MÜHİTƏ TƏSİRLƏRİMİZİN İDARƏ EDİLMƏSİ

**Hər hansı mədən yataq istismarına başlamazdan əvvəl "AzerGold" əməliyyatlarımızın potensial təsirlərini qiymətləndirmək üçün hərtərəfli Ətraf və Sosial Mühitə Təsirin Qiymətləndirilməsini (ƏSMTQ) həyata keçirir.** Qiymətləndirmə prosesi müxtəlif amillərin, o cümlədən ətraf mühit şəraitinin, sosial dinamikanın və iqtisadi mülahizələrin hərtərəfli təhlilini əhatə edir. Bu prosesdə biomüxtəlifliyə, su ehtiyatlarına, havanın keyfiyyətinə və yerli icmalara fəaliyyətimizin potensial təsirləri qiymətləndirilir, yerli və beynəlxalq qanunvericiliyin tələbləri nəzərə alınır. Bu təfərrüatlı qiymətləndirmə təsirlərin azaldılması tədbirlərinin müəyyən edilməsi və layihənin davamlı inkişafının təmin edilməsi üçün çox vacibdir. ƏMTQ sənədi tamamlandıqdan sonra layihənin başlanması üçün zəruri rəyin alınmasında ETSN DEEA-ya təqdim edilir.

Qeyd olunan İdarəetmə sisteminin əhatə dairəsi çərçivəsində "AzerGold"un fəaliyyəti üzrə ekoloji aspektlərin idarəedilməsi proseslərini əks etdirən **Ekoloji aspektlərin identifikasiyası və qiymətləndirilməsi proseduru sənədi** qəbul olunmuşdur. Bu sənəd Azərbaycan Respublikasının ətraf mühitin mühafizəsi üzrə qanunlarının tələblərinə və **ISO 14001:2015 standartının** prinsiplərinə əsasən hazırlanmışdır. Prosedura uyğun olaraq layihələrin həyata keçirilməsi zamanı bütün fəaliyyət və proseslərin ekoloji aspektləri və onların ətraf mühitə təsirləri müəyyənləşdirilir və qiymətləndirilir. Yüksək əhəmiyyətli və kritik aspektlər müəyyən edildikdə ətraf mühitə təsirlərin azaldılması/qarşısının alınması məqsədilə tədbirlər planı hazırlanaraq icra edilir.

**Ekoloji aspektlərin idarə edilməsi prosesinin təsviri**



# EKOLOJİ MONİTORİNQ

Əlavə olaraq, “AzerGold” fəaliyyəti zamanı bir sıra ətraf mühit komponentlərinə (hava, su, torpaq) təsirlərinin azaldılması/qarşısının alınması məqsədilə illik olaraq daxili təsdiq edilmiş **Ekoloji Monitorinq Proqramına** uyğun olaraq vizual, eksperimental və laborator monitorinqi həyata keçirir.

## Ekoloji monitorinqin əsas istiqamətləri

- Su və torpaq mühitinin keyfiyyətinin izlənilməsi üçün **su və torpaq nümunələrində** müxtəlif keyfiyyət parametrləri üzrə **laborator** analizləri həyata keçirilməsi
- Hava monitorinqi və fiziki təsirlərin nəzarətdə saxlanılması üçün xüsusi cihazlarla **qaz, toz, səs-küy** və **vibrasiya üzrə ölçmə işlərinin** aparılması
- Torpaqda və digər komponentlərdə çirkləndiricilərin **vizual monitorinqi**



**Ətraf mühitin idarəedilməsi və mühafizəsi istiqamətində aşağıda göstərilmiş əhəmiyyətli mövzular müəyyən edilmişdir.**


**İQLİM DƏYİŞİKLİYİ VƏ İEYQ EMİSSİYALARI**

Səhifə 65

**ENERJİ SƏMƏRƏLİLİYİ**

Səhifə 69

**SUYUN İDARƏEDİLMƏSİ**

Səhifə 73

**TULLANTILARIN İDARƏOLUNMASI**

Səhifə 79

**TORPAQLARDAN İSTİFADƏ VƏ MÜHAFİZƏ**

Səhifə 86

**BİOMÜXTƏLİFLİYİN MÜHAFİZƏSİ**

Səhifə 91

# ƏTRAF MÜHİTƏ DƏYMİŞ ZİYANIN KOMPENSASİYASI

"AzerGold" olaraq biz ətraf mühitin mühafizəsi üzrə dövlət və meşə fonduna ödənişlər edirik. Hər bir layihə başlamazdan əvvəl faəliyyət nəticəsində ətraf mühitə dəyəcək zərər qiymətləndirilir və aidiyyəti qurumlara kompensasiya ödənişləri olunur. **Hesabat dövründə "AzerGold"a ətraf mühitə dəyən ziyana görə tətbiq edilmiş cərimələrin sayı 0 olaraq qeydə alınmışdır.**

## Gələcək perspektivlər

Ətraf mühitin mühafizəsi ilə bağlı davam edən öhdəliyimizin bir hissəsi olaraq gələcək üçün bir neçə əsas təşəbbüsü qeyd edirik:

1. **ICMC Sertifikatı:** Gələcək sertifikatlaşdırmaya nail olmaq üçün Sianidin İdarəolunması üzrə Beynəlxalq Kodeksin (ICMC) tələbləri üçün boşluq təhlilinin aparılmasını, sianidin təhlükəsiz idarəolunması təcrübələrinin təmin edilməsini planlaşdırırıq.

2. **Ağacəkmə kampaniyaları:** Fəaliyyət göstərdiyimiz ərazilərdə və ətraf ərazilərdə meşələrin bərpası və biomüxtəlifliyi artırmaq üçün ağacəkmə kampaniyalarını davam etdirəcəyik.

3. **Ətraf mühitin monitorinqi:** Ətraf mühitə mənfi təsirlərin qarşısını almaq və qiymətləndirmək üçün ekoloji monitorinq işlərini davam etdirəcəyik.

4. **Kadrların təlimi və maarifləndirilməsi:** İşçilərimiz arasında ekoloji maarifləndirmənin, məlumatlılığın və biliklərin artırılması üçün müntəzəm təlimlər keçirəcəyik.

5. **Davamlılığın diaqnostikası və yol xəritəsi:** Bu il davamlılıq diaqnostikasını başa çatdırmağı və nəticələr əsasında dayanıqlı inkişaf üçün yol xəritəsi və fəaliyyət planı hazırlamağı planlaşdırırıq.



# İQLİM DƏYİŞİKLİYİ VƏ İEYQ EMİSSİYALARI

GRI 305-1, 305-2, 305-3, 305-4, 305-5

**İqlim dəyişikliyi ətraf mühit, cəmiyyət və iqtisadiyyat üçün geniş təsirləri ilə dövrümüzün ən aktual problemlərindən biridir. “AzerGold” Azərbaycanda fəaliyyət göstərən məsuliyyətli korporativ tərəfdaş kimi Paris İqlim Sazişinin əhəmiyyətini və iqlim dəyişikliyi ilə mübarizədə ölkəmizin üzərinə götürdüyü öhdəlikləri qəbul edir. Biz öz fəaliyyətimizi milli və beynəlxalq iqlim məqsədlərinə uyğunlaşdırmağa, istixana effekti yaradan qazların (İEYQ) emissiyalarını azaltmaq və qlobal temperatur artımını məhdudlaşdırmaq səylərinə töhfə verməyə sadiqik.**

Sahələrdə birbaşa istixana qazı emissiyalarının ən böyük mənbəyi “AzerGold”un balansında olan nəqliyyat vasitələri və elektrik enerjisinin istehsalı üçün generatorlarda dizel yanacağının istehlakıdır. Eyni zamanda dolayı emissiyaları elektrik enerjisinin alınmasından qaynaqlanır və şəbəkənin əhəmiyyətli bir hissəsi bərpa olunmayan elektrik enerjisi ilə təmin edilir.



*Şəffaflıq və hesabatlılığa dair öhdəliyimizə uyğun olaraq, **2021-2023-cü illər üçün** "AzerGold"da fəaliyyəti[6] nəticəsində yaranan **birbaşa ("Scope 1")** və **dolayı ("Scope 2")** İEYQ emissiyalarının **İEYQ Protokoluna ("GHG Protocol")** əsasən hesablanması aparılmışdır. Bu, emissiyaları dəqiq qiymətləndirməyə və təkmilləşdirmə imkanlarını müəyyən etməyə imkan verir.*

*2023-cü ildə toplam (**Scope 3** daxil olmaqla) İEYQ emissiyaları **37,815.25** ton $CO_2$ ekvivalenti və hasil edilmiş bir unsiya qızıla düşən İEYQ emissiyaları **0.59** ton $CO_2e$/unsiya təşkil etmişdir.*

Birbaşa ("Scope 1") və dolayı ("Scope 2") İEYQ emissiyaları aylıq olaraq hesablanır və 2021-ci ildən etibarən illik mütləq İEYQ emissiyaları (ton $CO_2e$) həm də İEYQ emissiyalarının intensivliyi (istehsal edilmiş qızılın hər unsiyasına görə ton $CO_2e$) İdarə Heyətinə SƏTƏM şöbəsinin illik hesabatında təqdim edilir.

"AzerGold"un fəaliyyəti zamanı İEYQ emissiyalarını əmələ gətirən əsas mənbə avadanlıq, texnika və avtonəqliyyat vasitələridir. Yataqlarda mövcud olan digər zərərli qaz və istixana qazlarının emissiya mənbəyi orada aparılan partlayış əməliyyatlarıdır. Atmosferə atılmaların norma daxilində saxlanması üçün texnikaların sazlığına daim nəzarət edilir. Həmçinin partlayışların həyata keçirilməsi zamanı da mövcud normativlərin tələblərinə riayət olunması diqqətdə saxlanılır.

2019-cu ildə generatorlarda dizel yanacağının istifadəsinə qənaət etmək üçün ÇFES sahəsində elektrik enerji stansiyası quraşdırılmışdır və elektrik enerji şəbəkəsinə qoşulmuşdur. Dizel yanacağının qənaəti nəticəsində emissiyaların həcmində azalmalarla bağlı hesablamalar aparılmamışdır.

**"SCOPE 1" (BİRBAŞA)**

✓**"Scope 1" (birbaşa) emissiyaların** hesablanmasında "AzerGold"un balansında olan NV-də və generatorlarda istifadə olunan yanacaq (dizel, benzin) miqdarları nəzərə alınmışdır.

**"SCOPE 2" (DOLAYI)**

✓**"Scope 2" (dolayı) emissiyaların** hesablanması üçün ÇFES sahəsində istifadə edilmiş ("Azerişıq"dan alınan) elektrik enerji miqdarı nəzərə alınmışdır.

**"SCOPE 3" (DİGƏR)**

✓**"Scope 3" (digər) emissiyaları** olaraq hesabat dövrü ərzində aktiv hasilat aparılan layihələrdə (Çovdar, Ağyoxuş, Tülallar) hasilat fəaliyyətini aparan (qazma, partlayış, daşıma, qırma) podratçı şirkətlərin fəaliyyəti nəticəsində əmələ gələn emissiyalar hesablanır. Bu emissiyaların hesablanması üçün qeyd olunan fəaliyyətlər zamanı podratçı şirkətlər tərəfindən nəqliyyat vasitələri, texnika, generator və qazanxanalarda istifadə olunan yanacaq, eyni zamanda partlayıcı maddələrin miqdarı nəzərə alınmışdır.

Bəzi emissiya mənbələri, məsələn ÇQ zavodunun inşası, yolların salınması, ofis binasının enerji təminatı, işçilərin və podratçıların nəqliyyat vasitəsi və s. haqqında məlumatların toplanılması mürəkkəb proses olduğu və həmin məlumatların mövcud olmadığı üçün "Scope 3" emissiyalarının hesablanmasına bunlar daxil edilməmişdir.

*[6] Hesablanma aktiv istehsalat aparılan yataqlarda (Çovdar, Ağyoxuş 1, Mərəh, Tülallar), Köhnəmədən kəşfiyyat sahəsində və Baş ofisdə aparılan fəaliyyəti daxil edir. Digər kəşfiyyat layihələri nəzərə alınmamışdır.*

**“AzerGold”da birbaşa və dolayı İEYQ emissiyaları, ton $CO_2$ ekv.**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Birbaşa (“Scope 1”) İEYQ emissiyaları | 830.8 | 1,054.2 | 1,030.45 |
| Dolayı (“Scope 2”) İEYQ emissiyaları | 4,798.0 | 6,089.5 | 14,034.62 |
| Digər (“Scope 3”) İEYQ emissiyaları | 17,061.27 | 20,973.50 | 22,750.19 |
| **Cəmi** | **22,690.11** | **28,117.21** | **37,815.25** |

2023-cü ildə birbaşa (“Scope 1”) və dolayı (“Scope 2”) İEYQ emissiyalarının toplam miqdarı **15,065.07** ton $CO^2$ekv. olmaqla əvvəlki il ilə müqayisədə artmışdır. **Bu artım əsasən 2023-cü ildə Çovdar Filiz Emalı Sahəsində ÇQ zavodunun sınaq rejimində istismara verilməsi və istehsalat və elektrik enerjisi istehlakının artması ilə əlaqədardır.**

2023-cü ildə istehsal olunan qızılın unsiyası üçün istixana qazının intensivliyi **0.24** ton $CO^2$ ekv. təşkil etmişdir (“Scope 1” və “Scope 2” üzrə) və 2021-ci il ilə müqayisədə 201% artmışdır. **Bunun səbəbi yeni zavodda elektrik enerjisinin artması dinamikası ilə hasil edilmiş qızılın miqdarının artmasının qeyri-mütənasib olmasıdır.**

**İEYQ emissiyalarının bir unsiya qızıla düşən intensivlik nisbəti, ton $CO^2$ekv/unsiya (“AzerGold” üçün)**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Birbaşa (“Scope 1”) və dolayı (“Scope 2”) | 0.09 | 0.12 | 0.24 |
| Digər (“Scope 3”) emissiyalar ilə birlikdə | 0.37 | 0.45 | 0.59 |

**Növlər üzrə atmosferə atılan çirkləndirici maddələrin ümumi miqdarı, ton**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **Bərk maddələr** | 0.06 | 0.079 | 0.082 |
| **Qaz və maye halında olan cisimlər, o cümlədən:** | 4.40 | 5.84 | 6.07 |
| kükürd oksidi | 0.852 | 1.123 | 1.174 |
| azot oksidi | 1.59 | 2.133 | 2.192 |
| karbon oksidi | 1.56 | 2.058 | 2.151 |
| karbohidrogenlər | 0.402 | 0.53 | 0.554 |
| **Atmosferə atılan çirkləndirici maddələrin ümumi miqdarı** | 4.46 | 5.92 | 6.15 |

Atmosferə atılan çirkləndirici maddələrın növlər üzrə miqdarları Atıla Bilən Tullantı Həddi (ABTH) normativ layihəsinə əsasən təqdim olunub.

**İrəliyə baxaraq biz enerji mənbələrimizi şaxələndirmək və alternativ enerji texnologiyalarını əməliyyatlarımıza inteqrasiya etmək imkanlarını araşdırırıq.**

**Bura karbon izimizi azaltmaq və davamlı enerji həllərini təşviq etmək, məqsədimizə uyğun olaraq günəş və ya külək enerjisi kimi bərpa olunan enerji layihələrinin potensial inkişafı daxildir.**

# ENERJİ SƏMƏRƏLİLİYİ

GRI 302-1, 302-3, 302-4, 302-5

Təbii sərvətlərin çıxarılması və ağır mədən fəaliyyətlərinin icrası insan əməyinin üstündə ağır texnikadan istifadə və bu texnikaların icrasının həyata keçirilməsi üçün səmərəli elektrik enerjisi sərfiyyatı tələb edir. “AzerGold” resurslara qənaət etmək, enerji məsrəflərini azaltmaq və müasir tullantısız və ya az tullantılı texnologiyaların tətbiqi üzrə xüsusi yanaşma formalaşdırır. Enerji səmərəliliyi yönündə qoyduğumuz hədəfə çatmaq üçün ildə 1 dəfə bu istiqamət üzrə müvafiq təhlil və düzəliş tədbirləri həyata keçiririk.

**“AzerGold”un hasilat və geoloji kəşfiyyat sahələrində istifadə etdiyi enerji dizel generatorlardan və elektrik enerji şəbəkəsindən əldə olunur. Hesabat illəri ərzində enerji istifadəsi yönündə mühüm addımlara imza atmışıq. Bu təşəbbüslər arasında Çovdar Filiz Emalı Sahəsi üzrə əldə etdiyimiz nailiyyətlər xüsusi yer tutur.**



# HASİLAT VƏ GEOLOJİ KƏŞFİYYAT SAHƏLƏRİNDƏ ENERJİ İSTİFADƏSİ

Əməliyyatlarımızda enerji istifadəsinin optimallaşdırılması üzrə səylərimizin bir hissəsi kimi avtomatlaşdırma və rəqəmsallaşdırma layihələrinin həyata keçirilməsi imkanlarını araşdırırıq. **2023-cü** ildə aparılmış Dünya İqtisadi Forumu tərəfindən tövsiyə edilən **Ağıllı Sənaye Hazırlıq İndeksi (SIRI) qiymətləndirilməsi** metoduna uyğun olaraq, Cəmiyyətin rəqəmsal hazırlığının qiymətləndirilməsi nəticəsində potensial təşəbbüslər müəyyən edilmişdir. Bu təşəbbüslər gələcəkdə tətbiq edildiyi halda enerji istehlakını və iqlim dəyişikliyinə təsirimizi əhəmiyyətli dərəcədə azaltmaq potensialına malikdir.

## Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinin enerji istifadəsində uğurlu təşəbbüslər

*Cəmiyyətimiz **dizel generatorlarından asılılığın azaldılması** məqsədilə Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsinin ümumi elektrik şəbəkəsinə qoşulmasını həyata keçirmişdir. Bu təşəbbüs təkcə karbon izimizi azaltmaqla qalmamış, həmçinin yerli havanın keyfiyyətinin yaxşılaşdırılmasına töhfə vermişdir. Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində elektrik enerjisinin səmərəli sərfiyyatına nəzarətin həyata keçirilməsi məqsədilə **enerjidə balans cədvəli tərtib edilib** və enerji balansı daim **nəzarətdə saxlanılır**. Bunun üçün bütün 6,3 kV və 35 kV-luq xətlərdə balans sayğacları quraşdırılmış və hər ayın yekununa görə hesabat və balans sayğacları vasitəsilə balans yoxlanılır. Əlavə olaraq, gələcəkdə 0.4 kV-luq şəbəkənin tam sayğaclaşdırılması istiqamətində işlər yekunlaşmaq üzrədir. Bundan başqa, **reaktiv enerji sərfinə nəzarət** mexanizmi tətbiq olunmuşdur.*

**Növlər üzrə ümumi yanacaq sərfiyyatı, min litr**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **“AzerGold”, o cümlədən:** | **314** | **397** | **387** |
| Stasionar mənbələrdən (dizel)[7] | 173 | 279 | 252 |
| Nəqliyyat vasitələrindən, o cümlədən:[8] | 141 | 118 | 135 |
| Dizel | 112 | 97 | 115 |
| Benzin | 29 | 21 | 20 |
| **“Daşkəsən Dəmir Filiz”, o cümlədən:** | 88 | 97 | 110 |
| Dizel | 87 | 97 | 105 |
| Benzin | 0.9 | 0.1 | 5 |
| **“AzerBlast”, o cümlədən:** | - | - | 24 |
| Dizel | - | - | 16 |
| Benzin | - | - | 8 |
| **Ümumi yanacaq sərfiyyatı** | **402** | **494** | **521** |

2022-ci ildə ÇFES-də 2 saylı elektrik hava xəttinin çəkilməsi 1 saylı elektrik hava xəttində müəyyən fasilələrin yaranmasına səbəb olmuşdur. Nəticədə, elektrik enerjisi ehtiyacını təmin etmək üçün daxili generatorlardan istifadə edilməsi **2022 və 2023-cü** illərdə stasionar mənbələr üzrə dizelin sərfiyyatında və istifadə olunan elektrik enerjisi göstəricilərində müşahidə olunan artıma səbəb olmuşdur.

[7] *Stasionar mənbələrdən elektrik enerjisi - generator və qazanxanalar vasitəsilə yaranan enerji nəzərdə tutulur. Məlumatlar ÇİRES və Köhnəmədən kəşfiyyat sahəsini əhatə edir.*

[8] *2021-2023-cü illərdə “AzerGold” üçün NV-dən yanacaq istehlakı üzrə məlumatlar ÇİRES, Köhnəmədən və Baş ofisi əhatə edir.*

**2022 və 2023-cü illərdə elektrik enerji sərfiyyatında müşahidə olunan kəskin artım bu dövr üzrə aşağıda sadalanan fəaliyyət ilə əlaqəlidir:**

- 2022-ci ilin sentyabr ayından etibarən nasos stansiyalarına elektrik enerjisinin verilməsi;
- ÇQ zavodunun inşası müddətində elektrik enerjisindən istifadə edilməsi;
- 2023-cü ilin may ayından etibarən mərhələli olaraq ÇQ zavodunda elektrik enerjisinin istehlakı.

**Ümumi elektrik sərfiyyatı, kVts**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **"AzerGold"[9], o cümlədən:** | 12,263,744 | 15,999,297 | 35,616,406 |
| Alınan elektrik enerjisi | 11,995,110 | 15,223,681 | 35,086,546 |
| Daxili istehsal olunan elektrik enerjisi[10] | 269,634 | 775,616 | 529,860 |
| **"Daşkəsən Dəmir Filiz", o cümlədən:** | 325,341 | 651,140 | 1,040,333 |
| Alınan elektrik enerjisi | 325,341 | 651,140 | 1,040,333 |
| Daxili istehsal olunan elektrik enerjisi | 0 | 0 | 0 |
| **"AzerBlast", o cümlədən:** | 0 | 0 | 72,477 |
| Alınan elektrik enerjisi | 0 | 0 | 72,477 |
| Daxili istehsal olunan elektrik enerjisi | 0 | 0 | 0 |
| **Ümumi elektrik sərfiyyatı** | **12,589,085** | **16,650,437** | **36,729,216** |

**Enerji mənbələri üzrə bir unsiya qızıla düşən intensivlik nisbəti**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **"AzerGold", o cümlədən:** | | | |
| Yanacaq istehlakının intensivlik nisbəti, litr/unsiya | 5.09 | 6.37 | 6.14 |
| Elektrik enerji istehlakının intensivlik nisbəti, kVts/unsiya | 199.29 | 257.8 | 558.92 |

*[9] 2021-2023-cü illərdə "AzerGold"un elektrik enerji sərfiyyatı üzrə məlumatlar ÇFES-i və Baş ofisi əhatə edir.*
*[10] "AzerGold" üzrə 2021-2023-cü illərdə daxili istehsal olunan elektrik enerjisi hissəsində generatorlarda (dizel yanacağı ilə) istehsal olunan enerji nəzərdə tutulur.*

# SUYUN İDARƏEDİLMƏSİ

GRI 303-1, 303-2, 303-3, 303-4, 303-5

**Təhlükəsiz suya çıxış  hər bir canlının haqqıdır və ekosistemin rifahı üçün həyati bir mənbə hesab olunur.**

Ümumdünya Resurslar İnstitutunun (“WRI”) məlumatına görə, Azərbaycan orta və yüksək su böhranı riski olan ölkələr arasında yer alır. Azərbaycan Respublikası üzrə illik sudan istifadə indeksinin 40%-dən çox olması ölkəmizin su stresi ilə üz-üzə olduğunun göstəricisidir. İqtisadiyyatın müxtəlif sahələrinin suya olan tələbatını ödəmək üçün hər il orta hesabla təxminən 10.000 milyon $m^3$ su istifadə olunur ki, bunun da 3%-i ev təsərrüfat fəaliyyətlərinə aiddir. Həmçinin ölkənin xarici mənbələrdən su asılılığı illik orta hesabla 63%-dən çox təşkil etməkdədir.

Dağ-mədən fəaliyyəti zamanı su müxtəlif məqsədlər üçün istifadə olunur: filizlərin işlənməsi, mineral ayrılması, tozun yatırılması, avadanlıqların soyudulması və təmizlik işləri kimi əməliyyatlar suya olan tələbatımızın artmasına səbəb olur.

**Bu səbəblə də su böhranı ilə üz-üzə olduğumuz bu dövrdə “AzerGold” sudan səmərəli və davamlı istifadəni həm ətraf mühitin qorunması, həm də əməliyyatların səmərəliliyini artırmaq baxımından əhəmiyyətli hesab edir.**



## CƏMİYYƏTİN FƏALİYYƏTİNDƏ SUDAN İSTİFADƏ PROSESLƏRİ

Cəmiyyətin fəaliyyət göstərdiyi ÇİRES-də su yerüstü mənbələrdən götürülərək ***istehsalat***, ***məişət-sanitar*** və ***texniki*** məqsədlərlə istifadə olunur. **2021-2022-ci illər ərzində** həm mövcud emal prosesləri, həm də digər tələbatlar üçün su **Xeyrəçaydan** təmin edilirdi.
**2023-cü ildə sınaq rejimində istismara verilən ÇQ zavodunda** çəndə qələviləşdirmə və digər istehsalat prosesləri üçün su tələbatlarını qarşılamaq üçün sahədən 8 km şimalda yerləşən Gəncə-Daşkəsən iqtisadi rayonunun ən böyük su hövzələrindən biri olan **Qoşqarçay çayından** çəkilən yeni boru kəməri vasitəsilə gətirilən xam su istifadə olunur. Çaydan götürülmüş su tutumu **650,000 m³** olan xam su anbarında saxlanılır.

Topa qələviləşdirmə prosesi, həm də “CIL” metodu üzrə aparılan proseslərdə mənbədən götürülmüş su sistemdə dövr edir. Topa qələviləşdirmə metodu üzrə həyata keçirilən proseslərdə su əsasən yaz aylarında buxarlanmanın çox olmasına görə hovuzlara əlavə edilmək üçün istifadə edilir.

## SUYUN İDARƏEDİLMƏSİ ÜZRƏ TƏDBİRLƏR

“AzerGold” öz fəaliyyəti çərçivəsində istifadə etdiyi su resurslarına maksimal dərəcədə məsuliyyət ilə yanaşır. Suyun istifadəsi zamanı Cəmiyyətimiz tərəfindən tətbiq olunan yanaşmamızın iki əsas əhatə dairəsi vardır:

- ✓ **Mənbəyə nəzarət tədbirləri:** Layihə ərazisində və ətraf ərazilərdə su mənbələrini fəaliyyət sahələrində əmələ gələn çirkləndiricilər və zərərli maddələrdən mühafizə etmək üçün layihə sahələrində aşağıdakı qabaqlayıcı və düzəldici tədbirlər görülür.

- ✓ **Sudan istifadəyə qənaət tədbirləri:** Layihə çərçivəsində əsas suya olan ehtiyaclar çaylardan qarşılandığı üçün sudan istifadəyə qənaət tədbirləri görülür.

**“AzerGold” üçün (ÇFES) 2023-cü il üzrə su balansı, min kubmetr**



# Mənbəyə nəzarət tədbirləri

## Mühəndis nəzarəti

- Kimyəvi məhlulların ətraf mühitə sızmasının qarşısını almaq üçün sianidli məhlulların saxlanması obyektlərinin (sianid hovuzları, topa qələviləşdirmə sahələrinin hovuzları, nəm tullantı anbarı və s.) tikintisi zamanı standartlara uyğun ***izolyasiya materialları*** istifadə edilmişdir. Həmin izolyasiya qatında çatları aşkar etmək üçün beynəlxalq akkreditasiya edilmiş şirkət tərəfindən "***spark test***" ilə yoxlama həyata keçirilir.

- **Kimyəvi məhlulların saxlanılması çənlərində** beynəlxalq akkreditasiya olunmuş şirkət tərəfindən il ərzində ***test və təmir-bərpa xidmətləri*** həyata keçirilir. Əlavə mühəndislik tədbiri olaraq çənlərin altı sızıntının qarşısını almaq üçün 50-60 sm qalınlığında **beton təbəqə** ilə örtülmüşdür.

- Qəza dağılmaları zamanı dərhal ətraf mühitə sızmaların və təsirlərin aradan qaldırılması məqsədilə emal əraziləri sızma əleyhinə ***xüsusi dəstlər ("spill kit")*** ilə təmin edilmişdir.
  Sianid hovuzlarında mütəmadi olaraq ***su səviyyələrinin nəzarəti*** və qeydiyyatı aparılır və su səviyyəsinin yüksək olduğu hallarda xüsusi ehtiyat hovuzlarına suyun geri vurulması təmin edilir.

## Administrativ nəzarət

- Həm Çovdar İnteqraedilmiş Regional Emal Sahəsində, həm də layihənin potensial təsir ərazilərində suyun keyfiyyətinə nəzarət və çirklənmələrin aşkarlanması məqsədilə daxili ekoloji monitorinq proqramına uyğun olaraq, həssas zonalardan ***su nümunələri götürülür*** və ÇİRES-də yerləşən beynəlxalq akkreditasiya edilmiş laboratoriya tərəfindən ***analizlər*** mütəmadi olaraq aparılır.

- Qəza halları zamanı ətraf mühitə təsirlərin dərhal aradan qaldırılması və ya azaldılması məqsədilə ***Qəzaların Lağvi Planları*** tərtib edilmişdir. İşçi heyətin qəzalar zamanı məsuliyyətləri və görüləcək tədbirlər haqqında biliyinin təmin edilməsi məqsədilə ***məşq-təlim*** həyata keçirilmişdir.

- Su nümunələrinin götürülməsində standart və qanunvericiliyin tələblərinin nəzərə alınması və analiz nəticələrindəki xəta payını minimuma endirmək məqsədilə Cəmiyyət tərəfindən ***"Çovdar filiz emalı sahəsində torpaq və su nümunələrinin götürülməsinə dair iş təlimatı"*** tərtib edilmişdir.



## Sudan istifadəyə qənaət tədbirləri

- 2023-cü ildən etibarən Cəmiyyət tərəfindən podratçı şirkətlərə sudan qənaət edilməsi məqsədilə təkmilləşdirici təkliflər verilmişdir. Podratçı şirkət tərəfindən toz yatırma məqsədilə istifadə edilən $1m^3$ suya 300 qram xüsusi bioloji parçalana bilən kimyəvi maddə - (MINE-Treat®1321) məhlulun əlavə edilməsi, 5km uzunluğunda mədən yollarında gün ərzində 8 dəfə texniki suyla aparılan nəmləndirmə işlərində **8.4 dəfə suya qənaət** etməyə imkan yaratmışdır.

- Cəmiyyətin suya qənaət siyasətinin əsas göstəricilərindən biri də istehsalatda istifadə olunan sianidli suyun yenidən hovuzlara göndərilərək **təkrar dövriyyədə istifadə** edilməsidir. Eyni zamanda elektroliz prosesində aparılmış **optimallaşdırma** nəticəsində 2023-cü ildə istehsalatda su istehlakında azalma nəticəsi əldə edilmişdir.

- Çovdar İnteqrəedilmiş Regional Emal Sahəsi 3 ədəd (1 ədəd podratçı şirkətə aid) tullantı su təmizləmə qurğuları ilə təmin edilmişdir ki, bu da layihə çərçivəsində təmizlənmiş suyu texniki su kimi **yenidən istifadə** etməklə su istehlakının azaldılmasına kömək edir.

# QANUNVERİCİLİYİN TƏLƏBLƏRİNƏ DAİR İCAZƏ VƏ RƏYLƏRİN ALINMASI

“AzerGold” təbii su resurslarının düzgün və səmərəli idarəolunmasını yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimləyir. Həmin tələblər arasında su qanunvericiliyi və ətraf mühitin mühafizəsi haqqında qanunvericilik, su ehtiyatlarının və su obyektlərinin qorunması sahəsində hüquqi normalar kompleksinin tətbiqi nəzərdə tutulur. Bundan əlavə, hökumət su obyektlərinin mühafizəsi, istismarı və dövlət nəzarəti sahəsində qaydaları müəyyən edən bir sıra qərarlar qəbul etmişdir.

## Sudan istifadəyə dair cari icazə və ödənişlər

Su Məcəlləsinin 98-ci maddəsində göstərilir ki, suyun keyfiyyətindən, məqsədindən (içməli su, suvarma suyu və s.), su təsərrüfatı obyektinin texniki fəaliyyətindən, suyun daşınması və mənimsənilməsi üsullarından və istehsal xərclərinə təsir edən digər amillərdən asılı olaraq, sudan istifadə haqları su təsərrüfatı sistemlərinin xüsusiyyətlərinə müvafiq olaraq fərqlənir. Cəmiyyət layihələr çərçivəsində çay hövzələrindən istifadəyə dair təbii ehtiyatlardan yararlanma üzrə ödəniş və su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə icazəni təmin edir.

“AzerGold” tərəfindən istifadə edilən su Çovdar Filiz Emalı Sahəsi (ÇFES) üzrə Çovdar, Ağyoxuş, Mərəh yataqları üçün təqdim edilib. Podratçı tərəfindən verilən miqdarlar yalnız Çovdar yatağında fəaliyyət göstərən podratçılara aiddir.

**Ümumi su sərfiyyatı, min kubmetr**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **"AzerGold" , o cümlədən:**[11] | 70.41 | 91.7 | 68.76 |
| Yeraltı mənbələrdən | 0 | 0 | 0 |
| Yerüstü mənbələrdən[12] | 70.41 | 91.7 | 68.76 |
| **"Daşkəsən Dəmir Filiz", o cümlədən:** | 0.5 | 0.7 | 1.5 |
| Yeraltı mənbələrdən | 0.5 | 0.7 | 1.5 |
| Yerüstü mənbələrdən | 0 | 0 | 0 |
| **"AzerBlast", o cümlədən:** | - | - | 0.03 |
| Yeraltı mənbələrdən | - | - | 0.03 |
| Yerüstü mənbələrdən | - | - | 0 |
| **Ümumi su sərfiyyatı** | 70.91 | 92.4 | 70.29 |

***2023-cü ildə şirin su istifadəsinin azalması** aşağıdakı tədbirlərlə bağlıdır:*

- ✓ *Yolların sulanması üçün suyun istifadəsinə qənaət edən su çiləyicilərin quraşdırılması;*
- ✓ *Proseslərin optimallaşdırılması (məs.: elektroliz prosesinin müddətinin azalması).*

[11] *Su sərfiyyatı ÇFES üçün qeyd edilir.*

[12] *ÇFES-də təmiz su çaydan götürülür.*

## Su mühafizəsi ilə bağlı gələcək planlarımız



Optimizasiya işləri apararaq ÇQ metodu üzrə xam su anbarında saatbaşı istifadə olunan suyun həcminin **25 $m^3$-ə qədər azaldılması**

Sızma hadisələrinin vaxtında aşkarlanması məqsədilə mədənin müvafiq yerlərində **yeni hidrogeoloji monitorinq quyularının qazılması**

Hovuzlar və digər **membranla örtülü qurğuların** üçüncü tərəflə bağlanmış Müqavilə üzrə **monitorinqinin aylıq olaraq yerinə yetirilməsi**

# TULLANTILARIN İDARƏ OLUNMASI

GRI 306-1, 306-2, 306-3, 306-4, 306-5

Ətraf mühit və insan sağlamlığının qorunması üçün “AzerGold” fəaliyyəti zamanı yaranan tullantıların məsuliyyətli və effektiv şəkildə idarəolunması üzrə geniş tədbirlər görməlidir. Bunu nəzərə alaraq, “AzerGold” tullantıların idarəolunmasına xüsusi diqqət yetirməklə, ən qabaqcıl təcrübələri tətbiq etməyə sadiqdir. Şirkət tullantıların idarəolunması üzrə bütün müvafiq yerli və beynəlxalq standartlara və çərçivələrə uyğunluğu təmin edir.

“AzerGold”un fəaliyyət sahələrində formalaşan tullantıların idarəolunması ***Tullantıların İdarəolunması Proseduruna, “Tullantılar Haqqında” AR qanununa və Birləşmiş Millətlər Təşkilatının “Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiyası”na*** uyğun olaraq həyata keçirilir və mütəmadi nəzarət olunur.

**Tullantıların çeşidlənməsinə, təhlükəli tullantıların ətraf mühitə zərər vermədən utilizasiya edilməsinə və təhlükəsiz tullantıların mümkün qədər təkrar emala cəlb edilməsinə xüsusi önəm verilir. Bu məqsədlə Cəmiyyət tullantıların utilizasiyası və təkrar emalını həyata keçirən şirkətlərlə əməkdaşlıq edir.**



***2023-cü ildə tullantıların idarəedilməsində səmərəliliyin artırılması məqsədilə Tullantıların İdarəolunması üzrə Komissiya yaradılmışdır və Komissiya tərəfindən bu sahədə səmərəliləşdirici təkliflərin icra edilməsinə dair Tədbirlər Planı hazırlanmışdır.*** Tədbirlər Planına uyğun olaraq, Çovdar Filiz Emalı Sahəsində formalaşan müxtəlif növ tullantıların təkrar istifadəsi və ya satışının məqsədəuyğunluğunun qiymətləndirilməsi məqsədilə tullantıların çeşidlənməsi üzrə işlər aparılmışdır. Təkrar istifadə və ya emal üçün yararlı olan tullantıların çeşidlənib ayrı toplanması həyata keçirilmiş və şirkətlərə satılması nəzərdə tutulmuşdur.

**Mədən işlərinin müxtəlif mərhələlərində (hasilatı, emalı və nəqliyyatı zamanı) formalaşan əsas tullantı növləri**



| 1 | 2 | 3 |
|---|---|---|
| Boş süxur | Emal nəticəsində əmələ gələn tullantılar (nəm tullantılar) | Təhlükəli istehsalat və təhlükəsiz (məişət) tullantıları |

# BOŞ SÜXURLARIN İDARƏEDİLMƏSİ

**Boş süxurlar** mədən partlatmasından sonra meydana gələn iqtisadi cəhətdən emalı və satışı səmərəsiz olan aşağı qızıl dərəcəli filizlərdir. Çovdar, Ağyoxuş və Tülallar mədən layihələrində əmələ gələn boş süxurlar mütəmadi nəzarət edilməklə tullantı anbarında saxlanılır və ehtiyac olduğu təqdirdə, sahədə aparılan abadlıq işlərində istifadə edilir və ya iqtisadi səmərəli olacağı barədə qərar verildiyi halda emala cəlb edilir.

## Boş süxurların səmərəli istifadəsi

Boş süxurlar hesabat dövrü ərzində NTA-nın bəndinin tikintisində və digər tikinti-bərpa işləri məqsədilə dolğu materialı kimi istifadə edilmişdir. Həmçinin boş süxurların bir hissəsinin istismarı bitmiş mədən karxanalarının bağlanması mərhələsində dolğu materialı kimi təkrar istifadə edilməsi nəzərdə tutulmuşdur.

## Sulfidli süxurlardan turşulu suların ətraf mühitə zərərinin neytrallaşdırılması

Boş süxurların tərkibinin sulfidlə zəngin olması səbəbindən atmosfer çöküntülərinin təsiri nəticəsində formalaşan turşulu suların ətraf mühitə təsiri önəmli məsələlərdən biridir. Çovdar layihəsində sulfidli süxurlardan turşulu suların ətraf mühitə zərər vermədən axıdılması məqsədilə müvafiq layihələndirmə və tikinti işləri həyata keçirilmişdir. Axıntıların neytrallaşdırılması üçün əsas metod suyun oksidləşməsinin və sızmasının qarşısını almaqdır. Bu məqsədlə anbarın üzərinə gil təbəqəsi, anbarın altında axıntıların tutulması və istiqamətləndirilməsi üçün drenaj vasitələri quraşdırılmış və turşulu suların Danayer çayına birləşmədən əvvəl neytrallaşdırılmasını təmin etmək üçün drenaj kanallarının dibində əhəng daşları yerləşdirilmişdir.

Əlavə olaraq, ətraf mühitə nəzarətin saxlanılması və təsirlərin aradan qaldırılması üçün Danayer çayından və ətrafda həssas su məntəqələrindən mütəmadi olaraq su nümunələri götürülərək laborator analizlər həyata keçirilir.

# NƏM TULLANTILARIN İDARƏEDİLMƏSİ

***Karbon aşındırma üsulu ilə emal nəticəsində əmələ gələn tullantılar (tullantı süxurlar) Nəm Tullantı Anbarında (NTA) saxlanılır.*** Mövcud NTA Azərbaycan Respublikasının qanunvericilik tələblərinə uyğun tikilmişdir və SƏTƏM qaydalarına ciddi şəkildə riayət edilməklə istifadə edilir. NTA-dan çıxan su təkrar istifadə üçün texnoloji prosesə qaytarılır.

Eyni zamanda qəza vəziyyətinə hazırlıq tədbiri olaraq, NTA-dan sızmaların ətraf mühitə qarışdığı halda məhlul su ilə qarışaraq sianidin konsentrasiyasının norma daxilində olmasının təmin edilməsi məqsədilə emal prosesindən çıxan tullantı filizlərin detoksifikasiyası aparılır və anbara daxil olan pulpada “WAD” sianid (“Weak Acid Dissociable” – zəif turşuluqda ayrılan) parametrinin səviyyəsinin 50 ppm-dən aşağı saxlanılması təmin edilir. “ICMC”-yə əsasən, açıq hovuz və qurğularda saxlanılan məhlulda “WAD” sianid konsentrasiyası 50 ppm-dən aşağı olduğu halda vəhşi heyvan və quşlardan xüsusi mühafizəyə ehtiyac olmasa da NTA-nın ətrafı kənardan insan və mal-qaranın girişinin qarşısının alınması üçün hasarlanmışdır.

## NTA-ya nəzarət aşağıdakı qaydada həyata keçirilir:

**Layihələndirilmə**

Təhlükəli maddələrlə çirklənmiş tullantı süxurlardan ətraf mühitə zərərli sızmaların qarşısının alınması məqsədilə NTA gilli xalça və yüksək sıxlıqlı polietilen izolyasiya qatı ilə izolə edilmişdir.

**Monitorinq sistemi**

**1.** Anbarın drenaj çıxışında sianidin konsentrasiyasının nəzarətdə saxlanılması üçün eyni zamanda müxtəlif həssas zonalardan **həftəlik su nümunələri götürülür** və akkreditasiya olunmuş, lisenziyalı beynəlxalq laboratoriya tərəfindən analiz edilir.

**2.** Əlavə olaraq, NTA sahəsində **mövcud vəziyyətin monitorinqi** ilə bağlı cəlb edilmiş beynəlxalq şirkət tərəfindən monitorinqlərin aparılması üçün əlavə tövsiyə edilmiş NTA ətrafında mütəmadi qaydada əlavə **hidroloji quyulardan** nümunələr götürülür

**Daxili yoxlamalar**

Texniki heyət tərəfindən gündəlik olaraq **vizual müşahidələr aparılır**, göstəricilərə və geomembran qatının tamlığına nəzarət edilir.

**Üçüncü tərəfin yoxlaması**

NTA sahəsinin və geomembran izolyasiya qatının **mövcud vəziyyətinin monitorinqi** ilə bağlı beynəlxalq şirkət cəlb edilmiş və **1 (bir) il ərzində hər ay monitorinq işləri** aparılaraq hesabatlılıq təmin edilməkdədir. NTA-nın cari vəziyyətinin qiymətləndirilməsi, qəzaların qarşısının alınması, həmçinin optimizasiya imkanlarının dəyərləndirilməsi üçün ekspert qismində peşəkar xarici şirkətlər cəlb edilir, məlumat mübadilələrinin aparılması üçün səfərlər təşkil edilir.

# İSTEHSALAT VƏ ÜMUMİ TULLANTILAR

2021-2023-cü illərdə "AzerGold"da formalaşan tullantılar zərərsizləşdirilməsi məqsədilə aidiyyəti şirkətlərə təhvil verilmişdir. Təhvil verilmiş tullantılarla bağlı məlumat aşağıdakı cədvəllərdə göstərilmişdir:

**Əmələ gəlmiş təhlükəli və təhlükəsiz tullantılar**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **Təhlükəsiz tullantı növləri, o cümlədən:** | | | |
| **"AzerGold"** | | | |
| Bərk məişət tullantıları, kub metr | 477.00 | 442.00 | 374.20 |
| İstehsalat tullantıları, kub metr | - | 920.00 | - |
| **Podratçı şirkətlər** | | | |
| Bərk məişət tullantıları, kub metr | 427.39 | 421.70 | 1,459.50 |
| **Təhlükəli tullantı növləri, o cümlədən:** | | | |
| **"AzerGold"** | | | |
| Bərk təhlükəli tullantılar, ton | 54.30 | 60.81 | 31.51 |
| Təhlükəli mayelər, ton | 1.90 | 3.00 | 1.48 |
| **Podratçı şirkətlər** | | | |
| Bərk təhlükəli tullantılar, kub metr | 58.80 | 87.10 | 74.50 |
| Təhlükəli mayelər, litr | 34,990 | 20,816 | 34,830 |

**Əmələ gəlmiş çirkab sularının həcmi, min kub metr**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **Əmələ gəlmiş ümumi çirkab suları** [13] | 5.45 | 10.73 | 20.17 |
| "AzerGold" | 4.43 | 7.69 | 7.69 |
| Podradçı şirkətlər | 1.02 | 3.04 | 12.48 |

2023-cü il ərzində ÇFES-də tikinti işlərinin aparılması (ÇQ zavodu, NTA, ARD drenaj layihəsi) üçün bir neçə podratçı şirkətin inzibati düşərgələrinin qurulması və istismarı səbəbindən çirkab suların həcmi artmışdır.

**Təmizləndikdən sonra axıdılmış və təhvil verilən çirkab sularının həcmi, min kub metr**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Təmizləndikdən sonra axıdılmış çirkab sularının həcmi | 1.40 | 6.51 | 5.51 |
| Təmizlənmədən utilizasiya üçün kənar şirkətə təhvil verilən suyun həcmi | 3.03 | 1.24 | 2.28 |

**2021-ci ildə çirkab sularının təmizlənməsi qurğusunun istismara verilməsi** təmizlənmiş suyun texniki məqsədlə istifadəsinə və ya sahədə axıdılmasına imkan yaratmış və bununla da 2021-ci il ilə müqayisədə 2022-ci ildə sahədə formalaşmış çirkab suları podratçı şirkət tərəfindən daha az daşınmışdır.

Eyni zamanda 2021-ci il ərzində Ağyoxuş layihəsinin inzibati ərazisindən də çirkab sularının daşınmasını nəzərə alaraq, 2022-ci ildə kənar şirkətə təhvil verilən çirkab sularının azalması həmçinin **yatağın istismarının 2021-ci ildə yekunlaşması** ilə əlaqədardır.

Məişətdə formalaşan lakin təmizlənməmiş maye formalı tullantıların (çirkab suları) ətraf mühitə axıdılmasına yol verilməməsi məqsədilə tullantılar lisenziyalı şirkət tərəfindən sahələrdən daşınaraq utilizasiya üçün aidiyyəti üzrə təhvil verilir.

[13] *2021-2023-cü illərdə əmələ gəlmiş çirkab sularının həcmi* "AzerGold" *üzrə Çovdar, Ağyoxuş 1, Mərəh və Köhnəmədən, podradçı şirkətlər üzrə isə Çovdar, Ağyoxuş 1, Mərəh və Tülallar yataqları üçün təqdim olunub.*

**Digər təşkilatlara ötürülmüş bərk tullantılar**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Təhlükəli tullantılar, ton | 50.3 | 55.97 | 23.66 |
| **Təhlükəsiz tullantılar, o cümlədən:** | | | |
| Satılmış metal tullantıları, ton | 183.7 | - | - |
| Bərk məişət tullantıları, kub metr | 477 | 442 | 374.2 |

2023-cü ildə təsdiqlənmiş ***Tullantıların idarəolunması üzrə səmərəliləşdirici təkliflərin icra edilməsinə dair Tədbirlər Planının*** icrası çərçivəsində formalaşmış müxtəlif növ təhlükəli tullantıların (plastik borular, akkumulyator və digər) təkrar emal üçün satışının həyata keçirilməsi məqsədilə tullantılar sahədə çeşidlənmiş və sahədə saxlanılmışdır. Bu səbəbdən 2023-cü il ərzində aidiyyəti şirkətə zərərsizləşdirilməsi (basdırılması) məqsədilə təhvil verilən tullantıların həcmi 2022-ci il ilə müqayisədə azalmışdır.

# MAARİFLƏNDİRMƏ TƏŞƏBBÜSLƏRİ

Sahələrdə formalaşan tullantıların idarəolunması üzrə “AzerGold”un və podratçı şirkətlərin işçiləri üçün mütəmadi olaraq təlimatlandırma və maarifləndirici söhbətlər aparılır. Hesabat dövrü ərzində “Tullantıların idarəolunması”, “Ekoloji aspektlərin idarəolunması”, “Ekologiya və ətraf mühitin mühafizəsi”, “Mədən sənayesində ətraf mühitə təsirlərin idarəolunması” və “Ətraf mühitin mühafizəsi haqqında qanunvericilik və normativ sənədlərin tələbi” mövzularında Cəmiyyətin və podratçı, subpodratçı şirkətlərin mühəndis-texniki işçilərinə təlimlər keçirilmişdir.

# TORPAQLARDAN İSTİFADƏ VƏ MÜHAFİZƏ

Təbii ehtiyatların çıxarılmasının birbaşa torpaq qatında aparılan proseslərlə əlaqəli olduğunu nəzərə alaraq, “AzerGold” mədən fəaliyyətinin həyata keçirildiyi sahələrdə torpaqdan istifadə tətbiqlərinə diqqətlə yanaşır və torpaq münbitliyinin mühafizəsini layihənin planlaşdırılması mərhələsindən başlayaraq bütün icra mərhələləri üzrə nəzarət altında saxlayır.

**“AzerGold” olaraq mədən fəaliyyətlərimizin torpaq qatı üzərində təsirlərinin minimallaşdırılması yönündə qəbul etdiyimiz tədbirlər planını torpaqdan məsuliyyətli istifadə yanaşmamızın təcəssümü hesab edirik.**



## Torpaqlardan istifadə səmərəliliyinin artırılması tədbirləri

### Torpaq istifadəsi rəy və icazələrinin alınması

- Həyata keçirilməsi planlaşdırılan layihələrin ***texniki iqtisadi əsaslandırılması***
- Ətraf mühitə təsirlərin qiymətləndirilməsi aparılaraq ***ƏMTQ sənədinin hazırlanması***
- ƏMTQ sənədinin rəy verilməsi üçün ***Dövlət Ekoloji Ekspertiza Agentliyinə təqdim edilməsi*** və müsbət rəy ilə icraya başlanılması

### Mədən layihələrinin təsirinin minimallaşdırılması

- Filiz kütləsinin səthə yaxınlığına əsasən ətraf mühitə ən az təsir göstərən ***alternativin müəyyənləşdirilməsi*** (şaxta, açıq üsul və s.)
- ***Fəaliyyət ərazilərinin məhdudlaşdırılması*** və texnikaların xüsusi ayrılmış yollardan və meydançalardan kənarda hərəkətinə yol verilməməsi

### Münbit torpaq qatının qorunması

- Layihə obyektləri altına düşən ərazilərdən ***torpağın üst münbit qatının götürülməsi***
- Götürülmüş torpağın digər layihələr tərəfindən pozulmuş ***torpaqların bərpasında istifadəsi*** və ya ***anbarlaşdırılması***
- Anbarlaşdırılmış münbit torpağın münbitliyinin qorunması məqsədilə ***ildə iki dəfə torpağın çevrilməsi*** ilə oksigen mübadiləsinin təmin edilməsi

Qrafikdə Çovdar, Mərəh, Ağyoxuş 1, Ağyoxuş 2 və Tülallar layihələri üzrə toplam torpaq sahələri qeyd edilir.

**Ümumi torpaq sahəsi, hektar**



# MƏDƏNLƏRİN BAĞLANMASI VƏ İSTİSMARDAN ÇIXARILMASI

GRI 14-8

Mədən yataqlarından hasil edilən təbii potensial ehtiyatların məhdud həcmə malik olması yataqda aparılan əməliyyatların müəyyən bir müddət davam etdikdən sonra dayandırılmasına səbəb olur. Belə ki, bir çox hallarda açıq qazma işlərinin aparıldığı mədən sahələrində, hətta mədənin bağlanmasından sonra belə qalıcı ekoloji təsirlər müşahidə edilir. Bu mənfi nəticələrə məhsuldar torpaqların pozularaq sıradan çıxması və landşaftlarda baş verən dəyişikliklər, eroziya proseslərinin inkişafı, həmçinin məhsuldar olmayan və hətta zərərli süxurların yer səthinə çıxarılması və s. daxildir. Həmçinin faydalı qazıntıların istismarı prosesində ətraf mühitə mənfi təsir göstərən texnogen ərazilər – emal tullantılarının, boş süxurların toplanma sahələri və digər pozulmuş ərazilər yaranır.

Nəticədə, “AzerGold” tərəfindən yataq ərazilərinin reabilitasiyası prosesinin standartlara uyğun şəkildə həyata keçirilməsi nəinki qanunvericiliklə uyğunlaşmanın təmin edilməsi, həm də fəaliyyətlərimizin səbəb olduğu ekoloji, sosial və təhlükəsizlik təsirlərinin idarəolunması üçün əhəmiyyətlidir.

İstismarı bitmiş mədən sahələrinin torpaqdan istifadə imkanlarının və ***icma tərəfindən istifadəyə keçid prosesinin optimallaşdırılması üzrə tədbirlər planının hazırlanması*** və icrası məsuliyyətlərimiz siyahısında ilk sıralarda öz yerini tutur.

## Mədənlərdə rekultivasiya prosesi

Faydalı qazıntı yataqlarının istismarı zamanı pozulmuş torpaqların məhsuldarlığını bərpa etmək və ətraf mühitin şəraitini yaxşılaşdırmaq məqsədilə “AzerGold” rekultivasiya proseduruna daxil olan kompleks tədbirlər sistemini həyata keçirir. Bu tətbiq nəticəsində faydalı qazıntı yatağının istismarı başa çatdıqdan sonra aparılmış işlər nəticəsində müxtəlif mənfi təsirlərə məruz qalmış və öz təbii xassələrini, strukturunu tam və ya qismən itirərək pozulmuş torpaqlar təkrar münbit vəziyyətə gətirilir.

“Ağyoxuş-1” yatağında 2020-ci ildən istismar işlərinə başlanılmışdır və hasilat işləri 2021-ci ilin dekabr ayına kimi davam etmişdir. **2022-ci ildə** istehsalat, əməliyyat, hasilat və fəaliyyətinin digər istiqamətlərində hər zaman ətraf mühitin mühafizəsi məsələlərini prioritet tutan “AzerGold” ***“Ağyoxuş-1” yatağında ölkənin dağ-mədən sahəsində istismarı tamamlanmış qızıl mədəni ərazisi üzrə ilk rekultivasiya layihəsinə başlamışdır***.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən yataq üzrə təsdiqlənmiş rekultivasiya planının birinci mərhələsi çərçivəsində tədbirlər görülmüşdür.

Aşağıdakı göstəricilər "Ağyoxuş-1" yatağının rekultivasiyası nəticəsində tullantı süxur anbarının hər iki fazası üzrə reabilitasiya olunmuş sahələrin parametrlərini əks etdirir:

**Mədənin boş süxur anbarı ərazisində əvvəlcə texniki rekultivasiya işlərinin icra edilməsi**

**Ərazinin münbit torpaq qatının bərpa olunması**

**Yamacbərkitmə və səth axınlarının idarəolunması məqsədilə yamaclarda terrasların yaradılması**

**"Ağyoxuş-1" Rekultivasiya Layihəsi**

### Ağyoxuş Rekultivasiya Layihəsi

"Ağyoxuş-1" yatağının rekultivasiyası layihəsi "AzerGold" tərəfindən icrasına başlanan ilk uğurlu rekultivasiya layihəmiz hesab olunur. Reabilitasiya işləri zamanı ***6400 m³ gilcə qatı, 3600 m³ münbit torpaq*** verilmişdir. Ətraf kəndlərdən ***700 m³ gübrə daşınaraq münbit torpaqla qarışdırılmış***, daha sonra yamaclara 30 sm qalınlığında sərilmişdir. Həmçinin ümumi ***ərazidə münbit torpaq ilə 200 kq yabanı yonca toxumu*** qarışdırılmışdır.





**Mərhələ 1**
- Cənub-qərb yamacı – 8010 m$^2$,
- Şərq yamacı – 2025 m$^2$,
- Şimal-şərq yamacı – 2885 m$^2$
- Üst səth – 4486 m$^2$



**Mərhələ 2**
- Cənub yamacı – 10470 m$^2$
- Üst səth – 4060 m$^2$

Ümumi olaraq, ***31936 m² sahədə reabilitasiya işləri aparılmışdır***. Əlavə olaraq, münbit torpaq qatı bərpa edilən ərazidə **600 ədəd Eldar şamı** və **10 kiloqram qoz** toxumu əkilmiş, ağac və bitki toxumlarına aqrotexniki qulluq göstərilməklə ərazinin əvvəlki təbii vəziyyətinə adaptasiyası yönündə təşəbbüslər göstərilmişdir.

**Pozulmuş və rekultivasiya olunmuş torpaqların ümumi sahəsi, hektar**

| Göstəricilər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| **Pozulmuş torpaqların ümumi sahəsi, o cümlədən:** | 123.52 | 121.57 | 269.37 |
| - Mədən sahəsi | 25.51 | 42.07 | 35.89 |
| - Boş süxur anbarları | 27.21 | 40.77 | 72.38 |
| - Topa qələviləşdirmə sahələri | 28.93 | 33.53 | 44.53 |
| - NTA sahəsi | 0 | 0 | 59.44 |
| - ÇQ zavodu sahəsi | 0 | 0 | 0.53 |
| - İnzibati ərazi | 5.2 | 5.2 | 3.08 |
| - Tikinti altında olan ərazilər və digər | 36.61 | 0 | 53.52 |
| **Rekultivasiya olunmuş torpaqlar** | 0 | 4.65 | 0 |

## Gələcək planlarımız

Mədənlərin məsuliyyətlə bağlanması və reabilitasiyasına sadiq olaraq, biz yerli qanunvericilik və beynəlxalq standartlara uyğun olaraq və ən yaxşı təcrübələrə əsaslanaraq hərtərəfli mədənlərin bağlanması planlarını hazırlamaq niyyətindəyik. Ətraf mühitə və sosial sahəyə təsirin təfərrüatlı qiymətləndirilməsi torpağın sabit və məhsuldar vəziyyətə gətirilməsini təmin edərək, reabilitasiya səylərini istiqamətləndirəcək. Yerli icmalarla əlaqə onların töhfələrini daxil etmək və bağlanma fəaliyyətlərinin uzunmüddətli davamlılığı və icma rifahını dəstəkləmək üçün prioritet olacaq. Məqsədimiz müsbət miras buraxmaq və mədən əməliyyatlarımızın ətraf mühitə təsirini minimuma endirməkdir.

# BİOMÜXTƏLİFLİYİN MÜHAFİZƏSİ

GRI 304-1, 304-2

Dağ-mədən layihələrinin icrası ilə əlaqədar canlıların yaşadığı arealda texnogen landşaft formalaşır. Bu zaman həm bitki qatının götürülməsi zərurəti, həm də ərazidə yaşayan fauna növlərinin ərazidən kənarlaşması və ya fəaliyyətlər zamanı təsirə məruz qalması riski yaranır. Bitki qatının götürülməsi ilə əlaqədar təsirləri kompensasiya etmək üçün fəaliyyət dövründə mütəmadi olaraq ağacəkmə aksiyaları həyata keçirilir. Bundan əlavə, istismar işləri başa çatdıqdan sonra ərazinin əvvəlki təbii şəraitinin bərpa olunması (və ya mümkün ən yaxşı təbii şəraitin yaradılması) nəzərdə tutulmuşdur. Rekultivasiya layihəsi əvvəlcədən hazırlanaraq icra ediləcəkdir.

“AzerGold” tərəfindən ən optimal rekultivasiya layihəsinin mədənçilik fəaliyyətinin son illərində təhvil verilməsi planlaşdırılır. “Ağyoxuş 1” layihəsinin yekunlaşması və təmir işlərinin bitməsindən sonra 2021-ci ildə təsdiq edilmiş “Ağyoxuş” Qızıl Yatağının Rekultivasiya İşlərinin Layihə Planına uyğun olaraq hazırlıq, texniki və bioloji olmaqla 3 mərhələ müəyyənləşdirilmişdir. Hesabat dövrü ərzində rekultivasiya işlərinin ilk mərhələsi olan hazırlıq mərhələsi başa çatdırılmışdır. Birinci mərhələ diaqnostik yanaşmanı özündə ehtiva edərək ərazilərin müayinəsi, rekultivasiya istiqamətinin müəyyən edilməsi və texniki-iqtisadi əsaslandırma kimi proseslərin tətbiqindən ibarətdir.

Rekultivasiyanın ilk mərhələsində münbit torpaq qatı bərpa edilən ərazidə **600 ədəd Eldar şamı** və **10 kiloqram qoz** toxumu əkilmiş, ağac və bitki toxumlarına aqrotexniki qulluq göstərilməklə ərazinin əvvəlki təbii vəziyyətinə adaptasiyası yönündə təşəbbüslər göstərilmişdir. Digər iki mərhələnin yaxın gələcəkdə həyata keçirilməsi planlaşdırılır.



**Biomüxtəlifliyin mühafizəsi**

Fauna növlərinin təsirə məruz qalmasının (xəsarət alması və ya tələf olmasının) qarşısının alınması məqsədilə fəaliyyət ərazilərinin çəpərlənməsi təmin edilir. Quşların və sürünənlərin əraziyə yaxınlaşmasının qarşısının alınması üçün xüsusi qovucu vasitələrdən istifadə edilir. Qeyd edilən vasitələrin təsir dairəsi yalnız fəaliyyət ərazisini əhatə edir. Fəaliyyət ərazisi daxilində yalnız layihə altına düşən yaşıllıqlar götürülür. Zərurət olmadıqda yaşıllıqların zədələnməsinə, qırılmasına yol verilmir.

**Yaşıllıqların bərpası**

Təsirə məruz qalmış yaşıllıqların kompensasiyası məqsədilə periodik olaraq yaşıllaşdırma aksiyaları keçirilir. Cəmiyyətin fəaliyyətə başladığı dövrdən indiyədək fəaliyyət ərazisi daxilində və eyni zamanda ətraf meşə ərazilərində on beş mindən artıq ağac və kol bitkiləri əkilmişdir.

**Monitorinq**

Layihə təsirlərinin nəzarətdə saxlanılması və planlaşdırılmayan təsirlərin aşkarlanaraq qarşısının alınması məqsədilə monitorinq işləri həyata keçirilir. Monitorinqlər biomüxtəliflik, hava, su və torpaq mühitlərini əhatə edir. Monitorinqlər zamanı gözlənilən təsirlərdən əlavə hər hansı təsirlər aşkarlanarsa, mənbə müəyyənləşdirilərək təsirin qarşısının alınması istiqamətində tədbirlər görülür.

Nəsli kəsilmə riski səviyyəsinə görə "AzerGold"un fəaliyyətindən təsirlənən ərazilərdə Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyinin ("IUCN") Qırmızı Siyahısına və Milli mühafizə siyahısına daxil edilmiş növlərin ümumi sayı aşağıdakı cədvəldə təqdim olunmuşdur. Məlumatlar "Çovdar", "Mərəh", "Ağyoxuş" və "Tülallar" yataqları üzrə aparılmış Ətraf Mühitin İlkin Vəziyyətinin Qiymətləndirilməsi ("EBS") layihəsi əsasında müəyyən edilmişdir.

**Nəsli kəsilməkdə olan növlər (Çovdar, Ağyoxuş və Tülallar layihələri üzrə)**

| Nəsli kəsilməkdə olan növlər | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Kritik təhlükə altında olan | 0 | 0 | 0 |
| Nəsli kəsilməkdə olan | 9 | 9 | 9 |
| Həssas | 2 | 2 | 2 |
| Nəsli kəsilməyə doğru | 0 | 0 | 0 |
| Ən az narahatlıq doğuran | 210 | 210 | 210 |
| **Ümumi nəsli kəsilməkdə olan növlər** | **221** | **221** | **221** |









# DAYANIQLI TƏCHİZAT ZƏNCİRİ

GRI 2-6, 204-1, 308-1, 308-2, 414-1, 414-2

“AzerGold”un ətraf mühitə təsirinin təkcə daxili əməliyyatlardan ibarət olmadığı bir reallıqdır. Təchizat zəncirimiz boyunca gedən proseslər və əməkdaşlıqlarımızın dayanıqlılıq üzərində qurulması ilə təchizatçılarımızı ekoloji və sosial məsuliyyətlərinin yerinə yetirilməsinə təşviq edirik ki, bununla da daha dayanıqlı və məsuliyyətli bir iqtisadi şəraitin inkişafına öz töhfəmizi veririk.

“AzerGold”da dayanıqlı təchizat zəncirimizə nəzarət Satınalmalar və təchizat zəncirinin idarəolunması şöbəsi tərəfindən aşağıdakı fəaliyyətlərin idarəolunması və təchizat proseslərimizin iqtisadi və sosial mühitə qatdığı dəyərin artırılması yönündə mütəmadi olaraq optimallaşdırması üzrə həyata keçirilir.



## “AzerGold”un dəyər zənciri

**YUXARI (“Upstream”)**

- Yataqların kəşfiyyatı
- Metalların hasilatı
- Xammalın emalı prosesi

**AŞAĞI (“Downstream”)**

- Daşınma
- Satış
- Mədənin bağlanması

## “AzerGold”un dəyər zənciri

**Təchizat zəncirimizin qatdığı iqtisadi dəyər**

- Yerli Məşğulluğun stimullaşdırılması
- İqtisadi inkişafın təşviqi
- Yerli əhaliyə dəstək
- Yerli təchizatçılara dəstək

**Məhsullarımızdan istifadə sahələri**

- Texnologiya
- Elektronika
- İnvestisiya
- Zərgərlik

Təchizat zəncirimiz boyunca təsirlərin idarəedilməsi proseslərimizin müəyyən xarakterik özəllikləri ilə səciyyələnir, bu xüsusiyyətlərin inteqrasiyası qərarvermə prosesimiz zamanı yarana biləcək potensial risklərin qarşısının alınmasına imkan yaradır.

## Təchizat zəncirimizin səciyyəvi xüsusiyyətləri

### Şəffaf kvalifikasiya prosesi

Əsas məqsədi potensial təchizatçıların satınalma tələblərinə uyğunluğunun yoxlanılmasıdır.

Təchizatçılar tərəfindən təqdim olunan məlumatların qiymətləndirilməsi ədalətli satınalma prosesini təmin edir.

### Qiymətləndirmə və monitorinq

Bu prosedur Təsdiqlənmiş təchizatçı siyahısında (TTS) olan və müqavilə əsasında fəaliyyət göstərən təchizatçıların qiymətləndirilməsini ehtiva edir. Mütəmadi yoxlanış təchizatçılarımızın ekoloji və digər performansından əminliyi təmin edir.

### Etik normalar

Təchizatçı seçimi şəffaf və obyektiv meyarlara əsaslanmalıdır.

Təchizatçılar korrupsiyanın qarşısını alan prosedurlar tətbiq etməli, hesabatlılıq, etika və uyğunluq tələblərinə riayət etməlidir.

# SİYASƏT VƏ QAYDALAR

Təchizat fəaliyyətimiz üzrə Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaradılmış xarici şirkət (“BCG”) və Azərbaycan İnvestisiya Holdinqi (AİH) tərəfindən yoxlanılmış sifarişin yaradılmasından qalibin müəyyən olunmasınadək bütün prosesi əhatə edən **“AzerGold QSC-nin Satınalma Qaydaları”** 3 noyabr 2023-cü il tarixində Müşahidə Şurası tərəfindən təsdiqlənmişdir. Bu qaydalar toplusu aşağıda qeyd olunmuş proseslər üzrə həm işçilərimiz, həm də əməkdaşlıq etdiyimiz podratçılarımız üçün bələdçi rolunu oynayır və sifarişçi ilə təchizatçı arasındakı münasibətləri tənzimləyir:

- Təchizat fəaliyyətinin **planlaşdırılma** və **icrasına**, habelə ədalətli satınalma **qərarlarının verilməsinə vahid yanaşma;**
- Satınalma fəaliyyətinin etik qaydada aparılması, **sosial məsuliyyət anlayışına, qanun və qaydalara, Cəmiyyətin siyasət və prosedurlarına uyğunluq;**
- Satınalma əməliyyatlarında **keyfiyyətin, şəffaflığın, səmərəliliyin artırılması** və sui-istifadə hallarının qarşısının alınması;
- Mal/material, iş və xidmətlərin satın alınmasında iştirak edən təchizat strukturunun öz **rollarının və vəzifələrinin, eləcə də təchizatçıların seçilmə prinsiplərinin təmin edilməsi**;
- Tələb olunan **mal/material, iş və xidmətlərin müqavilənin tələblərinə uyğun olaraq təhvil verilməsi**nin təmin edilməsi;
- **Təchizat xərclərinin effektivliyinin təkmilləşdirilməsi üsulları**nın müəyyən edilməsi.

# TƏCHİZATÇILARIN SEÇİLMƏSİ PROSESİ

Satınalmalarımızda təchizatçıların qiymətləndirilməsi zamanı ətraf mühit və sosial məsuliyyət tələblərinə böyük önəm veririk. Tətbiq olunan ətraf mühit və sosial tələblər və meyarlar SƏTƏM şöbəsi tərəfindən təchiz edilir. Satınalma predmetindən asılı olaraq qiymətləndirmə meyarları müəyyən olunur. Ümumi olaraq daşımalarda dəmiryol nəqliyyatı üstünlük kimi nəzərdə saxlanılır. **Ətraf mühit üzrə tələblər güzəştsizdir və bunları əhatə etməyən şirkətlər tenderdən uzaqlaşdırılır.**

Elektron sifariş sorğusunun SAP sisteminə daxil olması ilə SƏTƏM şöbəsi tərəfindən ekoloji, sosial və digər kateqoriyalar üzrə tələblərimiz qeyd edilir. Məsələn, kimyəvi maddələrin alınması zamanı SDS, MSDS kimi sənədlərin təqdim olunmasını vacib hesab edirik. Satınalma predmetinə aid olan bütün sənədlər (istehsalçıdan), o cümlədən “SDS – Safety Data Sheet” tələb olunur. Bu sənədlərsiz sözügedən satınalma predmeti istifadəyə verilmir.

## İlkin kvalifikasiya

“AzerGold”da ilkin kvalifikasiya təchizatçıların ***Təsdiqlənmiş Təchizat Siyahısına***[14] *(TTS) daxil olmadan öncə keçdiyi uyğunluğun yoxlanılması mexanizmidir*. “AzerGold”da ilkin kvalifikasiya nəzarətləri yeni tərəfdaşlar tərəfindən doldurulmalı olan anket formasında həyata keçirilir ki, bu da yeni münasibətlərin maliyyə və tənzimləyici uyğunluğunu qiymətləndirməyə imkan verir.

## Təchizatçı siyahısının yaradılması

TTS-nin formalaşdırılmasının əsas məqsədi Cəmiyyətin effektiv təchizat fəaliyyəti və xərc səmərəliliyi üçün təchizatçıların daxil olduğu məlumat bazasının yaradılmasıdır.

Təchizatçıların TTS-yə əlavə olunması iki yolla həyata keçirilə bilər:

- Cəmiyyət tərəfindən elan edilmiş satınalma metodlarında iştirak etmiş, tələb olunan bütün sənədlərini tam şəkildə təqdim etmiş və ilkin kvalifikasiya mərhələsindən uğurla keçmə nəticəsində;
- Təchizatçı tərəfindən TTS-yə daxil olunmasına dair müraciət daxil olduqda Satınalmalar və təchizat zəncirinin idarəolunması (STZİ) şöbəsinin əməkdaşı tərəfindən göndərilən sorğu əsasında ilkin kvalifikasiya formasına uyğun olaraq təchizatçı tərəfindən təqdim edilmiş məlumatların qiymətləndirilməsi nəticəsində.

STZİ şöbəsinin işçisi ilkin təhlil əsasında TTS-ni yaratmalı və STZİ şöbəsinin müdirinə təqdim etməlidir. STZİ şöbəsinin müdiri TTS-ni nəzərdən keçirib razılaşdırmalıdır. Siyahı əvvəlcə aidiyyəti sahə üzrə İdarə Heyətinin üzvləri, sonda isə İdarə Heyətinin sədri tərəfindən nəzərdən keçirilməli və yenilənmiş TTS təsdiqlənməlidir.

[14]***Təsdiqlənmiş təchizatçı siyahısı*** – *İlkin kvalifikasiyadan keçmiş, satınalma tələblərinə uyğun olan və müsabiqədə iştirak etməyə münasib sayılan təsdiq edilmiş təchizatçıların mərkəzləşdirilmiş siyahısı*

## Təchizatçının seçilməsi metodları

Təchizatçının seçilməsi metodları STZİ şöbəsinin müdiri tərəfindən təsdiqlənərək tətbiqə başlanılır. Cəmiyyətin Qaydalarına əsasən aşağıda qeyd olunmuş satınalma metodları tətbiq oluna bilər:

- **Bir mənbə** - Bazarda rəqabətin mövcud olmadığı hallarda tətbiq olunur. Eyni zamanda satın alınan mal/material, iş və xidmətlərin ancaq bir təchizatçıdan alınmasının mümkün olduğu hallarda (konkret təchizatçının xüsusi hüquqa malik olması və ya həmin mal, iş və ya xidmətin əvəzedicisi olmadığı), qabaqcadan nəzərdə tutulması mümkün olmayan tələb və ya şərait zamanı alışın təcili şəkildə yerinə yetirilməsi lazım olduqda və açıq, ikimərhələli tender və ya qiymət təklifi sorğusu prosedurlarının keçirilməsi və ya satınalmanın hər hansı digər metodundan istifadə edilməsi məqsədəuyğun olmadığı hallarda, gözlənilməz hadisə və ya fövqəladə hal nəticəsində Cəmiyyətin fəaliyyətinin ani dayanması ilə səciyyələnən vəziyyətin aradan qaldırılması üçün mal/material, iş və ya xidmətin ən qısa zamanda təchizinə zərurət yarandığı halda.
- **Qiymət təklifi sorğusu** - Qiymət təklifi sorğusu metodu ehtimal olunan qiyməti 20,000.00 – 100,000.00 AZN-dək və ya sərbəst dönərli valyuta ilə buna ekvivalent məbləğdə olan alışlara şamil edilir. Qiymət təklifi sorğusu tələb olunan mal/material, iş və xidmətləri təmin edə bilən, mövcud bazarı olan təchizatçılar cəlb edilməklə keçirilən satınalma metodudur. Bu metod üzrə proses STZİ şöbəsinin işçisi tərəfindən Cəmiyyətin rəsmi internet səhifəsində və ya digər mətbuat orqanlarında elanın yerləşdirilməsi ilə başlayır. STZİ şöbəsinin işçisi, həmçinin mövcud tələblərə cavab verən və TTS-də olan təchizatçılara da fərdi dəvət göndərə bilər və yalnız göndərilmiş dəvəti qəbul edən təchizatçılara STZİ şöbəsinin işçisi tərəfindən QTS göndərilir.
- **Açıq tender** - Mal/material, iş və xidmətlərin ehtimal olunan qiyməti 100,000.00 AZN və ya sərbəst dönərli valyuta ilə buna ekvivalent məbləğdən yuxarı olduqda təchiz ediləcək mal/material, iş və xidmətlərin satın alınması açıq tender metodu ilə həyata keçirilir. Bu metod üzrə proses STZİ şöbəsinin işçisi tərəfindən Cəmiyyətin rəsmi internet səhifəsində və ya digər mətbuat orqanlarında elanın yerləşdirilməsi ilə başlayır. STZİ şöbəsinin işçisi, həmçinin mövcud tələblərə cavab verən və TTS-də olan təchizatçılara da fərdi dəvət göndərə bilər və yalnız göndərilmiş dəvəti qəbul edən təchizatçılara STZİ şöbəsinin işçisi tərəfindən ƏŞT göndərilir.

# SATINALMA MODELİ VƏ İDARƏEDİLMƏ PROSESİ

Hər ilin oktyabr ayında ***satınalma planı*** icra olunur. Satınalma planı büdcəmizə əsaslanır və büdcəyə uyğun qiymətləndirilir. Satınalma planına bilavasitə və ya dolayı yolla istehsalda istifadə olunan material, xammal və xidmətlər (hər bir şöbə üzrə ehtiyat hissələri və hər növ məhsullar) daxildir.

Hər bir şöbə üçün ***təchizat planı*** hazırlanır və hər bir məhsulun özünəməxsus yanaşması olduğundan, satınalma və müqavilə idarəçiliyi prosesləri üzrə fəaliyyətin tənzimlənməsi üzrə AG-F-042/22 nömrəli Əmrə istinad edərək gecikmələrin qarşısını almaq üçün bütün şöbələrə sifarişin icra tarixi tövsiyə olunur.

Şöbələr "SAP Business One" proqram təminatı vasitəsilə ***sifariş*** hazırlayır (burada lazımi materialların kəmiyyəti, keyfiyyəti, iş həcmi və büdcə məqsədləri yazılır). Aidiyyəti şöbələrin və İdarə Heyəti sədrinin təsdiqini aldıqdan sonra ümumi şərtlər toplusunu hazırlayırıq və sonra onu saytımızın tender bölməsində elan edirik (satınalma üsulu, qiymət sorğusu və ya açıq tender).

# TƏCHİZATÇILARIN FƏALİYYƏTİNƏ NƏZARƏT

“AzerGold” olaraq təchizatçılarımızla əlaqələrin **şəffaf və ədalətli prinsiplər** əsasında qurulmasına böyük önəm veririk. Şirkətimiz yerli təchizatçı hövzəsini geniş saxlamağın rəqabətliliyin qorunması baxımından vacib olduğunu anlayır və bu səbəblə də ekstrim hallar baş vermədiyi təqdirdə təchizatçılarımızla əlaqələrin birbaşa kəsilməsinin tərəfdarı deyil. Aşağıdakı hallar istisnasız olaraq təchizatçıların ***qara siyahıya*** salınmasına səbəb olan hallardır:

- Cəmiyyət ilə bağlanmış müqavilə çərçivəsində öhdəliklərini vaxtında icra etməməsi, icradan imtina etməsi və ya ümumiyyətlə, qanunvericiliyin, müqavilənin tələblərinə uyğun icra etməməsi nəticəsində müqaviləyə xitam verilməsi (Sifarişçidən qaynaqlanan hallar xaric);
- Məhkəmə çəkişmələrinin olması (təchizatçının cavabdeh qismində çıxış etdiyi, lakin iddianı uduzmadığı hallar xaric), vəzifə səlahiyyətindən sui-istifadə halları;
- Satınalma prosedurları üzrə təklifləri təqdim etməkdən imtina etməsi (bu hal bir neçə dəfə təkrarlanarsa);
- Riskli vergi ödəyicisi qrupuna daxil olması;
- Satınalma prosesi zamanı sövdələşmə hallarının müəyyən olunması;
- Sənəddə saxtalaşdırma hallarına yol verməsi;
- Sifarişçi ilə mal/material, iş və xidmətin keyfiyyəti, düzgün miqdarı və vaxtında çatdırılması ilə bağlı davamlı baş verən problem və mübahisələrin mövcudluğu (iki və daha artıq);
- İşgüzar nüfuza mənfi təsir edəcək halların aşkarlanması;
- Təchizatçı tərəfindən bu Qaydalarda qeyd olunan Təchizat prosesinə tətbiq olunan etik normalara zidd hərəkətlər (birinci dəfədən);
- Təchizatçının Cəmiyyətin SƏTƏM qaydalarının tələblərinə bilərəkdən mütəmadi olaraq əməl etməməsi.

“AzerGold” daxilində qara siyahıya alınma proseslərimiz şəffaflıq və dəqiqlik prinsiplərinə uyğun olaraq həyata keçirilir. Təchizatçıların qara siyahıya daxil edilməsinin səbəbləri onlara yazılı şəkildə, dəqiq sənədlərlə izah olunur. Hər bir təchizatçıya səbəblər haqqında xəbərdarlıq edilir və onlara bu səbəbləri aydınlaşdırmaq və düzəltmək üçün imkan təqdim edilir.

# TƏCHİZATÇILARIN FƏALİYYƏTİNƏ NƏZARƏT

**Yerli təchizatçılara dəstək dayanıqlı təchizat zəncirimizin məğzini təşkil edir.** “AzerGold” hər zaman inzibati və digər material ehtiyacları üçün yerli təchizatçılarla əməkdaşlığa üstünlük vermişdir – yerli podratçılardan satınalmanın genişləndirilməsinin həm ölkə iqtisadiyyatını gücləndirdiyinə, həm də yerli işçi qüvvəsini möhkəmləndirdiyinə inanırıq.

**Say etibarilə ödənişlərin 95%-i, ümumilikdə isə təchizat xidmətləri xərclərinin 97-98%-i daxili təchizatçıların iqtisadi gəlirinin artırılması üçün sərf edilmişdir.** Qızıl hasilatı üçün lazım olan malların, materialların və xidmətlərin 90%-dən çoxu yerli şirkətlər tərəfindən təmin edilib. Xaricdən satınalmalar yalnız xaricdə istehsal olunan kimyəvi maddələr üzrə həyata keçirilmişdir.

**Təchizatçı/podradçı şirkətlər üzrə göstəricilər**









# MƏSULİYYƏTLİ MATERİAL TƏDARÜKÜ

***"AzerGold" olaraq biz ətraf mühitə təsiri minimuma endirən, resurs istehlakını azaldan mal və materiallardan məsuliyyətli istifadənin tərəfdarıyıq.***

"AzerGold" olaraq tərəfimizdən təchizat zənciri üzrə istifadə olunan resurslara tələbatı azaltmaq üçün materialların mümkün qədər təkrar emalına və istifadəsinə xüsusi diqqət yetirilir. Həmçinin resursların effektiv idarəedilməsi strategiyalarının həyata keçirilməsi tullantıların əmələ gəlməsini minimuma endirməyə və resurslardan istifadəni optimallaşdırmağa kömək edir. Cəmiyyət tərəfindən daimi olaraq ekoloji cəhətdən təmiz və innovativ texnologiyaların tətbiqi imkanları araşdırılır və optimizasiya işləri aparılır.

STZİ şöbəsi səmərəli satınalma praktikalarının bir hissəsi olaraq, elektrik ehtiyat hissələrinin sifarişi ilə əlaqədar statistik hesabatların müşahidəsini həyata keçirir. Belə ki, STZİ şöbəsi büdcə sərfiyyatı zamanı maddi və material israfının qarşısının alınması məqsədilə illik satınalma büdcəsini ötən ilin orta tələbatı və materialların anbar qalıqları miqdarına əsaslanaraq formalaşdırır.

Əlavə olaraq, az istifadə olunan malların anbarda saxlanmasının qarşısını almaq məqsədilə bu tip mallara münasibətdə çərçivə müqavilələrinin bağlanması məsələsi tərəfimizdən təklif olunmuşdur və hazırda bu istiqamətdə STZİ şöbəsi ilə birlikdə müzakirələr aparılır.



# TƏCHİZAT ZƏNCİRİNİN İNKİŞAF ETDİRİLMƏSİ ÜZRƏ GƏLƏCƏK PLANLAR

**Bununla belə, maraqlı tərəflərin istəkləri və dayanıqlılıq üzrə tənzimləyici çərçivələrin tələbatları artdıqca, "AzerGold" dəyər zəncirinin dayanıqlılığını bir addım irəliyə aparmaq üçün görülməli olan tədbirlər silsiləsinin önəmini anlayır.** Bununla bağlı Cəmiyyətimiz tərəfindən bir sıra gələcək planların siyahısı hazırlanaraq təsdiq olunmuşdur.

| | |
|---|---|
| **ERP Sisteminin Yenilənməsi** | Hazırda satınalma prosesinin idarəolunması üzrə mövcud ERP sisteminin yenilənməsi nəzərdə tutulur. AİH portfelindəki bütün şirkətlər üçün yeni ERP sisteminin yaradılmasına dair qərar qəbul edilib və 2024-cü ildə yeni sistemin tətbiqi planlaşdırılır. Bu sistemin tətbiqi ilə satınalma proseslərimizi daha şəffaf və effektiv şəkildə idarə etməyi hədəfləyirik. |
| **Boşluq Təhlili və Yeni Qaydalar** | Satınalma prosesindəki boşluqları müəyyən etmək üçün təhlillər aparılmış və nəticələr yeni qaydalarda əks olunmuşdur. Yeni qaydalarımız satınalma proseslərinin daha detallı və planlı şəkildə həyata keçirilməsini təmin edəcək. |
| **Boşluq Təhlili və Yeni Qaydalar** | 2025-ci ildə təşkilati strukturun dəyişməsi gözlənilir və təchizat zəncirinin qəbulu şöbəsinin yaradılması planlaşdırılır. 2025-ci ilin əvvəlində bir illik təcrübə və diaqnostikadan sonra optimallaşdırma istiqamətləri nəzərdən keçiriləcək.<br><br>Həmçinin Logistika və anbar makro idarəçiliyi şöbəsinin STZİ şöbəsinin tərkibinə daxil edilməsi də effektiv planlamalarımız sırasındadır. Bu təşkilati struktur artıq yaradılmış və təsdiq edilmişdir. 2024-cü ildə logistika və anbar təchizatı qaydalarının uzlaşdırılması istiqamətində işlər görüləcək. |

# KORPORATİV SOSİAL MƏSULİYYƏT FƏALİYYƏTİ

GRI 2-22, 413-1

Təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik "AzerGold"un idarəçiliyinin təməl prinsiplərini təşkil edir. Dağ-mədən sənayesinin dayanıqlı inkişafı istiqamətində fəaliyyətini uğurla davam etdirən dövlət şirkəti fəaliyyətinin ətraf mühit, hasilat ərazilərində yaşayan yerli əhali və onların hüquqlarına göstərə biləcəyi mümkün təsiri haqqında məlumatlıdır.

**"AzerGold" bu təsirin ədalətli şəkildə tənzimlənməsi üçün qəbul etdiyi Sosial təsir və məsuliyyət üzrə siyasəti çərçivəsində ətraf və sosial mühitə öz töhfələrini verməkdədir.**



# SOSİAL TƏSİR VƏ MƏSULİYYƏT SİYASƏTİ

**_Sosial təsir və məsuliyyət üzrə_ siyasətin əsas məqsədləri**

- Əlvan və qara metal filiz yataqlarının kəşfiyyatı, işlənilməsi və idarəolunmasına yönəlmiş dağ-mədən fəaliyyətinin həyata keçirilməsi zamanı yarana biləcək sosial nəticələri müəyyənləşdirmək və əhatə etmək
- Filiz yataqlarının yerləşdiyi regionlara xüsusi diqqət ayırmaqla, ümumilikdə ölkə üzrə sosial-iqtisadi inkişafa töhfələr vermək
- Dağ-mədən fəaliyyətini yerli əhalinin/icmanın ehtiyacları nəzərə alınmaqla, dayanıqlı inkişaf konsepsiyası çərçivəsində qurmaq və təkmilləşdirmək
- Dağ-mədən sənayesində çalışan işçilərin sosial və əmək hüquqlarının qorunmasını təmin etmək
- Dağ-mədən sənayesinin birbaşa sosial və ekoloji təsirlər yaratdığı regionlarda gender balansının təmin edilməsinə dəstək vermək

Bu məqsədlərə çatmaq üçün “AzerGold” 2017-ci ildə öz **Korporativ Sosial Məsuliyyət (KSM) komitəsini** yaradıb. KSM komitəsinin fəaliyyəti milli qanunvericilik, dağ-mədən sahəsində ən mütərəqqi beynəlxalq təcrübə, o cümlədən BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş və 2030-cu ilədək olan dövrü əhatə edən 17 Dayanıqlı İnkişaf Məqsədi nəzərə alınmaqla formalaşdırılıb və davamlı olaraq təkmilləşdirilir.

**_Sosial təsir və məsuliyyət üzrə_** siyasət 3 əsas istiqaməti əhatə edir:

**Sosial təsir və məsuliyyət üzrə siyasətimizin əsas istiqamətləri**

- **Yerli əhali və icmalarla iş**
- **Ətraf mühitin mühafizəsi**
- **Əlverişli əmək şəraiti və insan hüquqları**

# SOSİAL TƏSİR VƏ MƏSULİYYƏT SİYASƏTİ

**Yerli əhali və icmalar**

| | | | | | |
|---|---|---|---|---|---|
| Filiz yataqlarının kəşfiyyatı, işlənilməsi və idarəolunması layihələrində qanunvericiliyə əməl olunması | Dağ-mədən fəaliyyəti ilə bağlı yerli əhali və icmaların məruz qala biləcəyi təsirlərin idarəolunması | Sosial infrastrukturun qurulmasında və inkişaf etdirilməsində iştirak | Arxeoloji və mədəni irsin qorunması üzrə vəzifələrin yerinə yetirilməsi və fəal əməkdaşlıqlar | Torpaq sahələrinin və infrastruktur itkiləri ilə bağlı nəzərdə tutulmuş kompensasiyaların ödənilməsi | Yeni iş yerlərinin açılması və bu iş yerlərinin yerli əhali və icma üzvlərinə təklif edilməsi üzrə tədbirlər |

**Əlverişli əmək şəraiti və insan hüquqları**

| | | | |
|---|---|---|---|
| Məcburi əmək və uşaq əməyinin qadağan olunması üzrə qanunvericiliyin tələblərinə əməl olunması | Əməyin təhlükəsizliyi və işçilərin sağlamlığının qorunması üzrə sistemli tədbirlərin həyata keçirilməsi | İşçilərin peşəkar qabiliyyətinin artırılması, gənclərin və həssas qrupların peşə təhsili ilə təmin edilməsi üzrə layihələr | Ədalətli əməkhaqqı sisteminin yaradılması və ayrı-seçkiliyin aradan qaldırılması üzrə davamlı səylərin göstərilməsi |

**Ətraf mühitin mühafizəsi**

| | | |
|---|---|---|
| Ətraf mühit üzrə idarəetmə sisteminin tələblərini öz fəaliyyətinə tətbiqi və təkmilləşdirilməsi üçün nəzarət və daxili islahatlar | Təbii resurslardan və enerji mənbələrindən istifadə zamanı əsaslı qənaət üçün ən yaxşı təcrübələrin və yeni texnologiyaların tətbiqi | Əlvan və qara metal filizi yataqlarının kəşfiyyatı, işlənilməsi və idarəolunması üzrə təşviqedici layihələr və tədbirlər |

# KSM LAYİHƏLƏRİNİN SEÇİLMƏ PROSESİ



KSM komitəsi tərəfindən yerli icmalarla mütəmadi görüşlər keçirilir, əhalinin sosial ehtiyacları müəyyənləşdirilir, yeni təşəbbüslərlə bağlı fikir mübadiləsi aparılır. Nəticədə vətəndaşların təklifləri, sosial-iqtisadi tələbatları nəzərə alınaraq, hər il KSM fəaliyyəti üzrə tədbirlər planı hazırlanır, icra edilir və dövri olaraq hesabatlar dərc edilir. Bu layihələrə ekologiya, təhsil, maarifləndirmə, sağlamlıq, məşğulluq, idman, mədəniyyət, gender bərabərliyi, uşaqların fərdi inkişafı, əlilliyi olan şəxslərin sosial həyata inteqrasiyası, mikro və kiçik sahibkarlığın inkişafı ilə bağlı tədbirlər daxildir.

**KSM layihələrinin seçilmə prosesi**



# KSM ÜZRƏ XƏRCLƏRİN İSTİQAMƏTİ

KSM fəaliyyətimiz üçün ayrılan sabit büdcə yoxdur. Bu istiqamətdə xərclər illik planlaşdırılmış layihələr əsasında müəyyənləşdirilir. **Sosial** layihələr KSM fəaliyyətimizin ən çox vəsait ayrılmış (**1,811,182.87 AZN**) və yüksək artım göstərən istiqamətidir. Bu istiqamətə ölkəmizdə, xüsusilə Cəmiyyətin fəaliyyət göstərdiyi bölgələrdə aztəminatlı ailələr, şəhid ailələri və digər xüsusi qayğıya ehtiyacı olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, sosial infrastruktur layihələrinin icrasına dəstək məqsədilə ayrılmış vəsaitlər daxildir.

Xərclənən vəsaitlər üzrə ikinci yerdə 2022-ci ildən etibarən **idman** istiqamətidir. Bu istiqamət üzrə ayrılan vəsaitlər 2023-cü il üzrə 61%-dən çox artım göstərib. Bunun əsas səbəbi ölkəmizdə idmanın müxtəlif növlərinin kütləviliyinin artırılması istiqamətində yürüdülən dövlət siyasətinə uyğun olaraq, Səhmdar Cəmiyyət tərəfindən sözügedən sahəyə diqqətin artırılması ilə bağlıdır. Bu sahə üzrə əsas dəstək tədbirlərimiz müxtəlif idman növlərinin populyarlığının artırılması və müvafiq infrastrukturun yaradılması ilə bağlıdır.

2023-cü il üzrə ayrılan xərclərdə 45% artım müşahidə edilmiş **səhiyyə** istiqaməti sıralamada üçüncü yerdədir. Bu istiqamətdə atılmış addımlara bölgələrdə, ucqar kəndlərdə əhalinin səhiyyə xidmətlərinə əlçatanlığının artırılması, tibbi ehtiyacların qarşılanmasına dəstək daxildir. Səhiyyə üzrə vəsaitlərin ildən-ilə artmasının əsas səbəbi vətəndaşlar tərəfindən edilən müraciətlər fonunda “AzerGold” tərəfindən bu sahəyə də diqqətin davamlı olaraq artırılmasıdır.

2021-ci il üzrə **mədəniyyət** istiqamətinə ayrılmış vəsaitin miqdarı 110,295 AZN təşkil etməsinə baxmayaraq, 2022 və 2023-cü illərdə daha çox vəsait və diqqətin sosial, səhiyyə, idman və digər istiqamətlərə yönəldilməsi səbəbi ilə xərclərdə azalma müşahidə olunub.

Ölkəmizdə, xüsusilə “AzerGold”un fəaliyyət göstərdiyi bölgələrdə təhsilin inkişafı, dağ-mədən sahəsi üzrə ali, peşəyönümlü mütəxəssislərin yetişdirilməsinə dəstək məqsədli digər bir KSM fəaliyyəti istiqamətimiz **elm və təhsildir.** 2021-ci ildə bu istiqamət üzrə 12,000 AZN vəsait xərclənib. 2022-ci ildə Daşkəsən rayonunun Quşçu qəsəbəsində Səlmixan İsgəndərov adına məktəbin yeni modul tipli binasının tikintisi, eləcə də peşə və ali təhsil üzrə təqaüdlərin təsis edilməsi ilə əlaqədar xərclər artaraq 461,298.66 AZN təşkil edib. 2023-cü ildə isə müvafiq infratruktur layihəsi nəzərdə tutulmadığından xərclər azalaraq 48,800 AZN təşkil edib.

Ölkəmizdə, xüsusilə “AzerGold”un fəaliyyət göstərdiyi bölgələrdə ekoloji tarazlığın qorunması məqsədilə 2022-ci ildə ən yüksək artım (8 dəfədən çox) müşahidə olunan istiqamətlərdən biri **ekologiya** olub. Artımda əsas səbəb ildən-ilə ətraf mühitin mühafizəsi ilə bağlı tədbir və layihələrin, o cümlədən ekoloji aksiyaların genişləndirilməsidir.



# KSM ÜZRƏ XƏRCLƏRİN İSTİQAMƏTİ

KSM fəaliyyəti çərçivəsində icra edilən ekoloji layihələrlə yanaşı, “AzerGold”un bu istiqamət üzrə fəaliyyətinin böyük hissəsi qanunvericiliklə müəyyən olunmuş tələblər əsasında həyata keçirilir. Mədənlərin istismarına hazırlıq işləri çərçivəsində Ətraf və sosial mühitə təsirin qiymətləndirilməsi sənədi hazırlanır, ictimaiyyətin iştirakı ilə müzakirəyə çıxarılır, daha sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Ekoloji Ekspertiza Agentliyi tərəfindən təsdiq edilir. Həmçinin hər il yenilənən ekoloji monitorinq proqramına uyğun olaraq, hasilat və istehsalat bölgəsində su, torpaq, səs-küyün ölçülməsi işləri icra edilir. İstismar işlərinin yekununda isə mədənqapama – rekultivasiya işləri çərçivəsində torpağın münbit qatı bərpa edilir, müvafiq yaşıllaşdırma işləri həyata keçirilir.

“AzerGold” fəaliyyət göstərdiyi bölgədə **sahibkarlığın inkişafı** istiqaməti üzrə də layihələr həyata keçirir. 2022 və 2023-cü illərdə Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək məqsədilə layihələr icra edilib. Layihələrə cəlb edilmiş kəndli-fermerlərə sahə üzrə nəzəri və praktiki biliklər aşılanıb, həmçinin öz təsərrüfatlarını genişləndirmələri üçün zəruri mal və materiallar, o cümlədən arı ailələri təqdim edilib.

Digər istiqamət isə **Qarabağ və Şərqi Zəngəzurda işğal dövründə aparılmış qanunsuz hasilata qarşı mübarizədir.** “AzerGold” bu istiqamət üzrə torpaqlarımızın işğalı dövründə olduğu kimi, işğal faktının aradan qaldırılmasından sonra da sistemli fəaliyyətini davam etdirir. Məqsəd Azərbaycanın işğaldan azad edilmiş ərazilərində vaxtilə aparılmış qanunsuz istismar faktlarına hüquqi qiymətin verilməsidir.

**KSM fəaliyyətinə ayrılan xərclər (AZN)**

| Ayrılan vəsaitlərin kateqoriyaları | 2021 | 2022 | 2023 |
|---|---|---|---|
| Sosial | 494,113.17 | 695,227.81 | 617,841.89 |
| Səhiyyə | - | 97,508.99 | 141,420.00 |
| Sahibkarlığa dəstək | - | 30,916.00 | 30,984.91 |
| Mədəniyyət | 110,295.00 | 74,246.60 | 6,000.00 |
| Ekologiya | 850.00 | 7,470.00 | 6,341.00 |
| Elm və təhsil | 12,000.00 | 461,298.66 | 48,800.00 |
| İdman | - | 258,782.58 | 417,581.17 |
| Qarabağ və Şərqi Zəngəzurda işğal dövründə aparılmış qanunsuz hasilata qarşı mübarizə | 70,442.00 | 88,092.26 | 78,709.98 |
| **Cəmi** | **687,700.17** | **1,713,542.90** | **1,347,678.95** |

## 2021-2023-CÜ İLLƏRİ ƏHATƏ EDƏN MÜHÜM LAYİHƏLƏR

Korporativ Sosial Məsuliyyət komitəsinin illik hesabatlarında il ərzində müxtəlif istiqamətlər üzrə atılan addımlar, layihələr, tədbirlər və aksiyalar haqqında ətraflı məlumat qeyd edilir və ictimaiyyətlə paylaşılır. Aşağıda son 3 il ərzində göstərilən əsas fəaliyyət istiqamətləri qeyd edilib:



Daşkəsən rayonunda səyyar tibbi müayinə aksiyası



"Çovdar" nekropolu ilə bağlı geniş elmi tədqiqatlar



“Təbiətə sayğı, gələcəyə qayğı” devizi altında ekoloji aksiya



Güney-Zağalı su anbarı ətrafında ekoloji aksiya



Daşkəsəndə aztəminatlı şəhid və qazi ailələrinə sosial yardım askiyası



Görmə məhdudiyyətli insanlara innovativ dəstək



Daşkəsən rayonunda arıçılıq təsərrüfatının inkişafına dəstək



Daşkəsən rayonunda uşaqlar üçün səyyar tibbi müayinə aksiyası



Daşkəsəndə yeni məktəb binasnın inşası



Daşkəsəndə minifutbol, voleybol-basketbol meydançalarının yenidən qurulması



Gəncə şəhərində regional autizm mərkəzinin yaradılması



Daşkəsən rayonunda qadınların məşğulluğunun artırılması

## GƏLƏCƏK PLANLAR VƏ MƏQSƏDLƏR

2024-2026-cı illər üzrə “AzerGold”un kommunikasiya strategiyası Cəmiyyətin İctimaiyyətlə əlaqələr və marketinq şöbəsi tərəfindən hazırlanıb və 9 fevral 2024-cü il tarixində İdarə Heyətinin sədri tərəfindən təsdiq edilib. Bu strategiya çərçivəsində müəyyənləşdirilmiş 4 SMART məqsəddən biri KSM fəaliyyəti ilə bağlıdır. Sənədə uyğun olaraq, “AzerGold” qarşıdakı 3 il ərzində sosial fəallığın, yerli icmalarla işin gücləndirilməsi məqsədilə həyata keçirilən KSM tədbirlərinin sayının 40 faiz artırılmasını qarşıya məqsəd qoyub. Biz sosial layihələrin davamlılığına və nəticəyönümlü olmasına xüsusi diqqət yetiririk. Bu baxımdan qarşıdakı illərdə də ekologiya, təhsil, maarifləndirmə, sağlamlıq, məşğulluq, idman, mədəniyyət, gender bərabərliyi, uşaqların fərdi inkişafı, əlilliyi olan şəxslərin sosial həyata inteqrasiyası, mikro və kiçik sahibkarlığın inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, həmçinin vətəndaş müraciətləri əsasında yeni layihələrin icrası nəzərdə tutulub.

# GRI MƏZMUN İNDEKSİ

| | |
|---|---|
| **İstifadə bəyanatı** | "AzerGold" QSC 01.01.2021 - 31.12.2023-cü il tarixləri üçün GRI standartlarına uyğun hesabat vermişdir. |
| GRI 1 | GRI 1: Əsas 2021 |

| GRI Standartları | Açıqlama | Bölmə / Səhifə / Şərh |
|---|---|---|
| **GRI 2: Ümumi açıqlamalar 2021** | 2-1 Təşkilati təfərrüatlar | ✓ Hesabat haqqında, səh. 5<br>✓ "AzerGold" QSC haqqında, səh. 9 |
| | 2-2 Təşkilatın dayanıqlı inkişaf hesabatına daxil edilən qurumlar | ✓ Hesabat haqqında, səh. 5 |
| | 2-3 Hesabat dövrü, tezliyi və əlaqə | ✓ Hesabat haqqında, səh. 5 |
| | 2-4 Məlumatın yenidən təqdim edilməsi | ✓ Uyğun deyil, ilk hesabatdır |
| | 2-5 Kənar əminlik bəyannaməsi | ✓ Hesabat haqqında, səh. 5 |
| | 2-6 Fəaliyyətlər, dəyər zənciri və digər işgüzar əlaqələr | ✓ "AzerGold" QSC haqqında, səh. 9<br>✓ Strateji məqsədlər və hədəflər, səh. 16<br>✓ Dayanıqlı təchizat zənciri, səh. 94 |
| | 2-7 Əməkdaşlar | ✓ İRİ üzrə əsas fəaliyyət istiqamətləri, səh. 41 |
| | 2-8 Əməkdaş olmayan digər işçilər üzrə məlumat | ✓ İRİ üzrə əsas fəaliyyət istiqamətləri, səh. 41 |
| | 2-9 İdarəetmə strukturu və tərkibi | ✓ Korporativ İdarəetmə, səh. 23 |

| | | | |
|---|---|---|---|
| **GRI 2: Ümumi açıqlamalar 2021** | 2-10 Ali idarəetmə orqanına namizədlik və seçim | ✓ | Korporativ İdarəetmə, səh. 23 |
| | 2-11 Ali idarəetmə orqanının sədri | ✓ | Korporativ İdarəetmə, səh. 23 |
| | 2-12 Təsirlərin idarəolunmasına nəzarətdə ali idarəetmə orqanının rolu | ✓<br>✓ | Korporativ İdarəetmə, səh. 23<br>Dayanıqlı inkişaf məsələlərinin idarəolunması, səh. 19 |
| | 2-13 Təsirlərin idarəedilməsi üçün səlahiyyətin ötürülməsi | ✓ | Korporativ İdarəetmə, səh. 23 |
| | 2-14 Dayanıqlı İnkişaf Hesabatında ali idarəetmə orqanının rolu | ✓<br>✓ | Korporativ İdarəetmə, səh. 23<br>Dayanıqlı inkişaf məsələlərinin idarəolunması, səh. 19 |
| | 2-15 Maraqların toqquşması | ✓ | Uyğunluq və məsuliyyətli biznes yanaşmamız, səh. 30 |
| | 2-16 Vacib məsələlərin kommunikasiyası | ✓ | Uyğunluq və məsuliyyətli biznes yanaşmamız, səh. 30 |
| | 2-17 Ali idarəetmə orqanının kollektiv biliyi | ✓ | Hesabat ilində tətbiq olunmadığı üçün məlumat açıqlanmamışdır. |
| | 2-18 Ali idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsi | ✓ | Korporativ İdarəetmə Standartlarının 31-ci Maddəsi |
| | 2-19 Mükafatlandırma siyasətləri | ✓ | “AzerGold”un mükafatlandırma sistemi, səh. 46 |
| | 2-20 Mükafatlandırmanı müəyyən edən proses | ✓ | “AzerGold”un mükafatlandırma sistemi, səh. 46 |
| | 2-21 İllik mükafatlandırma nisbəti | ✓ | Məlumat açıqlanmamışdır. |
| | 2-22 Dayanıqlı inkişaf strategiyası haqqında bəyanat | ✓<br>✓<br>✓<br>✓ | İdarə Heyətinin sədrinin müraciəti, səh. 4<br>Dayanıqlı inkişaf məsələlərinin idarəolunması, səh. 19<br>Dayanıqlı təchizat zənciri, səh. 94<br>Korporativ Sosial Məsuliyyət fəaliyyəti, səh. 104 |
| | 2-23 Siyasi öhdəliklər | ✓<br>✓<br>✓<br>✓ | Ətraf mühitin idarəedilməsi, səh. 59<br>Uyğunluq və məsuliyyətli biznes yanaşmamız, səh. 30<br>Dayanıqlı təchizat zənciri, səh. 94<br>Korporativ Sosial Məsuliyyət fəaliyyəti, səh. 104 |

| | | |
|---|---|---|
| **GRI 2: Ümumi açıqlamalar 2021** | 2-24 Siyasi öhdəliklərin daxil edilməsi | ✓ Ətraf mühitin idarəedilməsi, səh. 59<br>✓ Uyğunluq və məsuliyyətli biznes yanaşmamız, səh. 30<br>✓ Dayanıqlı təchizat zənciri, səh. 94<br>✓ Korporativ Sosial Məsuliyyət fəaliyyəti, səh. 104 |
| | 2-25 Mənfi təsirləri aradan qaldırmaq üçün proseslər | ✓ Ətraf mühitin idarəedilməsi, səh. 59<br>✓ Uyğunluq və məsuliyyətli biznes yanaşmamız, səh. 30 |
| | 2-26 Məsləhət və problemləri bildirmək üçün mexanizmlər | ✓ Uyğunluq və məsuliyyətli biznes yanaşmamız, səh. 30 |
| | 2-27 Qanun və qaydalara uyğunluq | ✓ Ətraf mühitin idarəedilməsi, səh. 59<br>✓ Uyğunluq və məsuliyyətli biznes yanaşmamız, səh. 30 |
| | 2-28 Üzvlük assosiasiyaları | ✓ Fəaliyyətə uyğun və ya əhəmiyyətli olmadığı üçün bu məlumatlar açıqlanmamışdır. |
| | 2-29 Maraqlı tərəflərin cəlb edilməsinə yanaşma | ✓ Maraqlı tərəflərin cəlb olunması, səh. 21 |
| | 2-30 Kollektiv əmək müqavilələri | ✓ Tətbiq olunmur |
| **GRI 3: Əhəmiyyətli mövzular 2021** | 3-1 Əhəmiyyətli mövzuların müəyyənləşdirilməsi prosesi | ✓ Əhəmiyyətli mövzuların təhlili, səh. 6 |
| | 3-2 Əhəmiyyətli mövzuların siyahısı | ✓ Əhəmiyyətli mövzuların təhlili, səh. 6 |
| | 3-3 Əhəmiyyətli mövzuların idarəolunması | ✓ Əhəmiyyətli mövzuların təhlili, səh. 6<br>✓ Strateji məqsədlər və hədəflər, səh. 16 |
| **GRI 201: İqtisadi fəaliyyət 2016** | 201-1 Əldə edilmiş birbaşa iqtisadi dəyər və onun paylaşdırılması | ✓ “AzerGold” QSC haqqında, səh. 9 |
| | 201-2 İqlim dəyişikliyi ilə əlaqədar maliyyə nəticələri, risklər və imkanlar | ✓ Məlumat açıqlanmamışdır. |
| | 201-3 Müəyyən edilmiş imtiyazlar planı üzrə öhdəliklər və digər planlar | ✓ AİH-ə göndərilən Rüblük və İllik İdarəetmə Hesabatları |
| | 201-4 Hökümətdən alınan maliyyə yardımı | ✓ AİH-ə göndərilən Rüblük və İllik İdarəetmə Hesabatları |

| | | | |
|---|---|---|---|
| **GRI 202: Bazarda mövcudluq 2016** | 202-1 Yerli minimal əməkhaqqı ilə müqayisədə cinslər üzrə standart əməkhaqqı | ✓ | Müxtəlifliyin və inklüzivliyin təşviqi, səh. 47 |
| | 202-2 Yerli əhalinin rəhbərlikdə təmsilçiliyi | ✓ | Məlumat açıqlanmamışdır. |
| **GRI 203: Dolayı iqtisadi təsirlər 2016** | 203-1 İnfrastruktur sərmayələri və dəstəklənən xidmətlər | ✓ | Korporativ Sosial Məsuliyyət fəaliyyəti, səh. 104 |
| | 203-2 Əhəmiyyətli dolayı iqtisadi təsirlər | ✓ | Korporativ Sosial Məsuliyyət fəaliyyəti, səh. 104 |
| **GRI 204: Satınalma təcrübələri 2016** | 204-1 Yerli təchizatçılara xərclənən vəsaitlərin ümumi büdcəyə nisbəti | ✓ | Dayanıqlı təchizat zənciri, səh. 94 |
| **GRI 205: Antikorrupsiya 2016** | 205-1 Korrupsiya riski üzrə qiymətləndirilmiş əməliyyatlar | ✓<br>✓ | Korporativ idarəetmə, səh. 23<br>Risklərin idarəedilməsi, səh. 36 |
| | 205-2 Antikorrupsiya siyasəti və prosedurları üzrə keçirilmiş təlim və kommunikasiya | ✓<br>✓ | Korporativ idarəetmə, səh. 23<br>Risklərin idarəedilməsi, səh. 36 |
| | 205-3 Qeydə alınmış korrupsiya halları və bu halların qarşısını almaq üçün həyata keçirilmiş tədbirlər | ✓ | Uyğunluq və məsuliyyətli biznes yanaşmamız, səh. 30 |
| **GRI 206: Antirəqabət davranışı 2016** | 206-1 Sağlam olmayan rəqabət davranışları, etimadsızlıq və monopoliya təcrübələri üzrə hüquqi tədbirlər | ✓ | Uyğunluq və məsuliyyətli biznes yanaşmamız, səh. 30 |
| **GRI 207: Vergi 2019** | 207-1 Vergiyə yanaşma | ✓ | İllik İdarəetmə Hesabatları |
| | 207-2 Vergi idarəçiliyi, nəzarət və risklərin idarəedilməsi | ✓ | İllik İdarəetmə Hesabatları |
| | 207-3 Maraqlı tərəflərin cəlb edilməsi və vergi ilə bağlı narahatlıqların idarəedilməsi | ✓ | Maraqlı tərəflərin cəlb olunması, səh. 21 |
| | 207-4 Ölkə üzrə hesabat | ✓ | İllik İdarəetmə Hesabatları |
| **GRI 301: Materiallar 2016** | 301-1 İstifadə olunan materiallar, həcm və ya çəki ilə | ✓ | Fəaliyyətə uyğun və ya əhəmiyyətli olmadığı üçün bu məlumatlar açıqlanmamışdır. |
| | 301-2 Təkrar istifadə olunan materiallar | | |
| | 301-3 Geri toplanmış məhsullar və qablaşdırma materialları | | |

| | | | |
|---|---|---|---|
| **GRI 302: Enerji 2016** | 302-1 Təşkilat üzrə enerji sərfiyyatı | ✓ | Enerji səmərəliliyi, səh. 69 |
| | 302-2 Təşkilat xaricində enerji istehlakı | ✓ | Enerji səmərəliliyi, səh. 69 |
| | 302-3 Enerji intensivliyi əmsalı | ✓ | Enerji səmərəliliyi, səh. 69 |
| | 302-4 Enerji sərfiyyatının azaldılması | ✓ | Enerji səmərəliliyi, səh. 69 |
| | 302-5 Məhsul və xidmətlərin enerjiyə olan tələbatının azaldılması | ✓ | Enerji səmərəliliyi, səh. 69 |
| **GRI 303: Su və çirkablar 2018** | 303-1 Sudan ortaq resurs kimi birgə istifadə | ✓ | Suyun idarəedilməsi, səh. 73 |
| | 303-2 Su axıdılması ilə əlaqədar təsirlərin idarəedilməsi | ✓ | Suyun idarəedilməsi, səh. 73 |
| | 303-3 Su çəkilməsi | ✓ | Suyun idarəedilməsi, səh. 73 |
| | 303-4 Su axıdılması | ✓ | Suyun idarəedilməsi, səh. 73 |
| | 303-5 Su sərfiyyatı | ✓ | Suyun idarəedilməsi, səh. 73 |
| **GRI 304: Biomüxtəliflik 2016** | 304-1 Qorunan ərazilər və yüksək biomüxtəliflik dəyəri olan ərazilərdə və ya qonşu məkanlarda mülkiyyətdə olan, icarəyə götürülmüş və ya idarə olunan əməliyyat sahələri | ✓ | Biomüxtəlifliyin mühafizəsi, səh. 91 |
| | 304-2 Əməliyyatların, məhsulların və xidmətlərin biomüxtəlifliyə ciddi təsirləri | ✓ | Biomüxtəlifliyin mühafizəsi, səh. 91 |
| | 304-3 Qorunan və ya bərpa edilən yaşayış yerləri | ✓ | Torpaqlardan istifadə və mühafizə, səh. 86 |
| | 304-4 Əməliyyat sahələrində Beynəlxalq Təbiəti Qoruma İttifaqının Qırmızı Kitabına düşmüş növlərin mövcudluğu | ✓ | Biomüxtəlifliyin mühafizəsi, səh. 91 |
| | 304-1 Qorunan ərazilər və yüksək biomüxtəliflik dəyəri olan ərazilərdə və ya qonşu məkanlarda mülkiyyətdə olan, icarəyə götürülmüş və ya idarə olunan əməliyyat sahələri | ✓ | Biomüxtəlifliyin mühafizəsi, səh. 91 |

| | | | |
|---|---|---|---|
| **GRI 305: Emissiyalar 2016** | 305-1 İstixana effekti yaradan qazların (İEYQ) birbaşa emissiyası (Əhatə dairəsi 1) | ✓ | İqlim dəyişikliyi və İEYQ emissiyaları, səh. 65 |
| | 305-2 İstixana effekti yaradan qazların (İEYQ) dolayı emissiyası (Əhatə dairəsi 2) | ✓ | İqlim dəyişikliyi və İEYQ emissiyaları, səh. 65 |
| | 305-3 Digər istixana effekti yaradan qazların (İEYQ) dolayı emissiyası (Əhatə dairəsi 3) | ✓ | İqlim dəyişikliyi və İEYQ emissiyaları, səh. 65 |
| | 305-4 İEYQ emissiyalarının intensivlik əmsalı | ✓ | İqlim dəyişikliyi və İEYQ emissiyaları, səh. 65 |
| | 305-5 İEYQ emissiyalarında azalmalar | ✓ | İqlim dəyişikliyi və İEYQ emissiyaları, səh. 65 |
| | 305-6 Ozon qatını məhv edən emissiyalar | ✓ | Fəaliyyətə uyğun və ya əhəmiyyətli olmadığı üçün bu məlumatlar açıqlanmamışdır. |
| | 305-7 NOx, SOx və digər əhəmiyyətli emissiyalar | ✓ | İqlim dəyişikliyi və İEYQ emissiyaları, səh. 65 |
| **GRI 306: Tullantılar 2020** | 306-1 Tullantıların yaranması və tullantılarla bağlı əhəmiyyətli təsirlər | ✓ | Tullantıların idarəolunması, səh. 79 |
| | 306-2 Tullantılarla bağlı əhəmiyyətli təsirlərin idarəedilməsi | ✓ | Tullantıların idarəolunması, səh. 79 |
| | 306-3 Əmələ gəlmiş tullantılar | ✓ | Tullantıların idarəolunması, səh. 79 |
| | 306-4 Utilizasiyadan yayındırılmış tullantılar | ✓ | Tullantıların idarəolunması, səh. 79 |
| | 306-5 Utilizasiyaya yönəldilmiş tullantılar | ✓ | Tullantıların idarəolunması, səh. 79 |
| **GRI 308: Təchizatçıların ətraf mühit üzrə qiymətləndirilməsi 2016** | 308-1 Ekoloji meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar | ✓ | Dayanıqlı təchizat zəncirimiz, səh. 94 |
| | 308-2 Təchizat zəncirində mənfi ekoloji təsirlər və görülən tədbirlər | ✓ | Dayanıqlı təchizat zəncirimiz, səh. 94 |
| **GRI 401: Məşğulluq 2016** | 401-1 Yeni işə götürülən işçilər və işçi dövriyyəsi | ✓ | Kadrların cəlb edilməsi və karyera inkişafına yanaşmamız, səh. 42 |
| | 401-2 2 Müvəqqəti və yarımştat işçilərə təklif olunmayan, lakin tam ştat işçilərə təqdim olunan əlavə ödəmələr, güzəştlər və imtiyazlar | ✓ | "AzerGold"un mükafatlandırma sistemi, səh. 46 |
| | 401-3 Valideyn məzuniyyəti | ✓ | Kadrların cəlb edilməsi və karyera inkişafına yanaşmamız, səh. 42 |
| **GRI 402: İşçi və rəhbər əlaqələri 2016** | 402-1 Əməliyyat dəyişiklikləri ilə bağlı minimal bildiriş müddətləri | ✓ | Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi əsasında təyin olunur. |

| | | | |
|---|---|---|---|
| **GRI 403: Əməyin sağlamlığı və təhlükəsizliyi 2018** | 403-1 Sağlamlıq və əməyin təhlükəsizliyi üzrə idarəetmə sistemi | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| | 403-2 Təhlükənin müəyyən edilməsi, riskin qiymətləndirilməsi və insidentin araşdırılması | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| | 403-3 Əməyin mühafizəsi xidmətləri | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| | 403-4 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı iştirakı, məsləhətləşməsi və ünsiyyəti | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| | 403-5 İşçilərin əməyin mühafizəsi və təhlükəsizliyi üzrə təlimi | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| | 403-6 İşçilərin sağlamlığının təşviqi | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| | 403-7 İşgüzar əlaqələrlə birbaşa bağlı sağlamlıq və təhlükəsizliyə təsirlərin qarşısının alınması və yumşaldılması | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| | 403-8 Əməyin mühafizəsi və təhlükəsizliyi idarəetmə sistemi ilə əhatə olunan işçilər | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| | 403-9 İşlə əlaqədar xəsarətlər | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| | 403-10 İşlə əlaqədar xəstəlik | ✓ | Sağlamlıq, Əməyin mühafizəsi və təhlükəsizliyi, səh. 52 |
| **GRI 404: Təlim və təhsil 2016** | 404-1 Bir əməkdaşın payına düşən illik təlim saatları | ✓ | Kadrların cəlb edilməsi və karyera inkişafına yanaşmamız, səh. 42 |
| | 404-2 İşçi bacarıqlarının artırılması və keçid dəstəyi üzrə təlimlər | ✓ | Kadrların cəlb edilməsi və karyera inkişafına yanaşmamız, səh. 42 |
| | 404-3 Müntəzəm fəaliyyət və karyera inkişafı üzrə nəzərdən keçirilmiş işçilərin faizi | ✓ | Kadrların cəlb edilməsi və karyera inkişafına yanaşmamız, səh. 42 |
| **GRI 405: Müxtəliflik və bərabər imkanlar 2016** | 405-1 İdarəetmə orqanlarının və işçilərin müxtəlifliyi | ✓ | Müxtəlifliyin və inklüzivliyin təşviqi, səh. 47 |
| | 405-2 Başlanğıc əməkhaqqı və mükafatlandırma üzrə qadınların kişilərə olan nisbəti | ✓ | Müxtəlifliyin və inklüzivliyin təşviqi, səh. 47 |
| **GRI 406: Ayrı-seçkiliyin olmaması 2016** | 406-1 Ayrı-seçkilik hadisələri və onların qarşısını almaq üçün görülmüş tədbirlər | ✓ | Müxtəlifliyin və inklüzivliyin təşviqi, səh. 47 |

| | | | |
|---|---|---|---|
| **GRI 407: Birləşmə və kollektiv müqavilələr azadlığı 2016** | 407-1 Fəaliyyət çərçivəsində birləşmə azadlığı və kollektiv müqavilələrin istifadəsi haqqını risk altına salan əməliyyatlar və təchizatçılar | ✓ | Fəaliyyətə uyğun və ya əhəmiyyətli olmadığı üçün bu məlumatlar açıqlanmamışdır. |
| **GRI 408: Uşaq əməyi 2016** | 408-1 Uşaq əməyinin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | | |
| **GRI 409: Məcburi əmək 2016** | 409-1 Məcburi əməyin istismarı üzrə yüksək riskli əməliyyatlar və təchizatçılar | | |
| **GRI 410: Təhlükəsizlik təcrübələri 2016** | 410-1 Təhlükəsizlik işçilərinin insan haqları üzrə siyasət və prosedurlar barədə təlim keçməsi | | |
| **GRI 411: Yerli xalqların hüquqları 2016** | 411-1 Yerli xalqların haqlarının pozulması insidentləri | | |
| **GRI 413: Yerli cəmiyyətlər 2016** | 413-1 Yerli cəmiyyətlərin cəlb olunması, təsirlərin qiymətləndirilməsi və inkişaf proqramları olan əməliyyatlar | ✓ | Korporativ Sosial Məsuliyyət fəaliyyəti, səh. 104 |
| | 413-2 Yerli cəmiyyətlərə mövcud və potensial əhəmiyyətli mənfi təsirləri olan əməliyyatlar | ✓ | Korporativ Sosial Məsuliyyət fəaliyyəti, səh. 104 |
| **GRI 414: Təchizatçıların sosial qiymətləndirilməsi 2016** | 414-1 Sosial meyarlar üzrə qiymətləndirilmiş yeni təchizatçılar | ✓ | Dayanıqlı təchizat zənciri, səh. 94 |
| | 414-2 Təchizat zəncirində mənfi sosial təsirlər və görülən tədbirlər | ✓ | Dayanıqlı təchizat zənciri, səh. 94 |
| **GRI 415: İctimai siyasət 2016** | 415-1 Siyasi xarakterli töhfələr | ✓ | Fəaliyyətə uyğun və ya əhəmiyyətli olmadığı üçün bu məlumatlar açıqlanmamışdır. |
| **GRI 416: Müştəri sağlamlığı və təhlükəsizliyi 2016** | 416-1 Məhsul və xidmət kateqoriyalarının sağlamlıq və təhlükəsizlik təsirləri üzrə qiymətləndirilməsi | | |
| | 416-2 Məhsul və xidmətlərin sağlamlıq və təhlükəsizlik tələblərinə cavab verməməsi halları | | |
| **GRI 417: Marketinq və etiketləmə 2016** | 417-1 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri | | |
| | 417-2 Məhsul və xidmətlər üzrə məlumatlandırma və etiketləmə tələbləri ilə uyğunsuzluq halları | | |
| | 417-3 Marketinq kommunikasiyalarında uyğunsuzluq halları | | |
| **GRI 418: Müştəri məxfiliyi 2016** | 418-1 Müştəri konfidensiallığının pozulması və müştəri məlumatlarının itirilməsinə dair əsaslandırılmış şikayətlər | | |

Building a better
working world

Ernst & Young Holdings (CIS) B.V.
Port Baku Towers Business Centre
South Tower, 9th floor,
153, Neftchilar Ave.
Baku, AZ1010, Azerbaijan
Tel: +994 (12) 490 70 20
Fax: +994 (12) 490 70 17
www.ey.com/az

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Port Baku Tauers Biznes Mərkəzi
Cənub Qülləsi, 9-cu mərtəbə
Neftçilər prospekti, 153
Bakı, AZ1010, Azərbaycan
Tel: +994 (12) 490 70 20
Faks: +994 (12) 490 70 17

# Müstəqil Əminlik Bəyannaməsi

## AzerGold QSC-nin rəhbərliyinə

### *Mövzunun müəyyən edilməsi və təsviri*

AzerGold QSC-nin (bundan sonra "AzerGold") razılığı ilə biz, Əminlik Tapşırığına Dair Beynəlxalq Standartlara uyğun Şirkətin 1 yanvar 2021 - 31 dekabr 2023-cü il dövrü əhatə edən Dayanıqlı İnkişaf Hesabatında (bundan sonra "Hesabat") dayanıqlılıq üzrə əks olunan əhəmiyyətli kəmiyyət və keyfiyyət göstəricilərinə dair (bundan sonra "Mövzu") məhdud əminlik tapşırığını (bundan sonra "Tapşırıq") yerinə yetirdik.

Mövzu yalnız aşağıda qeyd olunan göstəricilərdən ibarətdir:

- AzerGold QSC
  - İşçilərin cəmi sayı
  - İşə qəbul olan cəmi işçi sayı
  - İşdən azad olan cəmi işçi sayı
  - İşçilərin cəmi təlim saatları
  - İş vaxtının itirilməsi ilə nəticələnən xəsarətlərin sayı (podratçılar)
  - KSM fəaliyyəti üzrə xərclər, AZN
  - Dizel yanacaq sərfiyyatı, litr
  - Elektrik enerji sərfiyyatı, kVt
  - Birbaşa emissiyalar (Əhatə 1), ton $CO_{2e}$
  - Dolayı emissiyalar (Əhatə 2), ton $CO_{2e}$
  - Su istehlakı, min. $m^3$
  - Əmələ gəlmiş təhlükəli mayə tullantıları (podratçılar), litr
  - Əmələ gəlmiş təhlükəli bərk tullantılar, ton
  - Əmələ gəlmiş təhlükəsiz bərk məişət tullantıları (podratçılar), $m^3$
  - Əmələ gəlmiş təhkülәsiz çirkab sular (podratçılar), $m^3$
- AzerBlast MMC (AzerGold-un tərkibində)
  - İşçilərin cəmi sayı
  - İşə qəbul olan cəmi işçi sayı
  - İşdən azad olan cəmi işçi sayı
  - İşçilərin cəmi təlim saatları
  - Dizel yanacaq sərfiyyatı, litr
  - Elektrik enerji sərfiyyatı, kVts
- DDF MMC (AzerGold-un tərkibində)
  - İşçilərin cəmi sayı
  - İşə qəbul olan cəmi işçi sayı
  - İşdən azad olan cəmi işçi sayı
  - İşçilərin cəmi təlim saatları
  - Dizel yanacaq sərfiyyatı, litr
  - Elektrik enerji sərfiyyatı, kVts

Biz Tapşırığın çərçivəsini əks etdirən əvvəlki paraqrafda göstərilmiş göstəricilərdən başqa Hesabata daxil edilən fəaliyyət göstəriciləri, hadisələr və planlaşdırılan fəaliyyətlər üzrə gələcək yönümlü bəyanatlar kimi digər məlumatlara əminlik prosedurlarını icra etməmişik və, müvafiq olaraq, bu məlumat üzrə əminlik təmin etmirik.

### *AzerGold tərəfindən tətbiq edilən meyarlar*

Mövzunu hazırlayarkən Qlobal Hesabatlılıq Təşəbbüsünün (GRI Standartları 2021) dayanıqlı inkişaf sahəsində hesabatların hazırlanması standartları (bundan sonra "GRI Standartları") və Hesabatın "Hesabat haqqında" bölməsində göstərilmiş dayanıqlı inkişaf hesabatlarının hazırlanması üzrə digər prinsiplər Şirkət tərəfindən hesabatlılıq meyarları (bundan sonra "Meyarlar") kimi qəbul olunmuşdur.

### *AzerGold-un məsuliyyəti*

Şirkətin rəhbərliyi Meyarların müəyyən olunmasına və bütün Mövzunun Meyarlara uyğun olaraq təqdim edilməsinə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin qarşısını almaq məqsədilə Mövzunun hazırlanması üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; münasib hesabat prinsiplərinin seçilməsi və tətbiqi; mövcud şəraitə uyğun olan ölçmə metodları və qiymətləndirmələrin istifadə edilməsi daxildir.

### *EY-ın məsuliyyəti*

Bizim məsuliyyətimiz, əldə etdiyimiz dəlillərə əsaslanaraq Mövzunun təqdim edilməsi ilə bağlı rəy bildirməkdir.

Əminlik tapşırığı *"Tarixi Maliyyə Məlumatlarının Auditindən və Rəylərindən Başqa Etibarlılıq Təchizatı üzrə Beynəlxalq Standart"* (bundan sonra "ISAE 3000") Beynəlxalq Standartına (yenidən baxılmış) və 20 noyabr 2023-cü il tarixində Şirkətlə razılaşdırılmış müqavilənin şərtlərinə uyğun olaraq həyata keçirilmişdir. ISAE 3000, Mövzunun bütün əhəmiyyətli aspektlər baxımından Meyarlara uyğun olaraq təqdim edilib-edilməyəcəyinə və Hesabatda əks etdiriləcəyinə dair məhdud zəmanət əldə etmək üçün fəaliyyətimizi planlaşdırmağı və yerinə yetirməyi tələb edir. Seçilən prosedurların təyinatı, vaxtı və miqyası, saxtakarlıq və ya yol verilən səhv nəticəsində əhəmiyyətli təhrif riskinin qiymətləndirilməsi də daxil olmaqla, qərarımızdan asılıdır.

Hesab edirik ki, əldə etdiyimiz dəlillər məhdud əminlik rəyimizə əsas yaratmaq üçün kifayət və uyğundur.

Building a better
working world

***Müstəqilliyimiz və keyfiyyətin idarə edilməsi***

Biz müstəqillik prinsiplərinin və Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurası tərəfindən qəbul edilmiş Peşəkar Mühasiblərin Etika Məcəlləsinin (IESBA) tələblərinə əməl etdiyimizi, eləcə də Tapşırığın yerinə yetirilməsi üçün lazımi səriştə və təcrübəyə malik olduğumuzu təsdiqləyirik.

Biz həmçinin etik tələblərə, peşə standartlarına və tətbiq olunan qanuni və tənzimləyici tələblərə uyğunluqla bağlı siyasət və prosedurlar daxil olmaqla keyfiyyətin idarə edilməsi sisteminin hazırlanmasını, icra və tətbiq edilməsini tələb edən Keyfiyyətin İdarə Edilməsi üzrə 1 saylı Beynəlxalq Standartını (ISQM 1), Maliyyə Hesabatlarının Auditlərini və ya Yoxlamalarını, Digər Əminlik və ya Aidiyyatı olan Xidmətlər üzrə Tapşırıqları İcra Edən Şirkətlər üçün Keyfiyyətin İdarə Edilməsini tətbiq edirik.

***Yerinə yetirilmiş işin xülasəsi***

Məhdud əminlik tapşırığı çərçivəsində yerinə yetirilən prosedurların təyinatı, vaxtı və miqyası kifayət qədər əminlik tapşırığı ilə müqayisədə daha məhduddur. Buna görə də, məhdud əminlik tapşırığı nəticəsində daha aşağı əminlik səviyyəsi əldə edilir. Prosedurlarımız əldə olunan məhdud əminliyin əsasında nəticənin formalaşması üçün həyata keçirilmişdir və kifayət qədər əminliyin alınması üçün tələb olunan bütün dəlilləri nəzərə almır.

Prosedurlarımızın mahiyyətini və miqyasını təyin edərkən rəhbərliyin daxili nəzarətinin effektivliyini nəzərə alsaq da, əminlik öhdəliyimiz daxili nəzarət sistemlərinə dair zəmanət vermək üçün nəzərdə tutulmamışdır. Prosedurlarımıza nəzarət sisteminin test olunması və ya IT sistemləri daxilində məlumatların agregasiyası və ya hesablanması ilə bağlı prosedurlar daxil edilməmişdir.

Məhdud əminlik tapşırığı ilk növbədə Mövzunun və əlaqəli məlumatların hazırlanması üzrə məsul şəxslərə sorğuların edilməsi, habelə analitik və digər müvafiq prosedurların yerinə yetirilməsindən ibarətdir.

Yerinə yetirdiyimiz prosedurlar aşağıdakılardan ibarət olmuşdur:

- AzerGold-un dayanıqlı inkişaf sahəsində qaydaları, fəaliyyəti, iş nəticələri və müvafiq hesabatların hazırlanmasına görə məsuliyyət daşıyan rəhbərliyinin nümayəndələri ilə müsahibələr.
- AzerGold-un dayanıqlı inkişaf sahəsində qaydaları, fəaliyyəti, iş nəticələri və müvafiq hesabatlara aid olan əsas sənədlərin təhlili.
- Hesabatın AzerGold-un fəaliyyət istiqamətinə oxşar beynəlxalq miqyasda seçilmiş şirkətlərin hesabatları ilə müqayisə edilməsi.
- AzerGold-un 2021-2023-cü illər üzrə dayanıqlı inkişaf sahəsində qaydaları, fəaliyyəti, tədbirləri və iş nəticələrinə dair seçilmiş daxili və xarici nəşrlərin təhlili.
- Hesabat dövrü üzrə orada açıqlanan məlumatların Meyarlara uyğun olaraq düzgün toplanılması, hazırlanması, müqayisə edilməsi və əks etdirilməsini yoxlamaq məqsədilə əsas dayanıqlılıq göstəriciləri üzrə məlumat nümunələrinə əsaslanaraq testlərinin keçirilməsi.
- Şirkətin Hesabatda göstərilmiş dayanıqlı inkişaf sahəsində qaydaları, fəaliyyəti, tədbirləri və iş nəticələrinə dair məlumatları təsdiq etmək və bununla əlaqədar audit dəlilləri toplamaq məqsədi ilə Şirkətin müvafiq struktur bölmələri, eləcə də törəmə şirkətləri olan "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC-yə təşkil olunmuş audit səfərləri.
- Hesabata daxil edilmiş keyfiyyət və kəmiyyət məlumatlarını əsaslandıran dəlillərin nümunə əsasında toplanması və yoxlanılması.
- Hesabatda məlumatların açıqlanmasının GRI Standartlarının tələbləri ilə uyğunluğunun yoxlanılması.

Aparılan işlər çərçivəsində tələb olunan digər əlavə prosedurlar da həyata keçirilmişdir.

***Nəticə***

Yerinə yetirdiyimiz prosedurlar və əldə etdiyimiz sübutlar nəticəsində, Mövzunun 31 dekabr 2023-cü il tarixinə olan Meyarlara uyğunluğu üçün ona edilməli hər hansı əhəmiyyətli dəyişikliklər barəsində məlumatımız yoxdur.

Ernst & Young Holdings (CIS) B.V.

14 yanvar 2025-ci il

Bakı, Azərbaycan

ONLAYN RESURSLARDA

www.azergold.az

azergold.az

azergoldqsc

azergoldqsc

azergold-cjsc

Azergold_QSC

ƏLAQƏ MƏLUMATLARI

Mikayıl Müşfiq küç., 2H
Mikail Mushfig str., 2H

info@azergold.az

+994 12 505 02 02

AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**2021-2023-CÜ İLLƏR ÜZRƏ DAYANIQLI İNKİŞAF HESABATI**

Bakı-2024